Albert Einstein

The World As I See It

İNDİVİD
YAYIN EVİ

İNDİVİD YAYIN EVİ

Nəşr etdi
Təravət Quliyeva
Taleh Hüseynov

Tərcümə etdi
Leyla Cavadova

Bədii redaktə
Aida İsmayılova

Elmi redakta
Sadiq Şamilov

Dizayn Etdi
Nicat Aslanov

Kitaba Araz Günduzun tərcüməsində Albert Eynşteynin "Din və Elm"həmçinin Ziqmund Freydə yazdığı məktub əlavə olunub.

Kitabın təkrar və hissə-hissə nəşri üçün müəlliflik və əlaqəli hüquqlar haqqında Azərbaycan Respublikasının qanunlarına əsasən xüsusi icazə alınması tələb olunur.

Tiraj: 700
Səhifə sayı: 124
Əlaqə: individ2018@gmail.com
Tel: (+99455) 657-40-97
ISBN- 978-9952-37-075-1

©The world as I see it 1949
©Individ Yayın Evi

Bakı-2018

Mündəricat

Ön söz 8

I Fəsil. I Hissə

Həyatın mənası 12
Dünyanı necə görürəm 12
Vicdan azadlığı."Qumbel" qiyamına dair 16
Xeyir və şər 17
Ümumi və şəxsi 18
X.A.Lorensin məzarındakı çıxışım 21
Beynəlxalq əməkdaşlıq sahəsində X.A.Lorensin xidmətləri 21
"Die Naturwissenschaften" (Təbiət elmləri) jurnalının redaktoru Arnold Berlinerin 70 illik yubileyi şərəfinə ..24
"Popper-Linkeus" 26
Cərrah M. Kontsenşteynə nekroloq 26
Sərvət haqqında 29
Pedaqogika və pedaqoqlar haqqında 30
Yapon məktəblilərinə müraciət 30
Müəllimlər və şagirdlər. Uşaqlara müraciət 31
İtirilmiş cənnət 32
Din və elm 32
Elmin dini etiqadı 39
Elmin acınacaqlı vəziyyəti 41
Faşizm və elm 42
Müsahibə haqqında 43
Amerikaya təşəkkür 45
Davosdakı universitet kursları 46
Tənqidçiyə təbrik 49
C.B.Şounu salamlama 49
Amerika təəssüratları haqqında qeydlər 49

Amerikalı qadınlara cavab 54

I Fəsil. II Hissə

Siyasət və pasifizm 54
Pasifizm problemi 55
Tələbə mitinqində tərk-silaha dair müraciət 56
Ziqmund Freyda 58
Almaniya və Fransa 63
Arbitraj məhkəməsi 65
Beynəlxalq elmi təcrübə 65
İntellektual əməkdaşlıq institutu 67
Vida 69
Tərk-silah məsələsinə dair 70

II Fəsil. I Hissə

"Siyasi əqidə haqqında qeydlərdən başlayımmı?' 72

II Fəsil. II Hissə

"Bəşəriyyətin dahi ixtiraçısı" 76
Amerika və tərk-silaha dair konfrans 78
Aktiv pasifizm 80
Sülh tərəfdarına məktub 81
Yenə o mövzu haqqında 82
Və yenə də eyni mövzudan 83
Mədəniyyət və rifah 87
İstehsal və alıcılıq qabiliyyəti 88
İstehsal və işçi qüvvəsi 89
Azlıqlar 91
Avropanın cari vəziyyəti barədə qeydlər 91

II Fəsil. III Hissə

Almaniya, Manifest 1933-cü il 93
Akademiyanın Eynşteynin əleyhinə bəyannaməsi 93
Prussiya Elmlər Akademiyasına müraciət 94
Almaniyadakı antisemitizmə qarşı fransız manifestinə qoşulmaq təklifinə cavab 100

III Fəsil. I Hissə

Fələstinin dirçəlişinə dair çıxışlar 101
"Biz bu gün ona görə toplaşmışıq ki" 102
" "Biz, yəhudilər üçün Fələstin" 106
Yəhudi icması 107
«İşçi Fələstin Liqası" 109
Yəhudilərin dirçəlişi 110
Antisemitizm və təhsil alan gənclər 111
Professor doktor Gelpaxa məktub 113
Bir ərəbə məktub 115
Əlavə 116

Ön söz

Mister X.Qordon Qarbedyan Albert Eynşteynin tərcümeyi-halında qeyd edir ki, bir dəfə amerikalı jurnalist fizikdən "nisbilik nəziyyəsi"ni qısa formada izah etməsini xahiş edib. Cavabında Eynşteyn "nisbilik nəzəriyyəsi"ni qısa izah etmək üçün ona üç gün vaxt lazım olduğunu bildirib. O, əlavə edə bilərdi ki, əgər sual verən rıyaziyyat və fizikaya dair dərin biliklərə sahib deyılsə, bu qısadılmış izahı başa düşmək onun üçün çətin olacaq. Bir çoxumuz üçün Eynşteynin nəzəriyyəsi sirlərlə doludur. Eynşteynə Mark Tvenin bir riyaziyyat monoqrafiyasının müəllifinə yanaşdığı kimi yanaşmaq lazımdır: müəllif böyük bir kitab yazıb, Mark Tven isə o kitabdan bir söz belə anlamayıb. Məhz buna görə ümumi ictimaiyyət Eynşteyni dahi hesab edir çünki, o, sadə dillə izah edilməsi mümkün olmayan inqilabi kəşflər edib. Biz, idrakı bizimkindən qat-qat üstün olan, nailiyyətlərini, məntiqini və onun nəticələrini yalnız az sayda insanların anladığı şəxslə fəxr edirik. Lakin Eynşteynin şəxsiyyətinin başqa bilinməyən yönləri də var. Bunları kitabda toplanmış qeydlərində, məktub-larında, çıxışlarında və bəzi məqalələrində görmək mümkündür. Bu hissələr Eynşteynin mozaik portretini təşkil edir. Hər bir hissə özlüyündə Eynşteynin maarifləndirmə və tərəqqi, müharibə və sülh, azadlıq və hər birimizi maraqlandıran digər problemlərə baxışını əks etdirir. Eynşteynə həyatda yalnız bir şey kainatın quruluşunu sərbəst araşdırmaq sərbəstliyi lazımdır. Onun xarakteri qeyri-adi sadəliyi və səmimiyyəti ilə seçilirdi; Eynşteyn bir çox iddialı insanlardan fərqli ola-raq var-dövlətə, şöhrətə və digər mükafatlara tamamilə biganə idi. Eyni zamanda, o, dünyanın acılarından və çətinliklərindən kənar gəzən biri deyildi. Eynşteyn erkən uşaqlıqdan yoxsulluq və insanlıqdan kənar rəftarlarla tanış idi və məzlumları, zəifləri müdafiyə etmək üçün

gücünü heç vaxt əsirgəməzdi. Onun həssas təbiəti mübahisə və fitnələrə nifrət bəsləyirdi. Bununla belə düşünürdü ki, öz mövqeyini bildirməklə ədalətsizliyə son qoya bilərsə, mütləq sözünü deməlidir. Tarixdə insan hüquqlarını belə səylə müdafiə edən bir introvert-riyaziyyatçı dahiyə çox az rast gəlinib.

Albert Eynşteyn 1879-cu ildə Ulm şəhərində anadan olub. Bir il sonra onun atası Münhen şəhərinə köçərək, orada elektrotexnika avadanlıqlarının satışı ilə məşğul olan kiçik bir şirkət qurub. Altı yaşında ikən bu kiçik oğlan ciddi rejimli, hətta az qala hərbi nizam-intizamı olan bir məktəbə gedib. Yəhudi ailəsindən olan utancaq, xəyalpərəst uşaq özünü katoliklər arasında yad hiss edirdi.Bütün bunlar onda dərin,silinməz izlər buraxmışdı. Müəllimləri Alberti xarici dil, tarix, coğrafiya və digər əsas fənləri öyrənməyə bacarığı olmayan yaramaz şagird hesab edirdilər. Onda riyaziyyata marağı məktəb müəllimləri deyil, tibb tələbəsi bir yəhudi gənc-Maks Talmi oyatmışdı. Gənc Albertə həndəsə kitabı hədiyyə edərək onu maraqlı araşdırmalar etməyə istiqamətləndirir və artıq on dörd yaşında Eynşteyn riyaziyyatı müəllimlərindən daha yaxşı anlayırdı. Bundan əlavə, həyatının bu mərhələsində o, fəlsəfəni öyrənməyə başlayır, təkrar-təkrar Kant və digər metafiziklərin əsərlərini oxuyur.

İşgüzar münasibətlərinin kəskinləşməsi səbəbi ilə Eynşteynin atası yenidən hər şeyi Milanda başlamalı olur və gənc Albert Almaniyadakı həyatından fərqlənən, daha parlaq və işıqlı həyat yaşamağa başlayır. Lakin bu çox çəkmir, bir neçə ay boş keçir. İşə başlamaq lazım idi. Karyerasının başlanğıcı Eynşteyn üçün uğurlu oldu. Belə ki, Münhen gimnaziyasının riyaziyyat müəllimi Albertə mürəkkəbliyi artırılmış kurs keçməsi haqqında şəhadətnamə verir və onu Sürixdəki Ali texniki məktəbə qəbul edirlər. Bundan öncə, bir il ərzində Eynşteyn

riyaziyyata görə laqeyd yanaşdığı əsas fənləri də öyrənir. Lakin, Ali texniki məktəbdə dərslərə gəldikdən sonra, fizika və fəlsəfəni öyrənməyə başlayır və inanılmaz uğurlar əldə edir. Beş illik qüsursuz təhsildən sonra Eynşteyn həmin məktəbdə müəllimlik etməyi düşünürdü, ancaq onda bu ümidi yaradan professorlar sonradan öz vədlərini yerinə yetirmədilər.

Yorucu iş yeri axtarışları başladı - iki qısa müddətli müəllimlik təcrübəsi və Berndə Federal patentləmə bürosunda daimi ekspert. İş monoton və sıxıcı olsa da, həm lazımi təcrübə toplanmasına kömək edir, həm də riyaziyyatın incəliklərini öyrənmək üçün beynin boş qalmasına şərait yaradırdı. Nəticədə bu incəliklər "Nisbilik Nəzəriyyəsinin" əsasına çevrildi. 1905-ci ildə "Annalen der Physik" ("Fizikanın təhlili") elmi jurnalında "nisbilik nəzəriyyəsi" haqqında ilk məqaləsi çap olunur. Qəfildən isveçrəlilər aralarındakı sadə patent işçisinin dahi olduğunu görürlər və Eynşteyni mühazirə oxumaq üçün Bern universitetinə dəvət edirlər. Daha dörd il sonra, 1909-cu ildə ona Sürix universitetinin professoru adı verilir Növbəti vəzifəni o, Praqa universitetində alır və burada il yarım işləyir. Bundan sonra o, qısa müddətə Sürix universitetinə qayıdır, oradan isə 1914-cü ilin əvvəlində Berlinə köçür və Prussiya Elmlər Akademiyasının professoru, eyni zamanda Vilhelm adına nəzəri Fizika İnstitutunun direktoru olur. Birinci dünya müharibəsi Eynşteyn üçün sınaq müddətinə çevrilir. O, pasifizmini (sülhpərvərliyini) gizlədə bilmir və təsəllini yalnız elmi işlərdə tapır. Növbəti hadisələr onu dünya səyahəti etməyə vadar edir. Səyahətləri zamanı o, pasifizm, bütün planetdə tərk-silah və yəhudilərin haqlarının qorunması naminə çıxışlar edirdi. Almaniyada nasistlərin arasında belə bir düşüncədə olan insanın qalmağı, hətta bu fikirləri təbliğ etməsi mümkün deyildi. 1933-cü ildə Eynşteyn öz məşhur nitqini söyləmişdi: "Bir

halda ki, mənim seçim etmək hüququm var, mən yalnız siyasi azadlıqların, tolerantlığın və bütün vətəndaşların qanun qarşısında bərabər olduğu bir ölkədə yaşayacağam." O, bir müddət evsiz qalsa da, sonradan İspaniya, Fransa, İngiltərəyə dəvət alır. Lakin Prinstonda riyaziyyat və nəzəri fizika professoru vəzifəsində qərar tutur. İndi azad cəmiyyətdə yaşamaq və işləmək mümkün olduğundan Eynşteyn öz vəzifəsindən razı və xoşbəxt idi. Halbuki, müharibənin acı xatirələrini hələ də, unuda bilməmişdi.

İlkin olaraq "Mənim Gördüyüm Dünya" kitabına Eynşteynin "Nisbilik Nəzəriyyəsi" və ona oxşar məsələlərlə bağlı məqalələr daxil edilmişdi. Lakin, müəyyən səbəblərdən cari nəşrdə bu məqalələr buraxılıb. Belə ki, kitabın yenidən nəşrində məqsəd geniş oxucu kütləsinə dövrümüzün dahi təfəkkür sahiblərindən birinin necə insan olduğunu göstərməkdir.

I Fəsil
I Hissə

Həyatın mənası

İnsan həyatının və ya ümumiyyətlə canlı həyatın mənası nədir? Bu suala cavab vermək istəyiriksə, dini mövqeyə nəzər salmalıyıq. Bu sualı soruşmağın əhəmiyyəti varmı deyə bilərsiniz. Cavabım belə olacaq: Özünün və yoldaşlarının həyatının mənasız olduğunu düşünən insan nəinki bədbəxt, eyni zamanda, demək olar ki, həyatdan təcrid olunmuşdur.

Dünyanı Necə Görürəm

Biz, fani insanlar üçün qəribə bir tale yolu hazırlanıb. Hər birimiz dünyaya qısa müddətli gəlirik və çox zaman da hansı məqsədlə gəldiyimizi bilmirik, sadəcə bəzən bunu hiss edirik. Çox da dərinliklərə varmasaq, gündəlik həyatımıza əsaslanaraq digər insanlara - ilk növbədə, gülüşü və rifahından xoşbəxtliyimizin asılı olduğu insanlara, daha sonra, şəxsən tanış olmasaqda, şəfqət bağları ilə talelərimizin bir-birilə bağlandığı insanlara görə yaşayırıq. Mən gündə yüz dəfə özümə xatırladıram ki, mənim daxili və zahiri həyatım, həyatda olan və həyatdan köçmüş müxtəlif insanların əməyindən asılıdır. Buna görə də mənim üçün çəkilən və çəkilməkdə olan zəhmətin əvəzini qaytarmağa var gücümlə çalışmalıyam. Mən kəskin şəkildə sadə həyatın tərəfdarıyam və eyni taleyi paylaşdığım insanların zəhmətini boş yerə sərf edib, onlara əziyyət verdiyimi düşünmək istəmirəm. Mənə elə gəlir ki, siniflərə ayrılma ədalətə ziddir və azda olsa təcavüzlərə əsas yaradır. Bundan əlavə, məncə, sadə həyat hamının həm əqli, həm fiziki cəhətdən xeyrinədir.

Fəlsəfi mənada insan azadlığına gəlincə, buna qəti surətdə inanmıram. Hər şey xarici qüvvələrin təsirindən əlavə, həm də daxili məcburiyyətdən baş verir. Şopenhauerin "İnsan istədiyi hər şeyi edə bilər, lakin, istədiyi bir şeyi istəyə bilməz" sözləri məni erkən gənclik dövründən ilhamlandırıb, sakitləşdirib və başqalarının həyat çətinlikləri ilə barışmağıma tukənməz güc verib. Bu hiss asanlıqla iflicə gətirib çıxaran məsuliyyət yükünü mərhəmətli şəkildə azaldır, özümüzü və başqalarını çox ciddi qəbul etməyimizə imkan vermir, ilk növbədə dünyagörüşümüzü məxsusi yer tutan yumor tərəfə doğru yönəldir.

Obyektiv nöqteyi-nəzərdən xilqətimizin mənasını və ya məqsədini axtarmaq mənə həmişə absurd görünüb. Buna baxmayaraq hər bir şəxsin onu həvəsləndirən, qərarlarına təsir göstərən idealları var. Bu mənada hər şeydən uzaq, daxilində məqsəd olan şeylərə çox da yaxşı baxmıram. Yolumu işıqlandıran və vaxtaşırı həyatı olduğu kimi qəbul etməyə cəsarət verən ideallar, həqiqət, yaxşılıq və gözəllik olub. Əgər incəsənət və elmi tədqiqatlar sahəsində obyektiv, daimi və əlçatmaz olanı axtaranlar, oxşar dünyagörüşünü paylaşdığım insanlarla yaxınlıq hissini duymasaydım, həyat mənə mənasız gələrdi. İnsanın istəklərinin əsas hədəfləri olan mülkiyyət, zahiri uğur, cah-calal mənə həmişə maraqsız görünüb. Mənim sosial ədalətə və ictimai məsuliyyətə olan sarsılmaz inamım, məni insanlar və insan toplumu ilə əlaqə tələbatından uzaq tutan azadlığımla qəribə bir ziddiyyətdədir. Mən öz yolumla irəliləyirəm və tənhalığı seçmişəm, heç vaxt ölkəmə, evimə, dostlarıma, hətta ən yaxın qohumlarıma belə, dərindən bağlanan biri olmamışam. Ətrafımdan uzaq durmaq istəyim heç vaxt azalmadı və tənhalıq hissim hər il daha artdı. Bəzən kədərli olsa da, təəssüflənmədən başa düşürsən ki, İnsanlarla anlaşmaq və səmimi olmaq imkanı

necə də məhduddur. Belə bir insan, əlbəttə ki, enerji və qayğısızlıq baxımından bəzi şeyləri əldən buraxıb amma digər tərəfdən özünü başqalarının baxışlarından, adət-ənənə və qərarlarından azad edərək vəziyyətini təhlükəli əsaslar üzərində qurmağı qəbul edir. Mənim siyasətdəki idealım demokratiyadır. Hamıya hörmət bəsləmək və heç kimin qarşısında əyilməmək. Taleyin istehzası ondan ibarətdir ki, mən özüm də, dəfələrlə yoldaşlarımın gözündə heyranlıq və xüsusi hörmət predmeti olmuşam-bunda mənim nə günahım, nə də səyim olmayıb. Belə münasibət yəqin ki, çoxları üçün əlçatmaz arzu olan-bəsit bacarıqlarımla, yorulmaz səylərim nəticəsində irəli sürdüyüm iki-üç ideyanı başa düşməkdən irəli gəlir. Amma bu bəzilərinə mümkünsüz görünür. Çətin vəzifələrin uğurla həyata keçirilməsi üçün düşünmə, yönləndirmə və məsuliyyətə bağlı məsələləri ancaq bir nəfərin öhdəsinə götürməli olduğunu bilirəm. Lakin, insanların öz rəhbərini seçmə hüququ olmalıdır. Avtoritar təhriketmə sistemi fikrimcə, qısa zamanda dağılmağa məhkumdur. Çünki güc hakimiyyəti yalnız əxlaqsızlar üçün sərfəlidir və tiranların fırıldaqçılar vasitəsilə uğur qazanması dəyişməz tarixi bir qanundur. Məhz buna görə də, bu gün İtaliya və SSR-i də müşahidə etdiyimiz sistemlərin həmişə əleyhinə olmuşam.

Bu gün Avropada üstünlük təşkil edən demokratiya forması demokratik ideyalara görə deyil, hökumət başçıları arasında olan qeyri-sabitlik və seçkisiz bir sistemin olmasına görə nüfuzdan düşdü. Bu istiqamətdə Amerika Birləşmiş Ştatlarının düzgün yolda olmasına əminəm. Onların kifayət qədər uzun müddətə seçilmiş məsuliyyətli prezidentləri var və o, öz vəzifə öhdəliklərini yerinə yetirmək üçün kifayət qədər səlahiyyətlərə malikdir. Digər tərəfdən, bizim siyasi sistemdə bəyəndiyim insanların xəstə və ya ehtiyac içində olduğu vaxt onlara daha çox diqqət ayrılmasıdır. İnsanın həyat dramında mənim

üçün ən qiymətli dövlət yox, həssas, yaradıcı şəxsiyyət, fərdiyyətdir. Həqiqətən, alicənab, dahiyanə insanlar yalnız belə adamların içindən çıxır, kütlə isə həmişə səthi fikirləri və düşüncələri ilə özlüyündə maraqsızdır. Bu mövzu məni kütlə təbiətinin ən pis tərədinə, nifrət etdiyim hərbi sistemə gətirib çıxarır. Mənim üçün orkestrin sədaları altında addım-lamaqdan zövq alan insan artıq hörmətə layiq deyil. Baş beyin ona səhvən verilib, onurğa beyni kifayət edərdi. Sivilizasiyanın bu xəstəliyini təcili surətdə məhv etmək lazımdır. Əmrlə edilən qəhrəmanlıq, mənasız qəddarlıq, vətənpərvərlik naminə edilən səfehlik -bütün bunlara necə də nifrət edirəm. Müharibə mənə iyrənclik və zülm kimi görünür, bu cür murdar işlərdə iştirak etməkdənsə, xırda tikələrə belə doğranmağa razı olaram. Bütün bunlara baxmayaraq, insan nəsli haqqında yüksək fikirdəyəm və əminəmki, əgər xalqların sağlam düşüncələrinə mətbuat və təhsil vasitəsilə, sistemli şəkildə kommersiya və siyasi maraqlar naminə müdaxilə edilməsəydi, bu dəhşətə son qoymaq olardı.

Yaşaya biləcəyimiz ən vacib həyati təcrübə sirli olanın araşdırılmasıdır. Onun tapılması həqiqi incəsənət və həqiqi elmin öhdəsinə düşür. Hər şeyi bilən birisi nə nəyəsə maraq hiss edir, nə də təəccüblənir. Belə biri ölü, sönmüş bir şam kimidir. Məhz sirrə qorxuyla yanaşma dinin yaranmasının əsasını qoydu. Zehnimizin ancaq sadə şəkildə qavrayabildiyi, dərinliklərinə nüfuz etmək iqtidarında olmadığımız bir şeyin mövcudluğu haqqında bilik, ən iti ağlın və ən parlaq gözəlliyin təzahürü... Bu bilik və hisslər həqiqi dini münasibəti formalaşdırır. Yalnız və yalnız bu mənada mən, dinə dərindən bağlı biriyəm. Mən öz bəndələrini cəzalandıran və mükafatlandıran və ya özümüzdə dərk etdiyimiz iradəyə sahib olan Allahı təsəvvür edə bilmirəm. Bioloji ölümdən sonra ruhun qorunub saxlanması da, mənim idrak hüdudlarımdan kənardır - heç bunu istəməzdim də:

belə təsəvvürlər yalnız qorxudan irəli gəlir. Mənə təbiətdə özünü göstərən böyük ağlın ən kiçik hissəsini dərk etmək üçün həyatın sirləri və dünyanın nizamlılığının möcüzələri kifayət edir.

1931-ci il

Vicdan azadlığı. «Qumbel»* qiyamına dair

Akademik vəzifələr həddindən artıq çoxdur, lakin, müdrik və alicənab mentorlar xeyli azdır. Mühazirə auditoriyaları geniş və çox saylıdır, həqiqət və ədalət eşqi ilə yanan insanlar isə elə də çox deyil. Təbiət öz payını səxavətlə verir, ancaq çox nadir hallarda keyfiyyətli məhsul istehsal edir. Bütün bunlar bizə çoxdan məlumdur - nədən şikayətlənək? Bu belə idi və həmişə də, belə olacaq. Elə deyilmi? Əlbəttə ki, elədir və təbiətin verdiyi hər şeyi olduğu kimi qəbul etmək lazımdır. Lakin, müxtəlif nəsillərdə insandan insana ötürülən zamanın ruhunu və cəmiyyətə xüsusi infomasiya çatdıran zehniyyəti də nəzərə almaq lazımdır.

Hər birimiz zamanın ruhuna töhfələrimizi veririk. Yüz il bundan qabaqkı universitet gənclərinin və indiki gənclərin ruhunu müqayisə edin. O vaxt gənclər klassiklərimizin yaşadığı və uğrunda mübarizə apardığı cəmiyyəti yaxşılaşdırmağın mümkün olduğuna inanırdılar, başqalarının fikrinə hörmətlə yanaşardılar, səbrli idilər. Həmin günlərdə hamı bir siyasi birliyə can atırdı - onun adı Almaniya idi. Bu ideallar universitet tələbələri

1*.Qumbel, Emil Yulius (1891-1966) yəhudi əsilli alman riyaziyyatçı və publisistidir. 1930-cu ildə Heydelberg universitetinin nasist tələbələri universitet binasını mühasirəyə alaraq Qumbelin işdən azad olunmasını tələb etmişdilər. Bu iğtişaşlar "Qumbel qiyamı" adını almışdır.

və müəllimləri sayəsində yaşayırdı. Bu gün də, hamı sosial inkişafa, fikir azadlığına və tolerantlığa, siyasi birliyə can atır – indi bu Avropa adlanır. Lakin, bizim universitetin tələbələri elə müəllimləri kimi öz xalqının idealları və ümidlərini tam dəyərləndirmirlər. Soyuq və nifrət dolu dövrümüzə baxdıqda bu hal gözə çarpır.

Bu gün hamımız bir-birimizə dəstək olmağa toplaşmışıq. Fəaliyyətimizin xarici səbəbi-Qumbelin işidir. Bu ədalət carçısı ağlasığmaz siyasi cinayətlər haqqında peşəkarlıqla, cəsarətlə, səhih yazılar yazdığı üçün onun kitabları cəmiyyətin gözünü açıb. Bu insanı tələbələr və əksər iş yoldaşları böyük səylə universitetdən qovmağa çalışırlar. Siyasi mövqelərin belə nəticələrə gətirib çıxarmasına yol vermək olmaz. Əminəm ki, cənab Qumbelin kitabları hər bir qərəzsiz oxucuya da, mənə təsir etdiyi kimi təsir edəcəkdir. Əgər sağlam siyasi cəmiyyət yaratmaq istəyiriksə, belə insanlarsız keçinə bilmərik. Qoy hamı onu başqalarının dediklərinə deyil, öz düşüncəsinə görə-oxuduqlarına əsasən mühakimə etsin. Bu zaman Qumbelin işi cəsarətli başlanğıca baxmayaraq xeyrimizə olacaqdır.

1930-cu il

Xeyir və şər

Əlbəttə, insan nəslinin yüksəlməsinə və onların həyatlarının yaxşılaşdırılmasına səbəb olan insanları daha çox sevmək lazımdır. Lakin, bu insanların kim olduğunu dərindən araşdırsaq, bir sıra çətinliklərlə qarşılaşacağıq. Hətta əgər siyasət və din xadimlərini götürsək, onların daha çox yaxşı və ya pis işlər gördü-

yünü anlamaq olmur. Tam səmimiyyətimlə burdan belə bir nəticə çıxarıram insanlara oluna biləcək ən böyük yaxşılıq, onlara ruhlarını yüksəldən bir iş vermək və bununla da, dolayı yolla onları inkişafa istiqamətləndirməkdir. Bu, ən çox dahi rəssama aid edilsə də, alimə də şamil olunur. Əlbəttə, insanı yüksəldən və onun təbiətini zənginləşdirən elmi tədqiqatların nəticələri deyil, intellektual fəaliyyətin həm yaradıcılıq, həm də mənasını anlamaq arzusudur. Sözsüz ki, Talmudun dəyərini onun intellektual işlərinin bəhrəsi ilə ölçmək cəfəngiyyat olardı. İnsanın əsl dəyəri ilk növbədə, onun "Mən" obrazını tərk etməsinin əhəmiyyəti barədə düşüncəsi ilə ölçülür.

Ümumi və şəxsi

Oz həyatımıza və istəklərimizə baxdıqda bunların demək olar ki, tamamilə başqa insanların varlığı ilə bağlı olduğunu dərhal sezə bilərik. Biz, xislətimizin heyvanların təbiətini xatırlatdığını görürük. Becərmədiyimiz məhsulları yeyirik, tikmədiyimiz paltarları geyinirik, inşa etmədiyimiz evlərdə yaşayırıq. Təsəvvürlərimizin və biliklərimizin böyük bir hissəsini yaratmadığımız dil vasitəsi ilə başqalarından alırıq. Dil olmadan əqli qabiliyyətlərimiz məhdud çərçivədə, heyvanlarda olduğu kimi olardı; deməli, heyvanlardan əsas üstünlüyümüz insan cəmiyyətində yaşamağımızdır. Əgər insanı doğulduğu andan tənha qoysaq, onun zehni və hissləri heyvanlar kimi ən aşağı səviyyədə inkişaf etmiş olacaq, biz onu başa düşməkdə çətinlik çəkəcəyik. İnsanın şəxsiyyət kimi formalaşmasında öz ləyaqətindən daha çox, beşikdən qəbrə qədər həm maddi, həm də mənəvi varlığını

istiqamətləndirən cəmiyyət rol oynayır. İnsanın cəmiyyət üçün dəyəri ilk növbədə onun fikirlərinin, hisslərinin və davranışının nə dərəcədə soydaşlarının xeyrinə doğru yönəlməyi ilə ölçülür. Bizim onu yaxşı və ya pis insan adlandırmağımız da, məhz bununla şərtlənir. İlk baxışdan elə görünür ki, insanı qiymətləndirməyimiz onun sosial keyfiyyətlərindən asılıdır. Lakin bu yanaşma səhv də ola bilər. Cəmiyyətdən aldığımız bütün maddi, mənəvi və əxlaqi dəyərlər nəsildən-nəslə istedadlı şəxsiyyətlərə ötürülür.Alovun istifadəsi, yeməli bitkilərin yetişdirilməsi, buxar maşını-bunlar hamısımüxtəlif fərdlərin kəşfləridir. Ancaq fərd düşünməyə və bununla da, cəmiyyət üçün yeni dəyərlər yaratmağa qadirdir. Bundan əlavə, o, cəmiyyətdəki həyata uyğun gələn mənəvi standartlar da yaratmaq iqtidarındadır. Müstəqil yaradıcı təfəkkür və sağlam düşünən fərdlərin olmaması, cəmiyyətin şaquli xətt üzrə inkişafı, şəxsiyyətin inkişafı üçün məhsuldar cəmiyyətin olmaması qədər ağlasığmazdır. Deməli, cəmiyyətin sağlamlığı onu təşkil edən müxtəlif fərdlərin müstəqilliyindən, eləcə də, onların sıx şəkildə siyasi əməkdaşlığından asılıdır. Çox dəqiq vurğulanıb ki, ümumilikdə Yunan-Avropa-Amerika mədəniyyəti, xüsusilə də, onun İtaliya İntibah dövrü zamanı çiçəklənməsi orta əsr Avropasının durğunluğuna son qoydu. Bu isə öz növbəsində fərdin azadlığı və qismən təcrid olunmasına əsaslanırdı.

İndi isə yaşadığımız dövrə nəzər salaq. Cəmiyyətimizdə vəziyyət necədir, fərdlərdə necə? Sivil ölkələrin vətəndaşları keçmiş dövrlərə nisbətən daha sıx məskunlaşıblar. Bugünkü Avropada yüz il öncəkinə nəzərən üç dəfə daha artıq insan yaşayır. Lakin dahi insanların sayı qeyri-mütənasib şəkildə azalıb. Yalnız bir neçə insan yaradıcılıq fəaliyyətlərinə görə cəmiyyətdə tanınır.

Dahi insanın yerini müəyyən dərəcədə təşkilatlar tutub, buna, xüsusən texnologiya sahəsində olduğu kimi elmdə də rast gəlinir. Dahilərin azlığı, xüsusilə incəsənət sahəsində müşahidə olunur. Musiqi və rəssamlıq demək olar ki, unudulub və tamaşaçı üçün artıq maraqsız olub. Siyasətdə liderlər çatışmazlığı var - onlarda müstəqillik ehtiyatları tükənib, hətta sadə vətəndaşlarda da ədalət hissi itib. Bir çox ölkədə müstəqillik əsasında qurulan demokratik parlamentlər axsadı, nəticədə diktaturalar yarandı, şəxsi ləyaqət hissi və insan haqlarına hörmət artıq əvvəlki kimi güclü olmadığından bununla razılaşırlar. Qəzetlər iki həftəyə kütləni qoyun sürüsü kimi elə coşdurmağı bacarır ki, maraqları olan bir neçə tərəflərin mənasız məqsədləri üçün hamı hərbi forma geyinib öldürməyə və ölməyə hazırdır. Görünür, bu gün sivil bəşəriyyətin özünə hörmət çatışmazlığının ən rüsvayedici simptomu-məcburi hərbi xidmətdir. Təəccüblü deyil ki, sivilizasiyanın dağılmasını təxmin edən peyğəmbərlərdə də çatışmazlıqlar yoxdur. Mən pessimistlərin sırasında deyiləm, şəxsən əminəm ki, yaxşı dövrlər də gələcək. İcazə verin bu əminliyimi əsaslandırım. Fikrimcə, tənəzzülün bugünkü simptomları sənayənin və avtomatlaşmanın inkişafı ilə izah olunur. Çünki, o, yaşamaq uğrunda mübarizəni fərdin azad inkişafı hesabına qəddarlaşdırıb. Lakin, avtomatlaşmanın inkişafı o deməkdir ki, insan cəmiyyətin tələbatlarını qarşılamaq üçün get-gedə az güc sərf edir. Hamının işlə təmin olunması üçün əməyin planlı şəkildə paylanmasına daha çox ehtiyac yaranır. Bu paylanma ayrı-ayrı insanların maddi vəziyyətinin yaxşılaşmasına gətirib çıxaracaq. Sabaha inamı, asudə vaxtı və gücü öz ixtiyarında olan insan onları sonrakı inkişafı üçün istifadə edə bilər. Beləliklə, sağlam cəmiyyət bərpa olunacaq, biz isə sivilizasiyanın sürətli inkişafı nəticəsində gələcəkdə tarixçilərin bugünkü cəmiyyətin xəstə simptomlarını,

gənc insanda uşaq xəstəliyinin simptomlarından fərqli olmadığına aid edəcəklərinə ümid edəcəyik.

1932-ci il

X. A. Lorensin* məzarındakı çıxışım

Mən, Akademik dünyanın xüsusilə Prussiya Elmlər Akademiyasının alman dilli nümayəndəsi, lakin, hər şeydən əvvəl, bir şagird və pərəstişkar kimi dövrümüzün ən böyük və nəcib insanının məzarı başındayam. Lorensin dahiliyi Klerk Maksvelldən** başlayaraq müasir fizika sahəsində əldə etdiyi nailiyyətlərdə bəşəriyyəti qiymətli metod və materiallarla təmin etmək idi. Onun həyatı sanki ən xırda incəliklərinə qədər düşünülmüş sənət əsəri idi. Xeyirxahlığı və səxavətliliyi, ədalət hissi, eyni zamanda, hadisələrə və insanlara qarşı intuisiya anlayışı Lorensi baş vurduğu hər sahədə fərqləndirirdi. Hamı sevinclə onun arxasınca gedirdi. Çünki, məqsədinin hökmranlıq etmək yox, sadəcə faydalı olmaq olduğunu bilirdilər. Onun işləri yaşayacaq və gələcək nəsilləri ilhamlandıraraq istiqamətləndirəcək.

1928-ci il

Beynəlxalq əməkdaşlıq sahəsində X.A.Lorensin xidmətləri

On doqquzuncu əsrdə baş verən elmi tədqiqatların hərtərəfli ixtisaslaşmasını nəzərə alaraq, hər hansı bir elm sahəsində müvəffəqiyyət əldə etmiş bir şəxsin həm

2.*Lorens, Hendrik Anton (1853-1928) – görkəmli holland fizik.
3**Maksvell Ceyms Klerk (1831-1879) – görkəmli ingilis fiziki və riyaziyyatçısı.

də beynəlxalq təşkilatlar və beynəlxalq siyasət sahəsində də cəmiyyətə faydalı xidmət göstərməyə nail olmasına nadir hallarda rast gəlinir. Bu cür fəaliyyət təkcə davamlı nailiyyətlərə əsaslanan güc, təfəkkür və şöhrətdən ibarət deyil, həm də dövrümüzdə az rast olunan milli mənaefedən azad olmağı və ümumi işə sədaqət tələb edir. Buna da bizim dövrümüzdə çox az təsadüf olunur. Bu keyfiyyətləri X. A. Lorens kimi özündə belə mükəmməl şəkildə birləşdirən başqa insana rast gəlməmişəm. Onun xarakterinin ən gözəl xüsusiyyəti növbəti xırdalıqlardan ibarətdir. Alimlər və mütəfəkkirlər arasında xüsusilə çox rast gəlinən müstəqil, güclü təbiətə malik insanlar başqalarının iradəsinə tabe olmağa və kiminsə rəhbərliyi altında işləməyə meyilli olmurlar. Lakin, Lorens sədr kürsüsünə əyləşən kimi məqsəd və düşüncə tərzlərinə görə bir araya gələn lakin öz aralarında anlaşa bilməyən insanların ətrafında xoş əməkdaşlıq mühiti yaratdı. Bu uğurun sirri yalnız Lorensin insanları yaxşı anlamasında, heyrətamiz nitqində deyildi. O, öz işinə səmimi qəlbdən bağlı idi və iş vaxtı beynində kənar fikirlərə yer ayırmırdı. Bu istənilən tərs adamı belə, razı salmağın ən doğru üsuludur! Müharibədən əvvəl Lorensin beynəlxalq münasibətlər sahəsində fəaliyyəti fizika üzrə keçirilən konfranslarda sədrliklə məhdudlaşırdı. Onların arasında 1909-cu və 1912-ci illərdə Brüsseldə keçirilmiş Solvey konqreslərini* xüsusilə vurğulamaq lazımdır. Daha sonra insanlar arası münasibətləri yaxşılaşdırmaq arzusunda olanlara güclü zərbə olan Birinci Dunya Müharibəsi başladı. Hələ müharibə dövründə və bitdikdən sonra da, Lorens özünü sülhməramlılığa həsr etmişdi. Onun əsas səyləri alimlər və elmi təşkilatlar arasında məhsuldar dostluq münasibətlərinin yaradılmasına istiqamətlənmişdi. Kənardan bu işin çətinliyi elə də görünmürdü. Lakin, müharibə dövründə qazanılmış qarşılıqlı incikliklər hələ də unudulmamış və bir çox nüfuzlu şəxs bu hadisələrin

təzyiqi altında inadla barışmaz mövqelərdə dayanmaqda davam edirdilər. Ona görə də Lorensin səyləri xeyrinə hazırlanmış dərmanları qəbul etməkdən imtina edən tərs xəstə ilə həkimin münasibətlərini xatırladırdı. Lakin əgər Lorens doğru yolu seçdiyinə əmin idisə, onu qorxutmaq mümkün deyildi. Müharibə bitən kimi o, bir sıra alim və elm adamlarının kənarlaşdırıldığı, qalib ölkələrin aparıcı istedadları tərəfindən təşkil olunmuş Mərkəzi Dövlətlər Cəmiyyətinin[5] şura heyətinə daxil oldu. Akademik dairələrdə narazılığa səbəb olan bu addımı Lorens bu təşkilata təsir edə bilmək, genişlədib beynəlxalq səviyyəyə qalxması üçün atmışdı. Uzunmüddətli səylərdən sonra Lorens və digər sülh tərəfdarları qalib gəlməyi və Şuranın nizamnaməsindən üzvlüyün məhdudlaşdırılması haqqında təhqiredici maddəni çıxarmağı bacardılar. Lakin, əsas məqsəd olan elmi cəmiyyətlər arasında məhsuldar əməkdaşlığa hələ də nail olunmamışdı. Belə ki, Mərkəzi Dövlətlərin Akademik dairələri on ildən çox zaman keçməsinə baxmaayraq, alimlərini heç bir beynəlxalq görüşlərə getməyə icazə vermirdi. İndi Lorensin səyləri nəticəsində vəziyyətin dəyişəcəyinə ümid var idi. Bundan əlavə, Lorens beynəlxalq mədəniyyətin digər sahəsində də işləməyə razılıq vermiş, təxminən beş il əvvəl Berqsonun[6] sədrliyi ilə yaranmış intellektual əməkdaşlıq üzrə Millətlər Liqasının beynəlxalq komitəsinə qatılmışdı. Son ildə Lorens həmin komitəyə başçılıq edirdi. Bu komitə Paris institutunun aktiv dəstəyi ilə mədəniyyətin ən

4 *Solvey konqresləri - fizika və kimyanın fundamental problemlərinin müzakirə olunduğu, Brüsseldə Solvey Beynəlxalq fizika və kimya universitetləri tərəfindən keçirilən beynəlxalq konqreslər silsiləsi.

5 *Mərkəzi Dövlətlər - Birinci Dünya müharibəsi döründa Almaniya İmperiyasının tərəfdarlarının hərbi-siyasi birliyi.

6 *Berqson, Anri (1859-1941)- dahi Fransız filosofu

müxtəlif sahələrində incəsənət və intellektual fəaliyyət arasında vasitəçi olmalı idi.
Beləliklə, burada da bu ağıllı, humanist və təvazökar insanın xeyirxah təsiri görünür. Onun "hökmranlıq yox, xidmək etmək" şüarı bizi haqq yoluna istiqamətləndirəcək. Qoy Lorensin nümunəsi bu prinsipin bərqərar olmasına səbəb olsun!

«Die Naturwissenschaften» (Təbiət elmləri) jurnalının redaktoru Arnold Berlinerin* 70 illik yubileyi şərəfinə

Fürsətdən istifadə edərək dostum Berlinerə və bu qəzetin oxucularına Berlineri və onun işlərini niyə yüksək qiymətləndirdiyimi demək istəyirəm. Bunu indi burada etməliyəm çünki, tərif söyləmək üçün başqa imkanım yoxdur. Uzunmüddətli obyektivlik vərdişi şəxsi hər şeyə tabu qoyub. Bu tabunun pozulması istisna hallarda, məsələn, indi mümkündür.
İndi isə azadlığa çıxmışkən obyektivliyə qayıdaq! Elmlə təsdiqlənmiş faktlar xeyli genişlənib, elmin bütün sahələrində nəzəri biliklər kifayət qədər dərindir. Lakin, insan ağlının dərketmə qabiliyyəti məhduddur və belə də qalmaqda davam edir. Belə çıxır ki, tədqiqatçının fəaliyyətinin istiqamətləndiyi insanın idrak sferası getdikcə məhdudlaşır. Belə ixtisaslaşma nəticəsində elmin ümumi vəziyyətini təxmini təsvir etmək mürəkkəbləşir və əsl tədqiqatçı ruhu zəifləyir, inkişafa uyğunlaşmaq çətinləşir. Vəziyyətin gedişatı Bibliyadakı Babil qülləsinin tarixini

7.*Berliner, Arnold (1862-1942) - «Təbiət elmləri» həftəlik jurnalının təsisçisi və redaktoru, alman fiziki. 1935-ci ildə redaktor vəzifəsindən istefaya göndərilir və konslagerə getmə ərəfəsində intihar edir.

xatırlatmağa başlayır. İstənilən ciddi elmi işçi təəssüf hissi ilə olsa da, başa düşür ki, onun bilik sahəsi ixtiyari və ya qeyri-ixtiyari olaraq məhdudlaşır. Bu isə tədqiqatçını geniş dünyagörüşündən məhrum edib mexaniki səviyyəyə düşməsinə gətirib çıxara bilər.

Bu və ya digər şəkildə hamımız zülmə məruz qalırıq və onunla mübarizə üçün heç bir səy göstərmirik. Lakin köməyimizə - ən azından alman dillilərin köməyinə Berliner çatdı. O, mövcud dövri nəşrlərin geniş oxucu kütləsini idarə etmək və ruhlandırmaq qabiliyyətinə malik olduğunu başa düşürdü; həm də anlayırdı ki, elmi işçiyə elmin son nailiyyətləri, problemləri, metod və nəticələri haqqında məlumat almaq, onları sərbəst şəkildə mühakimə etmək üçün birinci dərəcəli peşəkar bir jurnal lazımdır. Berliner öz nəşrinə ağır zəhmətli uzun illər sərf etmiş və hamımıza-elm qarşılığında heç bir minnətdarlığın kifayət etmədiyi töhfələr vermişdir. O, ən populyar elm adamları ilə əməkdaşlıq etməli və onları bütün düşüncələrini qeyri-mütəxəssis olan oxucular üçün olduqca anlaşılan formada çatdırmağa məcbur etməli idi. O, tez-tez məqsədinə çatmaq üçün necə mübarizə apardığını, yaşadığı çətinlikləri mənə danışırdı və bir dəfə zarafatla belə bir tapmaca nəql etdi: "Sual: Elmi-populyar məqalələrin müəllifi nə deməkdir? Cavab: "Mimoza ilə kirpinin qarışığıdır." (Mənim dəyərli Berlinerim, sirlərinizi paylaşdığım üçün inciməyin. Ciddi insanın hərdən belə ürəkdən gülməsi lazımdır). Berlinerdə elmin sahələrini belə geniş, aydın göstərmə istəyi olmasaydı, nailiyyətlərinə çata bilməzdi. Bu hiss onu neçə illik əməyinin bəhrəsi olan fizika dərsliyini yaratmağa sövq etdi. Ötən gün bir tibb tələbəsi dərslik haqqında mənə belə dedi: "Bu kitab olmasaydı, qısa bir zamanda müasir fizikanın prinsipləri haqqında belə aydın təsəvvür əldə edə bilməzdim".

Berlinerin hər şeyi aydın şəkildə çatdırmaq uğrunda mübarizəsi elmin problemləri, metodları və nəticə- larini oxucuya ötürməkdə böyük töhfələr vermişdir. Günümüzdə onun nəşrləri olmadan elm sahəsində baş verənlərdən baş açmaq qeyri-mümkündür. Elmi bilikləri yeniləmək və onları aktiv şəkildə istifadə etmək elmi məsələləri həll etmək qədər önəmlidir. Buna görə də, hamımız Arnold Berliner qarşısındakı borcumuzu anlamalıyıq.

1932-ci il

"Popper-Linkeus"

"Popper-Linkeus"* yalnız parlaq mühəndis və yazıçı deyildi. O, insanların vicdanını təcəssüm etdirən dahi şəxslərdən biri idi. O, hər bir insanın taleyi üçün cəmiyyətin məsuliyyət daşıdığını və cəmiyyətin müvafiq öhdəliklərini necə yerinə yetirəcəyini göstərmişdir. Nə cəmiyyət, nə də dövlət onun üçün bir kumir deyildi; o, hesab edirdi ki, onlar yalnız hər bir insanın fərdi inkişafı üçün imkan yaratdıqları təqdirdə fədakarlıq tələb edə bilərlər.

1921-ci il

Cərrah M. Kantsenşteynə nekroloq

Berlində yaşadığım on səkkiz il ərzində bir neçə yaxın dostum vardı və onlardan ən yaxını professor Kantsenşteyn idi. On ildən artıq müddət idi ki, yayda çox vaxt asudə vaxtlarımı onun möhtəşəm yaxtasında

8. *Popper-Linkeus, Yozef (1838-1921) - Avstriya yazıçısı, filosofu və ixtiraçısı

keçirirdim. Biz orada yaşadıqlarımızı, fikirlərimizi, hisslərimizi bölüşürdük. Hər ikimiz dostluğumuzun adi bir təsadüf olmadığını başa düşürdük, çünki, bir-birimizi anlayır və tamamlayırdıq. Bu isə bizə həm də xarici təlaşlardan azad olmağa və onlara obyektiv nəzər salmağa kömək edirdi. Mən hər hansı bir xüsusi vəzifəsi və məsuliyyəti olmayan azad insan idim. Dostum isə əksinə, anidən yaranan işlərdən və başqalarının həyatının təhlükədə olmağından həyəcan keçirirdi. Əgər səhər-bu isə demək olar ki, həmişə belə olardı, o, ağır əməliyyat həyata keçirib gəlirdisə, biz yaxtaya yola düşməzdən əvvəl mütləq telefonla zəng edərək narahat olduğu pasiyentinin vəziyyəti ilə maraqlanırdı. Mən ona həyatını həvalə edənlərin necə dərindən qayğısına qaldığının şahidi idim. Təəccüblü idi ki, bu öhdəliklərin yükü mənim dostumun qəlbinin qanadlarını qırma- mışdı-onun təxəyyülü, yumor hissi azalmamışdı. O, heç vaxt italyanların azadlıq dövrlərində "bestia seriosa" adlandırdıqları tipik, dürüst şimali alman ola bilmədi. O,gənc ikən Brandenburqun meşələri və göllərinin təravətləndirici gözəlliyinə qarşı çox həssas idi və gəmisini də ona tanış və sevdiyi mənzərələr arasına gətirdikdə qəlbinin xəzinələrini açaraq təcrü- bələrindən, elmi ideyalarından, düşüncələrindən bəhs edərdi. Onun bütün bunlar üçün necə vaxt və güc tapdığı hələ də mənə sirr olaraq qalır, lakin, insanın elmin incəliklərini öyrən-mək istəyi varsa, heç vaxt zaman darlığı ona mane ola bilməz. Bu istək sahibini də yaşadacaq.

Dostumun diqqətini iki fərqli məsələ cəlb edirdi. Birini o, tibbi təcrübə öhdəliyi zamanı həll edirdi. Buna görə də o, mütəmadi olaraq transplantasiya vasitəsi ilə itirilmiş əzələlərin yerinə sağlam əzələləri birləşdirməyin yollarını düşünürdü. Bu iş ona çox sadə görünürdü, belə ki, o, geniş məkan təxəyyülünə və inanılmaz dəqiq mexani-kiləşmiş hissə malik idi. İnsanın üz cizgilərini,

əllərini, ayaqlarını bərpa edib normal həyata qaytarmaq mümkün olduğu zaman o necə də sevinirdi! Eyni zamanda o, əməliyyatlardan qaçmağa çalışırdı, hətta başqa həkimlərin onun yanına mədə xorası olan pasiyentləri cərrahiyyə yolu ilə müalicəyə göndərdiyi zaman pepsinin fermentinin neytrallaşdırılması üsuluna üz tuturdu. Bundan əlavə, o, peritonitin müalicəsində özünün ixtira etdiyi antitoksik bağırsaq serumu ilə böyük uğurlar əldə etmişdi və bu uğurlarına çox sevinirdi. Bu haqda danışarkən həmkarlarının onun metodunu qəbul etmədiyinə təəssüflənirdi.

Digər məsələlərin kateqoriyasına müxtəlif növ toxumalar arasında antaqonizmlə bağlı təsəvvürlər aid idi. Dostum praktikada ən geniş şəkildə tətbiq ediləcək universal bioloji prinsipin açılışına doğru istiqa- mətləndiyini ehtimal edirdi. O, ümumi bir qanuna- uyğunluğu qeyd edərək başlamışdı və aşkar etmişdi ki, sümük vasitəsi ilə ayrılmayan sümük iliyi və sümük üstlüyü bir-birilərinin böyüməsinə mane olurlar. Beləliklə, dostum indiyə qədər izahsız qalan sağalmayan yaraların səbəbini izah edə bilmiş və müalicə vasitəsini tapmağı bacarmışdı.

Toxumaların, xüsusilə epitel və birləşdirici toxumanın antaqonizmi haqqında ümumi təsəvvürlər dostum üçün ömrünün son on ilində bütün elmi gücünü sərf etdiyi əsas predmetə çevrilmişdi. O, paralel olaraq heyvanlar üzərin- də də eksperimentlər və toxumaların qida məhlulunda böyüməsinin sistemli araşdırmalarını aparmışdı. Bununla bərabər, gündəlik işlərlə də məşğul idi və froylayn Knake qismində entuziazm dolu bir köməkçi tapdığı üçün çox xoşbəxt idi! Dostum birləşdirici toxuma sayəsində epitelin boyuməsinə şərait yaradan faktorlara dair inanılmaz nəticələr əldə edə bilib bu nəticələr xərçəng xəstəliyinin araşdırılmasında önəmli yer tutur. Bundan əlavə, o, oğlunu da ilhamlandırmış, onu istedadlı və müstəqil əməkdaş kimi yetişdirmişdi, həmçinin,

xəstəliyinin araşdırılmasında önəmli yer tutur. Bundan əlavə, o, oğlunu da ilhamlandırmış, onu istedadlı və müstəqil əməkdaş kimi yetişdirmişdi,həmçinin Zauerbruxda ,* maraq oyada bilmişdi. Ömrünün son illərində Zauerbruxun onu dəstəklənməsi-ölümündən sonra da, əməyinin məhv olmayacağı, başladığı işi başqalarının sevinclə davam etdirəcəyi fikri ona təsəlli verirdi.

1932-ci il

Sərvət haqqında

Tam olaraq əminəm ki, dünyanın var-dövləti ən humanist insanın əlinə keçsə belə, bəşəriyyəti tərəqqiyə aparmaz. Güclü xarakter və təmiz qəlb nümunələri, məhz bunlar parlaq ideyalar və xeyirxah işlər yaratmağa qadirdir. Pullar isə yalnız özünə təsəlli verməyə xidmət edir və həmişə sahiblərini pis niyyətlərə xərcləməyə təhrik edir. Karneginin pul kisələrini Musa və ya Qandinin əlində təsəvvür etmək olarmı?

9. *Zauerbrux, Ernst Ferdinand (1875-1951) - görkəmli alman həkimi, XX əsrin ən yaxşı cərrahlarından biri hesab olunur.İkinci dünya müharibəsi dövründə Üçüncü Reyxın baş hərbi cərrahı olub,lakin, sonradan nasizmdən ümidini kəsmişdir.

Pedaqogika və pedaqoqlar haqqına məktub

Hörmətli xanım!

Sizin əlyazmanızdan təxminən on altı səhifə oxudum və üzümdə təbəssüm yarandı. Siz ağıllı, müşahidəçi, səmimi, öz fikirlərini ciddi müdafiə edən birisiniz, lakin sizin qeyd etdikləriniz tipik qadın tərəfindən yazılmış bir əlyazmadır; burada asılılıq, hirs və küskünluk görürəm. Mən də özümə qarşı müəllimlərimdən belə münasibət görmüşəm onlar heç vaxt məni sevməyib, köməkçi lazım olduqda da seçimlərini mənim xeyrimə etməyiblər (etiraf edirəm ki, nümunəvi şagird olmamışam). Lakin vaxtımı məktəb həyatım haqqında memuar yazmağa sərf etməzdim, həmçinin onların oxunmasına və dərc olunmasına görə də məsuliyyət daşımaq istəməzdim. Bundan əlavə, sizin kimi mübariz birinin digər insanlardan şikayət etməsi yaxşı deyil. Təhsilin ən ağıllı tədris üsulu alınmadığı təqdirdə nədən çəkinmək lazım olduğunu nümunə göstərməkdir. Buna görə də, özünüzü cilovlayın, əlyazmalarınızı isə oğlanlarınıza və qızlarınıza saxlayın-qoy onlar oxuyaraq təsəlli tapsınlar və müəllimlərinin nə düşündüklərinə və dediklərinə əhəmiyyət verməsinlər.
Ən xoş arzularla.

Yapon məktəblilərinə müraciət

Mənim sizə, Yapon şagirdlərinə, müraciət etməyə tam haqqım var. Çünki, mən sizin gözəl ölkənizdə olmuşam, onun şəhərlərini və evlərini, dağlarını və meşələrini orada, bu dağların və meşələrin ətrafında yaşayan, öz ölkəsini sevən yapon oğlanlarını görmüşəm. Masamın

üstündə hər zaman yapon uşaqlarının rəngarəng rəsmlərindən ibarət qalın albom olur.
Əgər mənim salamlarım belə uzaq bir yerdən sizə gəlib çatacaqsa düşünün ki, bu müxtəlif ölkələrdə yaşayan insanlar arasında dostluq və qarşılıqlı anlaşmanın baş tutacağı bir ilk olacaq. Keçmiş dövrlərdə xalqlar bir-birindən xəbərsiz yaşayır, hətta bir-birlərindən qorxur və bir-birilərinə nifrət bəsləyirdilər. Qoy qarşılıqlı anlaşma hissi onları mümkün qədər çox birləşdirsin. Mən yaşlı insan, siz Yapon məktəblilərinə öz uzaq ölkəmdən salam göndərirəm və ümid edirəm ki, nə vaxtsa mənimlə eyni nəsildən olan insanlar sizin nəslin insanları qarşısında utanacaq.

1922-ci ildən sonra

Müəllimlər və şagirdlər. Uşaqlara müraciət

Əziz uşaqlar!

Çiçəklənən, günəşli ölkənin xoşbəxt gəncləri - sizi qarşımda görməyə şadam.
Unutmayın ki, məktəbdə öyrəndiyiniz möcüzələr bir neçə nəslin, dünyanın bütün ölkələrinin vətəndaşlarının sonsuz səyləri və zəhmətlərinin nəticəsidir. Bütün bunlar sizə əmanət olaraq verilir ki, onları qəbul edib, hörmətlə yanaşıb əlavələrinizi də edib nə vaxtsa öz övladlarınıza ötürəsiniz. Belə olduqda ölümə məhkum olmuş bizlər ölümsüzləşirik - birlikdə əbədi əsərlər ərsəyə gətirmiş oluruq.
Bunu yadda saxlasınız, həyatın və əməyin mənasının nədən ibarət olduğunu anlayacaqsınız, başqa xalqlara və onların tarixlərinə düzgün yanaşacaqsınız.

***

Müəllimin əsas məharəti - idrak və yaradıcılıq sevincini yaratmaqdır.

İtirilmiş cənnət

Yaxın keçmişdə, on yeddinci əsrdə bütün Avropanın dahi rəssamları və istedadları ümumi idealları olduğuna görə bir-biri ilə elə sıx bağlı idilər ki, siyasi hadisələr onların əməkdaşlığına demək olar ki, təsir etmirdi. Hamının latın dilindən istifadə etməsi nəticəsində bu birlik daha da güclənirdi. Bu gün belə bir şey bizə itirilmiş cənnət kimi görünür. Milliyətçilik ziyalılar cəmiyyətini məhv etdi, nə vaxtsa butun dünyanı birləşdirən latın dili isə öldü. Alimlər milli ənənələrin carçısına çevrilib və intellektual icmaya mənsub olma hisslərini itiriblər.
Biz bu gün maraqlı bir faktla qarşılaşmışıq - beynəlxalq əməkdaşlıq ideyasını əsasən siyasətçilər və sahibkarlar təbliğ edirlər. Millətlər Liqasını da məhz siyasətçilər yaradıblar.

Din və Elm

İnsanların indiyənəcən çalışıb yaratdıqları, düşünüb tapdıqları nə varsa, hamısı, onların öz ehtiyaclarını ödəməsi, ağrı-acılarını toxdatması ilə bağlı olaraq ortaya çıxmışdır. Dini axınların yaranması ilə inkişafını anlamaq istəyənlər də gərək bunu unutmasınlar. İnsanın umdularının, bacarıqlarının hansı yüksəkliklərə qalxmasından asılı olmayaraq, bunların hamısı onun duyğuları ilə istəklərindən qaynaqlanır.

Görəsən, hansı duyğular, hansı ehtiyaclar, insanı din ideyasına, sözün geniş anlamında desək, inanclara gətirib çıxarmışdır? Bu sorğumuzun üstündə azacıq düşünmək belə yetərlidir, dini ideyaların beşiyi başında, inanc sınamalarının kökündə, bir-birindən seçilib ayrılan çoxlu duyğuların dayandığını anlaya bilək. İbtidai insanların dini görüşləri, lap birinci, qorxudan irəli gəlib, yəni, aclıqdan, yırtıcı heyvanlardan, xəstəlikdən, ölümdən yaranan qorxulardan. Necə olsa da, insan öz varlığının bu dönəmində, yan-yörəsindəki olayların nədən baş verdiyini anlamaqdan ötəri olduqca cılız düşüncələrə qapılmışdır, ona görə də özü üçün qorxulu olan bütün hadisələrin yaranmasının hansısa, özünə oxşar bir varlığın işi olduğunu sanmış, bütün baş verənlərin onun istəminə bağlı olduğuna inanmışdır. Bundan sonra isə, ibtiadi insan öz düşüncəsində yaratdığı bu varlığın özüylə yaxşı davranması üçün, onun könlünü necə ələ ala bilmək yollarını axtarmışdır. Öz anladığına görə, bu varlığı yola gətirmək üçün, ona qurban verməli olduğunu düşünmüş, bax beləcə, qurban verməklə, bu varlığın könlünü alıb, onu özüylə yaxşı davranmağa yönəldə biləcəyinə güvənmiş, bütün bunlar isə sonradan, insanlar arasında bugündən gələcəyə keçən bir inanca çevrilərək, yayılmışdır. Mən qorxudan yaranan din deyəndə, bunları başa düşürəm. Bu sayağı ortaya çıxan dinin yarandığı çağda yox, onun oturuşmuş duruma keçdiyi dönəmdə, insanlar arasında ruhanilər kastası ortaya çıxmış, bu adamlar insanların qorxduğu o varlıq ilə onların arasında araçılıq eləməyi öz boyunlarına götürmüş, bununla da toplumda başqalarından üstün sayılan yerlərini tutmağa başlamışlar.

Bu çağlarda, özlərinin başqa bacarıqlarına arxalanıb topluğa-icmaya boyüklük eləyən başçılar, ola bilsin, elə icmanı yönətən hansısa bir üstünlüyü olan qruplar, gündəlik gördükləri başqa işləri, bu, ruhaniliklə bağlı işlərlə birləşdirmişlər, bir az sonralar isə, görünür, bu yönətimçi qrup ilə artıq topluqdan-icmadan seçilib ayrılmış ruhanilər kastası, öz aralarında işbirliyi üçün anlaşmışlar. Dini obrazların yaranmasının bir başqa qaynağı, ictimailik duyğusu olmuşdur. Bəlli olduğu kimi, ata, ana, insanların hansısa birliyinə başçılıq eləyən kimsələr, ölümlü, yanıla bilən varlıqlardır. İnsanın özünə, bu sayaq çatışmazlıqları olmayan, ən yaxşı başçı tapmaq istəyi, ondan özünə qarşı sevgi, qayğı umması, bax bütün bunlar tanrının ictimai, əxlaqi qavramlarını ortaya çıxarmışdır. İnsanın öz düşüncələrindən yaranan bu tanrı, insanı qorumalı, onu uğura aparacaq yolları açmalı, yaxşı işlərinə görə ona bəxşiş verməli, yaramazlıqlarından ötəri ona yazığı gəlməli idi. Bu adamların qavramına görə, tanrı - insanın yaşadığı topluğun da, bütün insanlığın da, eləcə də Yer üzərindəki yaşamın da qoruyucusu idi, insanın uğursuz, qara günlərində ona dayaq dururdu, bundan başqa, ölənlərin ruhunun qoruyucusu da o idi. Tanrının ictimai, əxlaqi konsepsiyası belə yaranmışdı. Bu gün, əlimizə gəlib çatan dini kitabları incələyərək, qorxudan törəyən dinin, necə əxlaqi dinə çevrildiyini izləmək də olar. Bu keçidin bir az da qabarıq örnəkləri isə, Yeni Andlaşmada (Əhdi-Cədiddə-İncildə) açıq-aydın görünməkdədir. Bütün mədəni xalqların, o sıradan Şərqdə yaşayan xalqların inancları da, elə əxlaqi dinlərdir.

Xalqların öz yaşamlarında "qorxu dinindən" "əxlaq dininə" keçmələri, insanlığın çox önəmli bir proqresindən soraq verir. Ancaq ilkin insanların dinini yalnız elə "qorxu dini", mədəni xalqların dinini isə qorxudan büsbütün arınmış "əxlaq dini" saymaq da düzgün deyil. Demək olar elə, bütün çağların dini qavramlarında özünü göstərən bu iki duyğu çaları, biri-birinə qatışaraq, bütün dinlərin içində birgə olmuşlar, ancaq insan toplumunun yetkinləşdiyi dönəmlərə uyğun dinlərdə, əxlaq çaları üstünlük qazanmışdır. Dinlərin demək olar hamısında, tanrı ideyasının insanlıq ülgüsünə (antropomorfizm) salınması vardır. Tanrını başqa sayaq qavramağı isə, yalnız tək-tük ortaya çıxan, çox görkəmli kimsələr bacarmışlar, özü də bu adamlar, çox yüksək yetkinlik dönəminə çatmış toplumlarda yetişmişlər. Bu isə elə o deməkdir, sadaladığımız bu iki, dinlə bağlı duyğulardan (qorxu ilə əxlaqdan) başqa, çox az üzləşilən üçüncü bir dini duyğu da vardır. Mən bunu, kosmik dini duyğu adlandırıram. Kimdəsə, haçansa, buna bənzər duyğu olmayıbsa, bunun nə demək olduğunu ona anlatmaq çox ağırdır, yəni, burada insanlığın öyrəşdiyi təki, tanrını insanlıq ülgülərinə uyğunlaşdırıb qavramaq kimi qolay yollar yöxdur. Kosmik dini duyğuya qapılan insan, bir yandan adamların gündəlik yaşamla bağlı istəklərinin, amaclarının dəyərsizliyini, önəmsizliyini duyur, başqa yandan isə təbiətdə üzə çıxan bitkin düzənləri, ideyalarda özünü göstərən əlçatmazlıqları qavrayaraq, dəyərləndirə bilir. Sanasan onu, Kosmosun sonsuzluğundan, bütövlüyündən, anlamlığından ayırıb, öz varlığında dustaq eləmişlər, belə bir anlamsız dustaq ömrü yaşamağa sürükləmişlər. Kosmik dini duyğuların toxumları, dinlərin gəlişmələrinin ilkin dönəmlərində də vardır, belə örnəklərlə biz Davudun "Zəburunda", Əski Andlaşmanın(Əhdi-Ətiqin) bir sıra kitablarında, təkəm-seyrək üzləşirik. Şopenhauerin çalışmalarından anlaşıl-dığına görə, kosmik dini duyğuların varlığı ən çox buddizmdə duyulmaqdadır. Demək olar elə, bütün

çağların dini uzaqgörənliyində, bu kosmik dini duyğular az-çox olmuşdur, ancaq dinlər bu duyğulara önəm verməyərək, özlərini ehkamlar çevrəsinə qapatmış, insanabənzər tanrılar yaratmağa uymuşlar. Ona görə də, öz öyrətmələri ilə kosmik dini duyğular aşılayan kilsələr ortaya çıxa bilməzdi. Buradan bir də o çıxır, elə bütün çağların tanrıtanımazlarının (yeretiklərin) az qala hamısı, bu kosmik dini duyğulara bağlı olan kimsələr olmuşdur, çağdaşları isə onların birilərini ateist, başqalarını tanrıqan(dindar) sanmışlar. Bu baxımdan, Demokrit, Assizli Frantsis, Spinoza təki böyük kimlikləri birləşdirən çoxlu ortaq dəyərlər də tapmaq olar. Elə isə tanrını qavraya bilməyin bəlli bir yolunu göstərməyən ilahiyyatçılıq araşdırmalarına arxalanmayan bu kosmin duyğular görəsən hansı yollarla insanlar arasında yayıla bilər ? Mənə elə gəlir, bu duyğuların oyadılması da onun, belə duyğularla yaşamağı bacaran insanlara aşılanması da, elmlə incəsənətin görməli olduğu ən önəmli işlərdəndir Beləliklə də biz indi, elm ilə din arasındakı münasibətə yanaşmada, bütünlüklə yeni olan baxışlara gəlib çıxırıq. Bu münasibətə tarix baxımından yanaşsaq, bəlli səbəblərə görə, elmlə dinin bir-biri ilə yola getmədiyini, barışmaz tərsliklərə qapıldığını görürük. Dünyadakı olayların baş vermə nədəninin universallığına bütünlüklə inanan (yəni elmi baxışlara arxalanan) kimsələr üçün, dünyada baş verən olayların gedişinə qarışaraq, onları idarə edə bilən hansısa varlığın olması yolverilməzdir Olayların başvermə səbəblərinin universallığı hipotezinə güvənən belə adamlar isə, lap azacıq da olsa belə, "qorxu dininə" gərək duymayacaqlar. Elə, ictimai, əxlaqi din də bunun kimi, onlara gərək olmayacaqdır. Onlar üçün, insanlara

yaxşı davranışlarına görə bəxşiş verən,günahlarına görə cəzalandıran tanrı da anlamsız görünəcəkdir, bu baxışlara arxalanan kimsələr üçün, insanların davranışları, yalnız, onların öz içində, bir də yaşadığı ortamda yaranan ehtiyaclardan asılıdır, bu adamların anlağına görə, cansız bir predmet onu yerindən tərpədən güclərin yaratdığı tərpənişlərinə görə tanrı qarşısında hansı günahı daşımalıdırsa, elə insan da, öz davranışlarına görə, tanrı qarşısında oracan günahkar sayıla bilər. Bütün bunlara görə isə, yanlış olaraq, elmi əxlaqı pozmaqda suçlayırlar. Ancaq özlüyündə, insanın etik davranışları, onun acıma duyğularına, oxuyub-öyrəndiyi biliklərinə, toplumdakı əlaqələrinə bağlı olmalıdır. İnsanlar bunun üçün, hansısa dini buyuruqlara ehtiyac duymamalıdır da. Doğrudan da, insanları yamanlıqdan çəkindirməyin yolu, onları qorxutmaqdan, yazıqlamaqdan, bir də ölümdən sonra alacaqları bəxşişlərdən keçərdisə, onda bu, insanlığın büsbütün yaramaz bir varlıq olmasından soraq vermiş olardı. Bütün bu deyilənlərdən sonra, kilsənin nəyə görə elmə qarşı savaş açdığını da, elmi baxışlara bağlı olan kimsələri nədən qaraladığını da, rahatlıqla anlamaq olar. Bundan başqa, bütün elmi araşdırmaların, elə bu kosmik dini duyğulardan qaynaqlandığını da, mən sizlərə inamlı şəkildə deyə bilərəm. Yalnız, çiynində ölçüyəgəlməz yüklər daşımağın, ömrünü büsbütün hansısa böyük işlərə bağlamağın, nə demək olduğunu anlayan kimsələr gerçək yaşamdan haracan desən uzaq olan anlayışların bugünümüzə gətirilməsi üçün, yəni elmi araşdırmalarla yeni yolların ortaya çıxması üçün, bu işi bacaran insanların hansı güclü duyğularla yaşadığını duyaraq, dəyərləndirə bilərlər. Dünyanın quruluşunun ağlabatan olmasına çox böyük inam bəsləmədən, bu ağlabatanlığın

üzə çıxan ən kiçik görüntülərini qavramaq yanğısı ilə yaşamadan, Kepler, Nyuton kimi azman kimsələr, göy üzünün mexanikasının dolaşıqlarını açmaq üçün, belə böyük əmələrə qatlaşa da bilməzdilər! Elmi araşdırmaları ancaq onların gəlib çıxdıqları nəticələrə görə dəyərləndirmək istəyənlər, bu araşdırmaları aparanların inanclarını yanlış dəyərləndirməkdən qaça bilmirlər, onların öz yan-yörəsindəki insanların baxışlarını danmaqla, necə yeni, düzgün bir yol tapdıqları da, bu yola inanacaq, bütün yer üzünə səpələnmiş insanları necə yetirdikləri də, belələrinin baxışlarından yayınır. Öz ömrünü bu sayaq işlərə qoyan kimsələr isə yaxşı bilir, saysız uğursuzluqlara baxmayaraq, yorulmaq bilmədən belə araşdırmalar aparan insanları hansı böyük duyğular, tutduqları yolda belə dönməz, yorulmaz eləyir. Bu sayaq adamlar isə belə böyük bir təpəri, ancaq kosmik dini duyğulardan alırlar. Bizim çağdaşlarımızdan birisi çox düzgün olaraq belə bir söz demişdi: dünyanın materializmə qapıldığı bu çağlarda, olduqca dərin dini duyğulara qapılmadan, gözə çarpacaq elmi uğurlar qazanmaq olmaz.

CİNCİVA
BOOKS

Elmin dini etiqadı

Ən dərin elmi düşüncələrə sahib insanlar arasında öz xüsusi dini hisslərindən məhrum şəxslərə çətin rast gəlməkolur .Lakin bu hiss dini küfr hissindən fərqlənir. Sonuncu üçün Allah - lütfünə güvəndiyi və cəzasından qorxduğu bir varlıqdır – bu varlığa güclü pərəstiş etsə belə, müəyyən dərəcədə onunla bağlı olan uşağın ataya olan məhəbbətinə bənzər bir sublimasiya hissi var.
Lakin alimdə kainatın səbəbiyyət hissi daha güclüdür. Onun üçün gələcək də keçmiş kimi ən xırda təfərrüatına qədər bəlli və qaçılmazdır. Əxlaqda ilahi bir şey yoxdur, bu yalnız insanın bir icadıdır. Alimin dini etiqadı təbiətdəki qanunların ahəngindən zövq almaqdadır: belə ki, onun arxasında istənilən insanın sistemli fərziyyə və fəaliyyətini kölgədə qoyan bir zəka dayanır. Bu prinsipi alim həm həyatında, həm də işində əsas tutur – onunla eqoist istəklərindən azad olmağa çalışır. Şübhəsiz, bu hissi bütün dövrün dini dahiləri yaşayıb.

1936-cı ildə Nyu-Yorkda altıncı sinifdə oxuyan bir qız Albert Eynşteynə məktub yazır

«Hörmətli Eynşteyn!

Məktəbdə dərsdə biz belə bir sual haqqında düşündük. Alimlər dua edirlərmi? Bu sualımızdan başqa bir sual da yarandı. Biz eyni vaxtda həm elmə, həm də dinə inana bilərikmi? Biz bu sual haqqında alimlərə və digər məşhur şəxslərə məktub yazırıq və onların məktubumuza cavab verəcəklərinə ümid bəsləyirik. Siz də bizim sualımıza cavab verəsiniz bu bizim üçün böyük bir şərəf olar.
Alimlər dua edirlərmi? Edirlərsə, nəyə edirlər? Hal-hazırda mən altıncı sinifdə, missis Ellisin sinifində oxuyuram.

Hörmətlə Fllllis».

«Hörmətli Fillis, Mən sənin sualına bacardığım qədər sadə şəkildə cavab verməyə çalışacam.

Alimlər bütünlüklə hər şeyin və hətta insanların fəaliyyətlərinin də təbiətin qanunları sayəsində baş verdiyini hesab edir. Buna görə alimlər hadisələrin gedişatına dualarin təsir etdiyini düşünmür. Buna baxmayaraq etiraf etməliyik ki, bizim fövqəltəbii güclər haqqında biliklərimiz çox azdır. Buna görə həyatımızın sonu və vahid ruh haqqında inaclarımız imana əsaslanır. Elmin müasir inkişafına baxmayaraq, bu inanclar bütün dünyada geniş yayılıb. Bundan başqa, elmin dərinliklərinə varan hər bir şəxs fövqəltəbii bir ruhun, insan ruhundan dəfələrlə güclü bir ruhun bəşəriyyətin qanunlarını idarə etdiyinə düşünür.
Beləliklə, elm ilə məşğul olmaq insanda digər sadəlövh dini hisslərdən fərqlənən xüsusi bir növ dini hissin yaranmasına gətirib çıxardır.

Hörmətlə, sizin A. Eynşteyn».

Elmin acınacaqlı vəziyyəti

Almandilli ölkələri təhlükə gözləyir və bu barədə xəbərdar olan hər kəs ən qısa zamanda buna diqqət yetirməlidir. Siyasi hadisələrə səbəb olan iqtisadi gərginlik hər kəsə müxtəlif cür təsir edir. Ən güclü zərbə maddi varlığı birbaşa hökumətdən asılı olan müəssisələrə və ayrı-ayrı şəxslərə dəydi. Bu kateqoriyaya əməyindən nəinki elmin vəziyyəti, eyni zamanda Avstriya və Almaniyanın dünya mədəniyyətindəki asılılığı elmi müəssisələr və işçilər də daxildir. Vəziyyətin nə dərəcədə ağır olduğunu dəyərləndirmək üçün aşağıdakı məsələləri nəzərə almaq lazımdır. Böhran illərində adətən, insanlar birbaşa ehtiyaclarına aid olmayan hər şeyə qarşı laqeyd olurlar. Əgər kimsə maddi məhsullar istehsal edirsə, cəmiyyət ona pul ödəyir. Lakin elmin çiçəklənməsini istəyiriksə, o, praktik məqsədlərə xidmət etməməlidir. Ümumilikdə elmin yaratdığı bilik və metodlar yalnız dolayı yolla, əksər hallarda isə - bir neçə nəsillərin dəyişməsindən sonra praktiki məqsədlərə xidmət edir. Elmə qarşı laqeydlik son nəticədə müstəqil qərar və fikirləri sayəsində sənayedə yeni yollar açа və ya yeni şərtlərə uyğunlaşa bilən intellektual işçilərin çatışmazlığına səbəb olur.

Elmi araşdırmaların olmadığı yerlərdə xalqın intellektual həyatı da aşağı səviyyəyə düşür, bu isə sonrakı inkişafın ləngiməsinə gətirib çıxarır. Bunun qarşısını almalıyıq. Hal-hazırda dövlət siyasətlə əlaqəli olmayan səbəblərdən zəifləyib. Cəmiyyətin iqtisadi cəhətdən güclü üzvləri bilavasitə elmin köməyinə gəlməli və elmi həyatın tənəzzülünə mane olmalıdırlar. Vəziyyəti yaxşı başa düşən uzaqgörən insanlar hər yolla Almaniya və Avstriyadakı elmi fəaliyyətin dayandırılmasının qarşısını alan təşkilat yaradıblar. Bu təşəbbüslərin uğurlarına yardımçı olun.

Mən pedaqoji işlər apararkən iqtisadi fəlakətlərin hələ də elmi tədqiqatlarda iradə və ruh yüksəkliyini tamamilə boğmadığını təəccüblə izləyirəm. Tam əksinə! Elə təəssurat yaranır ki, fəlakətlər yalnız qeyri-maddi məhsulların istehsalında sabitliyi daha da möhkəmləndirib. İnsanlar hər yerdən murəkkəb vəziyyətlərdə böyük həvəslə çalışırlar. Elə edin ki, müasir gəncliyin iradəsi və istedadı məhv olmasın və ümumilikdə cəmiyyətə ağır zərər yetirməsin.

Faşizm və elm

Romaya, dövlət naziri senyor Rokkoya məktub

Hörmətli, cənab nazir!

Mənə etik baxımdan çətinlikləri yaranan iki tanınmış və hörmətli italyan alim müraciət edib. Onlar, İtaliyada alimlərə qarşı qəddar təqiblərin dayandırılmasını xahiş edərək sizə yazmamı istəyiblər. Mən faşist sisteminə sadiq qalma andınızı nəzərdə tuturam. İtaliyalı ziyalıların bu cür təhqirdən azad olması üçün sizdən senyor Mussoliniyə məsləhət verməyinizi xahiş edirəm. Siyasi düşüncələrimizin fərqlənməsindən asılı olmayaraq, əminəm ki, bir fikirdə həmrəyik: Avropa təfəkküründün inkişafında əldə etdiyimiz nailiyyətlərdə öz zəhmətimizi görür və qiymətləndiririk. Deməli, həqiqət axtarmaq istəyi bütün digər istəklərdən daha üstündür. Yalnız bu prinsip sivilizasiyamızın Qədim Yunanıstanda zirvəyə çatmasına və İntibah dövründə İtaliyada dirçəlişinə imkan yaradıb. Bu böyük zəhmət təmiz ruhlu və dahi insanların əzablı qanı ilə ödənilib. Onların xatirəsinə görə

İtaliyanı bu gün də sevir və hörmət edirlər. Mən sizinlə dövlətçilik naminə insan azadlığına qarışmağın nə dərəcədə duzgün olduğu haqda mübahisə etməyəcəyəm. Ancaq gündəlik həyatın praktik maraqları ilə səsləşməyən elmi həqiqətlərə can atmaq, istənilən hakimiyyət üçün toxunulmaz bir sahə olaraq qalmalıdır- hamının və hər kəsin maraqları naminə, həqiqətə vicdanla xidmət edən şəxsləri rahat buraxmaq lazımdır. Bununla yanaşı heç şübhəsiz, bütün bunlar İtaliya dövlətinin maraqlarının və onun dünya ictimaiyyəti nəzərində qazandığı etibarının qorunması üçün də faydalıdır. Xahişimin nəzərə alınacağı ümidi ilə.

Albert Eynştey
16 noyabr 1931

Müsahibə haqqında

Hətta zarafat və ya ani qəzəb halında olmuş olsa belə, əgər insanı hər dediyinə görə ictimaiyyət qarşısında tənqid edərlərsə, bu, acı sonluqla nəticələnə bilər.
Halbuki, müəyyən mövqedən bu təcrübə təbiidir və məqbul hesab olunur. Lakin əgər insanı onun adından başqa insanın dediyi sözə görə ictimai məsuliyyətə cəlb edərək müdafiə olunmaq imkanından məhrum edirlərsə əlbəttə ki, bu xoşagəlməz haldır. "Bu cür dəhşətli hadisə kimin başına gəlib?" – deyə soruşacaqsınız. Cavab verirəm - geniş ictimaiyyətə həddindən artıq maraqlı olan və müsahibə almaq üçün daim izlənilən hər kəsin. Siz etimad etmədən gülümsəyirsiniz, lakin mənim artıq kifayət qədər təcrübəm var və onu sizinlə paylaşmaq istəyirəm. Aşağıdakı vəziyyəti təsəvvür edin. Gözəl səhərlərin birində sizin yanınıza bir jurnalist gəlir və tanışınız "N"

haqqında ona nə isə danışmağınızı xahiş edir. Belə bir istək ilkin olaraq şübhəsiz ki, sizdə aydın bir qəzəb yaradacaqdır, lakin sonra müsahibədən yayına bilməyəcəyinizi anlayacaqsınız. Əgər danışmaqdan imtina etsəniz, bu adam yazacaq: "Mən "N"-nin ən yaxşı dostlarının birindən onun haqqında danışmasını istədim, ancaq o, mənim suallarımdan mədəni şəkildə imtina etdi. Oxucuya sərbəst şəkildə buradan nəticə çıxarmağı təklif edirəm".

Gördüyünüz kimi, seçiminiz olmadığından jurnalistə növbəti məlumatları çatdırmalı olursunuz "Cənab "N" həyatsevər və səmimi insandır, bütün dostları onu çox sevir. O, istənilən həyati çətinlikdə belə müsbət nəsə tapmağı bacarır. Onun ixtiraçılıq qabiliyyəti, təşəbbüskarlığı sərhəd tanımır; o, bütün gücünü işinə sərf edir. O, ailəsinə çox sadiqdir və yoldaşını hər şeylə təmin edir".

İndi isə jurnalistin versiyası: "Cənab "N" heç bir şeyə ciddi yanaşmır,ünsiyyət zamanı yaltaqlıq etməklə etibar qazanmaq istedadına malikdir. O, öz rəhbərliyinin köləsidir və dar əhatəsindən kənarda ona şəxsən aid olmayan heç bir məsələ haqqında müzakirələr aparmağa və əqli fəaliyyətlə məşğul olmağa vaxtı yoxdur. Yoldaşını həddindən artıq ərköyünləşdirərək özünü arvaddan qorxan biri kimi tanıtmışdır". Jurnalist hər şeyi daha sərt şəkildə təqdim edəcəkdir. Lakin zənnimcə, bu həm siz, həm də dostunuz "N" üçün artıq kifayətdir. Dostunuz, ertəsi gün səhər bu hissəni qəzetdə oxuyacaq və səbəbsiz yerə sizə qəzəblənəcək. Ona edilən haqsızlıq sizə əziyyət verəcək hələ üstəlik həqiqətən də yaxşı münasibətiniz varsa.

Bəs siz necə davranardınız, dostum? Əgər bilirsinizsə, tezliklə məni də məlumatlandırın və mən sizin nümunənizə uyğun davranacağam.

10 avqust 1921

Amerikaya təşəkkür

Cənab mer, xanımlar və cənablar!

Bu gün təşkil olunmuş bu möhtəşəm ziyafət, şəxsən mənim şərəfimə təşkil olunduğuna görə məni utanmağa vadar edir. Lakin bir elm nümayəndəsi kimi mənim üçün təşkil olunduğundan çox məmnunam. Ona görə ki, bizim görüşümüz artıq dünyanın maddi hökmranlığı və zənginliyi hər şeydən üstün tutmağa meyilli olmadığına aydın bir işarədir. Nə yaxşı ki, kimsə rəsmi olaraq bunu elan etməyin lazım olduğunu hiss etdi.

Mənə bu xoşbəxt ölkədə, sizin aranızda iki gözəl ay keçirmək şərəfi qismət olub və gündəlik həyatın adi insanlarının alimləri necə qiymətləndirdiyini görmək üçün çoxlu fürsətlər yaranıb. Onlardan çoxu öz büdcələrinin əhəmiyyətli bir hissəsini elmi işlər üçün sərf edib, beləliklə də, ölkənin nüfuzu və çiçəklənməsinə öz töfhələrini veriblər.

Fürsətdən istifadə edib minnətdarlıqla qeyd etmək istəyirəm ki, Amerikanın elmə göstərdiyi himayədarlıq ancaq öz dövlət sərhədləri ilə məhdudlaşmır. Amerika qurumlarının və vətəndaşlarının könüllü dəstəyini dünyadakı bütün elmi qurumlar istifadə etməkdən xoşbəxtdir. Bu faktın sizin üçün həqiqətən qürur və məmnuniyyət mənbəyi olmasına şübhə etmirəm. Amerikanın beynəlxalq miqyasda düşünmək və hiss etmək qabiliyyətinin olduğunu təsdiqləyən bu kimi sübutlar, xüsusilə zəruridir, çünki, bugünkü dünyada irəlidə gedən xalqların və dahi xadimlərin qlobal düşünməyə və hiss etməyə ehtiyacı var. Əks halda layiqli gələcək üçün müsbət tərəfə doğru inkişafa nail ola bilməyəcəyik. Ümid edirəm ki, yüksək məsuliyyət hissi ilə şərtlənən Amerika xalqının beynəlmiləlçiliyi tezliklə siyasət sahə -

sində də müşahidə olunacaq. Həqiqətən, Birləşmiş Ştatların beynəlxalq əlaqələrin qurulmasında fəal əməkdaşlığı olmadan bu əhəmiyyətli hədəfə yönəlmiş bütün səylər nəticəsiz qalacaqdır. Səmimi qəlbdən bu möhtəşəm dəvət üçün hamınıza, xüsusən də mənə göstərdikləri qonaqpərvərliyə görə ölkənizin alimlərinə minnətdarlığımı çatdırıram. Hər zaman bu iki ayı məmnunluq və minnətdarlıqla xatırlayacam.

1921-ci il

Davosdakı universitet kursları

"Senatores boni viri, senatus autem bestia"*. Bir dəfə İsveçrəli professor dostum universitet rəhbərliyinə qəzəblənərək belə yazmışdı. Bizim dövrümüzdə vicdanlı və məsuliyyətli insanlar getdikcə daha az təşkilat rəhbərləri təyin olunurlar. Bu fakt bəşəriyyət üçün necə də səmərəli bir əzab mənbəyidir! Yer kürəsində yayılan əzab və əziyyətlərlə dolu olan müharibələr, təcavüzlər məhz buna görə baş verir.

Yenə də bir çox insanların fədakar əməkdaşlıqları olmasa, dəyərli bir şeyə nail olmaq olmaz. Deməli, sülh məramlı insan bir çox qurbanların hesabına yeganə məqsədi həyat və mədəniyyətin tərəqqisi olan ictimai təşəbbüsü yaradan və inkişaf etdirən zaman, xüsusilə xoşbəxt olur. Davosdakı universitet kursları haqqında eşidərkən belə sevinc hissini yaşamaq mənə də qismət oldu. Orada çox yaxşı düşünülmüş və şiddətli ehtiyacdan yaranmış

10 *Senatorlar yaxşı insanlardır, senat özü isə əclafdır.

müdrik rəhbərliyin nəzarəti ilə xilasetmə və bərpa işləri aparılır. Buna baxmayaraq, bu ehtiyac hər kəsə bəlli deyil. Buradakı günəşli dağların şəfaverici gücünə inanaraq bir çox gənclər bədən sağlamlığını bərpa etmək üçün bu vadiyə gəlir. Lakin onlar, uzun müddət iradəni tənzimləyən və möhkəmləndirən və öz fiziki vəziyyəti haqqında yanlış düşüncələrə asanlıqla qapılmağa səbəb olan normal işdən kənarda qalırlar. Nəticədə duyma və düşünmə həssaslığını itirir, mövcud olma mübarizəsində özlərini müdafiə edə bilmirlər. Belə insan istixana bitkisinə çevrilir və fiziki cəhətdən şəfa tapmasına baxmayaraq, onun normal həyata dönməsi çox vaxt çətin olur. Gənclik illərində onun bütün sonrakı həyatını müəyyən edən intellektual məşğələlərdəki fasilə elə bir boşluq yaradır ki, sonradan onu doldurmaq bəzən mümkün olmur. Ümumiyyətlə, hər bir halda qismən yüngül intellektual iş yüngül fiziki əmək kimi şəfa tapmağa mane olmur, əksinə, dolayı yolla olsa da, kömək edir. Universitet kursları məhz bunu nəzərə alaraq yaradılmışdır -məqsəd bu gəncləri təkcə peşə ilə təmin etməklə deyil, həm də, onları zehni fəaliyyətə cəlb etməkdir. Kurslar onları intellekt sahəsində işlə, məşğələlərlə və gigiyena ilə təmin edərək ümum avropa ruhunun inkişafı üçün ən əlverişli münasibətlər qurmaq məqsədi ilə - yaxşı duşünülüb. Yeni müəssisə bu istiqamətdə daha çox uğurlar qazanacaq, belə ki, onun yaranma şəraiti hər hansı bir siyasi məqsədi istisna edir. Beynəlmiləlçilik işinə həyat verən ən yaxşı xidmət hər hansı bir sahə ilə əməkdaşlıq quraraq mümkündür. Davosdakı universitet kurslarının qurucularının gücü və zəkası artıq əhəmiyyətli uğurlara gətirib çıxarıb və bu

müəssisə bir çox uşaq xəstəliklərinin şəfasını tapıb. Ona daim çiçəklənməyi, gözəl insanların daxili aləmlərini zənginləşdirməyi və xəstələri sanatoriya həyatındakı sıxıntılardan azad etməyi arzu edirik.

Tənqidçiyə təbrik

Ani dəbin təsiri altına düşmədən gözlərinlə görmək, hiss etmək və mühakimə yürütmək, gördüyün və duyduğun hər şeyi bir müdrik kəlmə ilə ifadə edə bilmək şərəfli deyilmi? Həqiqətənmi buna görə təbrik etmək lazım deyil?

C.B.Şounu salamlama

Dünyada müstəqil olmasına baxmayaraq, müasirlərinin zəif cəhətlərini və əsassız hərəkətlərini görərək, özünü ondan yayındıra bilən çox az insan var. Bu bir neçə insan inadkarlarla üzləşdikdə artıq qısa zaman ərzində hər şeyi nizama salmağa tələsmirlər. Yalnız çox az sayda insanlar xüsusi, incə yumor hissi ilə mülayim formada sanki güzgü tutaraq incəsənət vasitəsi ilə müasirlərinin naqisliklərini əks etdirə bilirlər. Bu gün bu metodun hamımızı sevindirən və təlimatlandıran ustadını səmimi qəlbdən salamlayıram.

Amerika təəssüratları haqqında qeydlər

Mən vədimi yerinə yetirməli və bu ölkə haqqında təəssüratlarımı paylaşmalıyam. Bu mənim üçün heç də asan məsələ deyil. Çünki Amerikada məni elə xoş və layiq olmadığım hörmətlə qarşılamışdılar ki, indi mənə

qərəzsiz müşahidəçi mövqeyini qəbul etmək çətindir. İlk növbədə icazə verin sizə elə bu haqda danışım.

Əgər bir insana hədsiz dərəcədə hörmətlə yanaşırlarsa, zənnimcə, bu heç vaxt özü nü doğrultmur. Əlbəttə ki, təbiət hərəyə bir cü r vergi bəxş edir. Lakin şükür Tanrıya dü nyada istedadlı insanlar çoxdur və mən tam əminəm ki, onların əksəriyyəti mükafat almadan, təvazökar yaşayırlar. Bir neçə seçilmiş insanla fəxr etmək, onlara yüksək insani əqli keyfiyyətlər və xarakter aid etmək mənə ədalətsizlik və hətta zövqsüzlük kimi görünür. Mənim taleyim də belə idi. Geniş ictimaiyyətin mənim nailiyyətlərimi və bacarıqlarımı qiymətləndirməsi, bəzən məsələlərin real vəziyyəti ilə ziddiyyət təşkil edirdi. Bu cür situasiyada olduğumu dərk etmək dözülməz olardı əgər belə bir təsəlli olmasaydı: beləki hamı tərəfindən maddi dövr kimi qəbul olunan bir dövr, qəhrəmanlarını yalnız intellektual və əxlaqi təbəqəyə aid insanlardan yaradırsa, bu sevindirici haldır. Bu insan nəslinin bir qövmünün hələ də bilik və ədaləti hakimiyyət və var-dövlətdən üstün tutduğunu sübut edir. Təcrübəm mənə bu cür idealist mövqelərin materialist hesab edilən Amerikada daha çox yayıldığını göstərir. Bu çıxışımdan sonra mənim kiçik qeydlərimə layiq olduğundan artıq dəyər verilməməsi ümidi ilə mövzumuza qayıdaq. Hər şeydən əvvəl bu ölkədə qonaqları texniki tərəqqi və təşkilatlanma valeh edir. Gündəlik məişət əşyaları Avropadakına nisbətən daha keyfiyyətlidir, evlər isə olduqca rahatdır. Hər şey insan əməyinə qənaət etmək üçün düşünülüb. Əmək çox bahalıdır, çünki, ölkənin əhalisi təbii ehtiyatlarla müqayisədə çox deyil. İşçi qüvvəsinin yüksək qiymətləndirilməsi əmək texnikası və metodlarının inanılmaz inkişafı üçün stimul olub. Əks nümunəni əhalisinin sayı çox olduğu üçün ucuz işçi qüvvəsi ilə avtomatlaşmanın qarşısını alan Çin və Hindistanda müşahidə etmək olar. Avropada isə orta

mövqedədir. Əgər maşın yaxşı hazırlanıbsa, son nəticədə o, ən ucuz işçi qüvvəsindən belə ucuz başa gəlir. Qoy bu haqda dar çərçivəli siyasi maraqlarından ötrü öz dövlətlərinin vətəndaşlarının sayının kəskin artmasını istəyən Avropa faşistləri düşünsünlər. ABŞ xarici malların ölkəyə idxalına ciddi nəzarət edir və bunun üçün yüksək rüsumlar təyin edir. Bu isə Avropanın iqtisadi siyasəti ilə ziddiyyət təşkil edir. Lakin heç bir günahı olmayan qonağı çox düşünmək məcburiyyətində qoymayacaqlar və ümumiyyətlə, hər nə desəniz, istənilən sualın rasional cavabı olduğuna əmin ola bilməzsiniz.

Həmçinin qonaqları onların həyata sevincli, nikbin münasibəti heyrətləndirir. Şəkillərdəki təbəssüm – sıravi Amerikalının ən gözəl xüsusiyyətlərindən birinin simvoludur. O, hamıya dost münasibəti bəsləyir, özündən əmindir, nikbindir və heç kimə həsəd aparmır. Avropalılar üçün amerikalılarla ünsiyyət asan və sakitdir. Amerikalılarla müqayisədə avropalılar daha tənqidçi və utancaq, nisbətən az xeyirxah və ehtiyatlı, çox qapalı, oxu və əyləncələrdə daha seçicidirlər və ümumilikdə bədbindirlər. Burada maddi rahatlığa çox ciddi yanaşırlar - ondan ötrü öz istirahətlərini, qayğısızlıqlarını və təhlükəsizliklərini belə qurban verirlər. Amerikalı avropalıya nəzərən daha çox öz iddialarına, gələcəyə görə yaşayır. Onun üçün yaşamaq – var olmaq deyil, inkişaf deməkdir. Bu mənada o, ruslardan və asiyalılardan avropalıya nisbətən geridə qalır. Lakin bəzi hallarda o, asiyalını avropalıdan çox xatırladır. Amerikalıya fərdiyyətçilik iqtisadi mənada deyil, psixoloji mənada xasdır.

Onlarda vurğu əsasən "mən" deyil, "biz" anlayışına edilir. Bu isə ictimai adət-ənənələrin və razılaşmanın təbii nəticəsidir, ona görə də, amerikalılar dünyagörüşü, əxlaqi dəyərləri və estetik zövqlərinə görə Avropalılardan daha çox bir-birilərinə bənzəyirlər. Amerikanın iqtisadi

baxımdan Avropadan üstünlüyü bununla izah olunur. Burada Avropaya nəzərən kooperasiya və əmək bölgüsü istər zavodlarda, istər universitetlərdə, istərsə də kiçik müəssisələrdə daha asan yolla baş verir. Bu sosial struktur qismən ingilis ənənələrindən qaynaqlanır. Dövlətin fəaliyyətinin Avropa ilə müqayisədə nisbətən məhdudlaşdırılması faktı bununla açıq-aydın ziddiyyət təşkil edir. Teleqrafın, telefonun, dəmir yollarının və məktəblərin əksər hissəsinin özəl sahəyə ötürülməsi avropalıda təəccüb doğurur. Bu isə qeyd etdiyim kimi hər bir şəxsin sosial məsuliyyətinin olması sayəsində mümkün olub. Bu mövqenin başqa bir nəticəsi - əmlak bərabərsizliyinin aşılmaz çətinliklərə gətirib çıxarmamasıdır. Zəngin insanın sosial məsuliyyəti Avropadakına nəzərən daha çox inkişaf edib. O, özünü borclu hiss edir - bu onun üçün mütləq haldır -var-dövlətinin bir hissəsini, bəzən isə gücünü cəmiyyətin ehtiyaclarının ödənilməsi üçün ayırır və həqiqətən qüdrətli qüvvə - ictimaiyyət də bunu ondan tələb edir. Ona görə də mühüm mədəni funksiyaları fərdi sahibkarlara da həvalə etmək olar, dövlətin səlahiyyətləri isə bu ölkədə Avropaya nisbətən çox məhdudlaşdırılıb. "Quru qanuna" görə hökumətin nüfuzu şübhəsiz ki, böyük zərər gördü, çünki, hökumət və qanunvericilik üçün icra edilə bilməyən qanunların qəbul edilməsindən ağır bir şey yoxdur. Birləşmiş Ştatlarda cinayət hadisələrinin yüksək artımının məhz bununla bağlı olması heç kəs üçün sirr deyil. Mənə elə gəlir ki, "quru qanun" digər tərəfdən də dövləti sarsıtdı. İaşə obyektləri insanların siyasi məsələlərlə bağlı fikir mübadiləsi aparmaq üçün bir yerdir. Mühakimə etdiyim dərəcədə, yerli sakinlərə də bunu etməyə imkan vermirlər, müəyyən maraqlı qüvvələrin nəzarəti və təzyiqi altında isə mətbuat ictimaiyyətə çox böyük təsir göstərir. Bu ölkədə pula Avropada olduğundan daha çox dəyər verilir, lakin

fikrimcə, bu tendensiya getdikcə zəifləyir. Ən azından hər kəs xoşbəxt və dolğun həyat yaşamaq üçün xüsusi var-dövlət lazım olmadığını başa düşməyə başlayıb. İncəsənətə gəlincə, müasir binaların necə zövqlə inşa edildiyini və ümumi istifadə üçün nəzərdə tutulmuş ərazilərin necə təchiz olunduğunu gördükdə həqiqətən heyrətə gəldim. Digər tərəfdən təsviri incəsənət və musiqi Avropa ilə müqayisədə ümumi-ictimai həyatda daha az yer tutur. Mən Amerika elmi-tədqiqat institutlarının nailiyyətləri üçün sevinir və qürur duyuram. Hamımız səhvən Amerikada elmi fəaliyyətin uğurlarının səbəbini yalnız maddi rifahla əlaqələndirməyə çalışırıq; onun uğurlarının əsas səbəbi isə səy göstərməsi, səbrli olması, yoldaşlıq ruhu və əməkdaşlıq qabiliyyətidir. Son olaraq daha bir müşahidəmi diqqətinizə çatdırıram. Birləşmiş Ştatlar - müasir dövrdə ən qüdrətli və texniki cəhətdən inkişaf etmiş bir dövlətdir. Lakin Amerika - böyük ölkədir və hələ ki, onun xalqı günümüzdə ən öndə duran tərk-silah problemi kimi ciddi beynəlxalq problemlərin həllinə maraq göstərməyib. Amerikalıların elə öz maraqlarına görə bu vəziyyəti dəyişmək lazımdır. Son müharibə artıq qitələr arasında maneələrin olmadığını və bütün ölkələrin taleyinin bir-birinə sıx bağlı olduğunu göstərdi. Bu ölkənin xalqı beynəlxalq siyasət sahəsində üzərinə böyük məsuliyyətin düşdüyünü anlamalıdır. Passiv müşahidəçi rolu bu ölkəyə yaraşmır və son nəticədə dəhşətli bir fəlakətə səbəb olacaq.

1921-ci il

Amerikalı qadınlara cavab

"Amerikalı qadınlar İttifaqı" Eynşteynin Amerikaya səfərinə etiraz edirdilər və nəticədə belə bir cavab aldılar.

Mən, hələ heç vaxt zərif cinsin eyni zamanda bu qədər nümayəndələrindən sərt müqavimət görməmişdim. Amma bu həssas vətənpərvər qadınlar deyəsən, haqlıdırlar. Məgər kritli Minotavrın iştah və ləzzətlə yunan qardaşlarını parçalayan kimi müflis olmuş kapitalistləri parçalayan - həm də, öz həyat yoldaşı ilə qaçılmaz münaqişələr istisna olmaqla, hər cür müharibəyə qarşı çıxan alçaq insanı ölkəyə buraxmaq olarmı? Elə isə məsuliyyətli vətəndaş mövqeyində olan ağıllı qadınlarınızı dinləyin və unutmayın ki, bir zamanlar Romada olan "Kapitoliyanı" sadiq qazlar xilas edib..

1921-ci il

I Fəsil
II Hissə
Siyasət və pasifizm

Sülh

Keçmiş nəsillərin həqiqi dahi insanları xalqlar arasında sülhə nail olmağın nə qədər əhəmiyyətli olduğunu başa düşürdülər. Lakin, dövrümüzün texniki nailiyyətləri bu etik postulatı bütün sivil bəşəriyyət üçün həyat və ölüm məsələsinə çevirib, dünyada sülh probleminin həll edilməsində aktiv iştirak hər bir dürüst insanın yayınmamalı olduğu əxlaqi borcudur.

Başa düşmək lazımdır ki, bütün ölkələrdə silah istehsalında maraqlı olan güclü sənaye qrupları beynəlxalq mübahisələrin sülh yolu ilə həllinin qarşısını almaq üçün böyük səy göstərir. Hakimiyyətdə olanlar bu

nəcib məqsədə yalnız xalqın dəstəyinə arxalanaraq nail ola biləcəklər. Bu gün, demokratik hakimiyyətin hökm sürdü, ölkənin taleyi onun öz əlindədir və heç bir vətəndaş bunu unutmamalıdır.

Pasifizm problemi

Xanımlar və cənablar!

Pasifizm problemi haqqında bir neçə kəlmə söyləmək imkanım olduğu üçün çox şadam. Hökumətə müharibə ruhuna və silah istehsalına qarşı mübarizə imkanı vermək səhv bir addımdır. Son bir neçə ildə baş verən hadisələrin gedişatı da bunu göstərdi. Digər tərəfdən, çox sayda üzvü olan böyük təşkilatların yaradılması da bizi hədəfə yaxınlaşdırmayacaq. Fikrimcə, bu halda ən yaxşı üsul - hər bir ölkənin cəsur və vicdanlı vətəndaşlarına mənəvi və maddi yardım göstərəcək təşkilatların dəstəyi ilə dürüst etirazlar keçirməkdir. Yalnız o zaman biz müvəffəqiyyət qazana, pasifizm probleminin necə ciddi olduğunu göstərə və möhkəm iradəli insanları əsl mübarizəyə cəlb edə bilərik. Bu mübarizə vətandaşlarından qanunsuz hərəkətlər tələb etdiyindən qeyri-qanunidi, lakin hökumətə qarşı həqiqi insan hüquqları uğrunda mübarizədir.

Özünü yaxşı pasifist hesab edənlərin çoxu üçün bu cür qəti pasifizm – vətənpərvərlik adı altında nifrət oyadır. Dünya müharibəsi əsaslı şəkildə göstərib ki, bu insanlara ehtiyac duyulduğu anda arxalanmaq olmaz Düşüncələrimi şəxsən ifadə etmək imkanı yaratdığınız üçün sizə çox minnətdaram.

3 mart 1931-ci il

Tələbə mitinqində tərk-silaha dair müraciət

Keçmiş nəsillər bizə elm və texnikanın inkişafından əlavə, həyatımızı azad və gözəl edən, bizdən öncə heç bir nəslə qismət olmayan çox qiymətli bir hədiyyə bəxş ediblər. Lakin, bu hədiyyə mövcudluğumuz üçün təhlükədir, biz heç vaxt belə təhlükəyə məruz qalmamışıq. Sivil bəşəriyyətin taleyi indi, heç vaxt olmadığı qədər yarada biləcəyi mənəvi qüvvələrdən asılıdır. Deməli, dövrümüzün qarşısında duran məsələ sələflərimizin müvəffəqiyyətlə həll etdiyi məsələlərdən asan deyil. İndi dünyamız üçün lazım olan ərzaq məhsulları və digər əmtəələrin yaradılması üçün daha az iş saatı sərf olunur. Lakin bu, iş yerlərinin və istehsal olunan malların bölüşdürülməsi problemini çox şiddətləndirdi. Hər birimiz hiss edirik ki, iqtisadi qüvvələrin sərbəstliyi, hər bir insanın hakimiyyətə və var-dövlətə tənzimlənməyən istəyi daha bu problemlərin həllinə avtomatik yol açmır. Qiymətli, məhsuldar enerjini boş yerə sərf etməmək, ayrı-ayrı qrupları yoxsulluq və aclıqdan xilas etmək üçün istehsal, əmək və bölgünü müəyyən plana uyğun şəkildə təşkil etmək lazımdır. "Sacro egoism"-nun* iqtisadi həyatda fəlakətli nəticələrə gətirib çıxarmasına baxmayaraq, beynəlxalq əlaqələr üçün daha dağıdıcı təsirə malikdir. Silahlanmanın texniki inkişafı elə bir həddə çatıb ki, əgər yaxın zamanda müharibənin qarşısını almaq üçün bir yol olmasa, insan həyatı dözülməz hala gələcək. Bu məqsədin əhəmiyyəti keçmişdə ona nail olmaq uğrunda edilən uğursuz cəhdlərə bərabər tutula bilər. Təhlükəni azaltmaq üçün silah sayını məhdudlaşdırmağa və müharibənin aparılmasını tənzimləyən qaydalar tətbiq etməyə çalışırlar.

*müqəddəs eqoizm (italyanca)

Lakin, müharibə - hamının itaətkarlıqla qaydalara riayət etdiyi bir salon oyunu deyil. Həyat və ölüm mövzu-mövzusunda qaydalar və öhdəliklər heç kimi maraqlandırmır. Yalnız müharibədən tamamilə imtina etmək əhəmiyyətli ola bilər. Bunun üçün beynəlxalq arbitraj məhkəməsi yaratmaq kifayət deyil. Bütün ölkələrin bu məhkəmənin qərarlarını birgə həyata keçirməsini təmin edəcək sülh müqavilələri bağlaması lazımdır. Belə zəmanət olmadan ölkələr ciddi şəkildə silahsızlanmağa cəsarət edə bilməyəcəklər. Məsələn, təsəvvür edin ki, Amerika, İngiltərə, Almaniya və Fransa hökumətləri Yaponiyanı iqtisadi boykot təhdidi altında Çində keçirdiyi hərbi əməliyyatları dərhal dayandırmasını tələb edirlər.

Sizcə Yaponiya hökuməti - necə olmasından asılı olmayaraq - bu məsuliyyəti öz üzərinə götürüb ölkəsini təhlükəyə atarmı? Bəs onda nə üçün belə etmirlər? Niyə hər bir insan, hər bir ölkə öz həyatı üçün qorxmalıdır? Çünki, hər kəs yalnız ani mənfəətini axtarır və istəklərini cəmiyyətin rifahı və firavanlığına tabe etməkdən imtina edir. Məhz buna görə də, mən, bu gün bəşəriyyətin taleyinin heç vaxt olmadığı qədər mənəvi qüvvələrdən asılı yaranmış müdrik rəhbərliyin nəzarəti olmasından başladım. Sevinc və xoşbəxtliyə gedən yol könüllü məhrumiyyət və hər şeydə özünə məhdudiyyət qoymaqdan keçir. Belə bir proses üçün hardan güc almaq olar? Yalnız gənc yaşlarından təhsil yoluilə zəkasını möhkəmləndirmək və dünyagörüşünü genişləndirmək imkanı olan insanlardan. Buna görə də, biz, yaşlı nəsil, bizim əldə edə bilmədiklərimizə sizin bütün gücünüzü toplayaraq nail olacağınıza ümid bəsləyirik.

27 fevral 1932-ci

1931-ci ildə Millətlər Liqasının Beynəlxalq İntellektual əməkdaşlıq institutu dahi fizik Albert Eynşteynə, öz seçimi üzrə, ümumdünya səviyyəsində sülhə necə nail olmaq mövzusunda istənilən adlı-sanlı müasir mütəfəkkirlərdən biri ilə fikir mübadiləsi aparmağı təklif etmişdi. Əqidəli pasifist və bütün varlığı ilə müharibələrə qarşı olan Albert Eynşteyn, müharibələrin birdəfəlik qarşısının alınması sualına cavab axtarmaq məqsədi ilə, insan təbiəti üzrə başlıca eksper saydığı Ziqmund Freydə müraciət etdi.

Ziqmund Freydə məktub

İnsanlığın müharibə təhlükəsindən qaça bilməsi üçün hansısa bir yol varmı?

Əziz professor Freyd!

Millətlər Liqası və onun Parisdə yerləşən Beynəlxalq İntellek tualəməkdaşlıq institutu mənə belə bir təklif göndərmişdir: özüm seçdiyim istənilən insanı, məni maraqlandıran hansısa mövzu üzrə səmimi fikir mübadiləsi aparmaq üçün dəvət eləyə bilərəm; bu isə mənim düşüncəmə görə, sivilizasiyanın yanın qarşısında dayanan ən təxirəsalınmaz bir problemi sizinlə müzakirə eləyə bilməyim üçün çox gözəl bir imkan yaradır. Bu problemi belə ifadə eləmək olar: insanlığın bilməsi üçün hansısa bir yol varmı? Çağdaş elmin inkişafı nəticəsində genişlənən biliyimiz,bu sualda siviliziasiyanın ölüm, yoxsa qalım probleminin ortaya qoyulduğunu bizə yetərincə anlatmaqdadır; bütün bunlara baxmayaraq, bu problemin həlli ilə bağlı çalışmaların hamısı kədərli bir uğursuzluqla sona çatmışdır. Ona görə də, mənim düşüncəmə görə, bu problemi həll etməyə borclu olan peşəkarlar da, getdikcə daha çox, problemin dərinliklərində ilişib qalırlar, elə bunun üçün də, onların özü də bu problemlə bağlı olaraq, - dünya miqyaslı problemləri anlamaqda və onların perspektivlərini dəyərləndirməkdə

üstün dünyagörüşləri olan – elm adamlarının nə düşündüklərini və problemdən çıxış yollarını nədə gördüklərini öyrənməkdə maraqlıdırlar. Özümə gəlincə, araşdırmağa və qavramağa alışdığım obyektlər büsbütün ayrı bir yöndə olduğu üçün, düşüncələrim insan iradəsi və duyğularının mənim üçün qaranlıq olan fəzasına nüfuz eyməyə imkan vermir. Buna görə də, ortaya qoyulan bu sualı araşdırmaqda mənim görə biləcəyim iş, yalnız Sizin, insanın yanlış instinktləri və bu problemlə mübarizə yolları ilə bağlı çox geniş biliklərinizi tətbiq etməklə, baxılan məsələnin necə qoyulmalı olduğu barədə düşüncə lərinizi öyrənməkdən ibarət ola bilər. Elə psixoloji maneələr vardır ki, düşüncə prosesi ilə bağlı olan elmlərlə məşgül olmayan insanların onlar barədə yalnız dumanlı təsəvvürləri olur. İntellektual incəliklərin qarşılıqlı və mürəkkəb xarakteri bu adamların belə məsələlərdə özlərinin bacarıqsız olduqlarını bütün dərinliyi ilə anlaya bilməsinə mane olur; ancaq mən, Sizin, – az, ya çox dərəcədə siyasi sferaya aid olmayan bu, tərbiyə və təhsil oblastların da – belə maneələri aradan qaldıra biləcək metodları oratəya qoya bilmək bacarığınızın olduğuna inanıram. Özümə gəlincə, bu problemə milli suverenlik aspektinin xarici faktordan (administrativ-inzibati) asılılığı kimi, sadə bir mülahizə ilə yanaşıram: mənim düşüncəmə görə, burada, millətlər arasında yaranan istənilən konfilikti yoluna qoya bilmək səlahiyyəti olan, beynəlxalq konsensusa (fikir birliyinə) əsaslanan qanunverici və hüquqi bir orqana əsaslanmaq olardı. Millətlərin hamısı bu orqanın qərarlarını yerinə yetirmək öhdəliyi götürərdilər, bütün mübahisələri həll etmək üçün onun toplantılarını çağırardılar və bu tribunalın qərarlarının yerinə yetirilməsini zəruri eləyən ölçülər götürərdilər. Ancaq mən elə buradaca da, manea ilə üzləşməli oluram; tribunal insanların qurduğu bir müəsissədir və onun əlində olan hakimiyyət, çıxardığı qərarların icrasını yerinə yetirmək üçün nə qədər yetərli olacaqsa, o bu qərar-

aktdır və onunla hesablaşmamaq hüquqi olmayan vasitələrlə təzların icrası üçün bir o qədər hüquqi olmayan vasi tələrlə təzyiq göstərmək üsullu mümkün deyildir: qanun ilə güc qaçılmaz olaraq, əl-ələ tutub yeriyirlər və hüquqi hökmün ədalətli mühakimə idealına (buna ictimai tələb də demək olardı) nə qədər yaxınlaşa bilməsi, cəmiyyətin, hüquqi idealın qərarlaşa bilməsi üçün öz gücündən nə dərəcədə effektiv istifadə edə bilməsindən asılı olur. Çağdaş günümüzdə biz, 'millətlər üzərində yüksələn və sözsüz yerinə yetirilən qərarlar verib onların icrasını təmin etməyə mütləq səlahiyyəti olan təşkilatların formalaşmasından hələ çox uzaqdayıq. Beləliklə də mən bütün bu deyilənlərə əsaslanıb özümün birinci aksiomumu səsləndirirəm: beynəlxalq təhlükəsizliyə gedən yol, qeyd-şərtsiz olaraq istənilən millətin hüquqlarının əksildilməsinə gətirib çıxaracaqdır və bununla da, bu millətlərin azad fəaliyyəti və suverenliyi məhdudlaşdırılacaqdır, çünki, müzakirə elədiyimiz anlamda təhlükəsizliyə gətirib çıxarmağı bacaran başqa heç bir yol yoxdur. Ötən onilliklərdə, bu oblastda nəticə əldə eləmək üçün olan bütün cəhdlərin sarsıdıcı uğursuzluqlarla qurtarması, burada bütün səyləri puça çıxaran güclü psixoloji faktorların rol oynadığına şübhə yeri qoymur. Onları axtarıb tapmaq üçün uzağa getməyə gərək yoxdur. İstənilən millətin iqtidara can atan hakim siniflərinin, öz dövlətlərinin suverenliyinin istənilən şəkildə məhdudlaşdırılmasına düşməncəsinə yanaşması, xarakterik bir cəhət kimi, bütün aydınlığı ilə göz önündədir. Siyasət ticarətin və ya sahibkarlığın maraqları ilə bəslənir. Mən burada, müharibəyə öz maraqlarının təmin olunması və şəxsi hakimiy-yətlərinin möhkəmlənməsi vasitəsi kimi baxan, cəmiyyətin və əxlaqın bütün çəkindirici tələblərinisaya salmayan, bütünlüklə bəlli olan azsaylı şəxslər qrupunu nəzərdə tuturam. Bu açıq-aydın bəlli olan faktı təsdiq eləmək – faktiki vəziyyəti dəyərləndirmək üçün sadəcə birinci addımdır. İstər-istəməz belə bir çətin sual yaranır: bu

azsaylı adamlar yığını cəmiyyətdəki çoxluğu necə öz iradəsinə tabe eləyə bilir və bu çoxuğu öz şəxsi ambisiyaları naminə müharibələrdə olum-itimlə və əzablarla üzləşməyə sürükləyə bilir? (Mən burada "çoxluq" deyəndə, istənilən rütbədən olan döyüşçüləri də bu sırada görürəm, onlar müharibəni özlərinə peşə seçirlər və öz millətlərinin yüksək maraqlarına qulluq elədiklərinə inanırlar, habelə, "ən yaxşı müdafiənin hücum olduğunu" düşünürlər. Adətən bu suala belə cavab verirlər: bunun səbəbi bu azlığın indilikdə hakim sinif olmasında və mətbuatın, məktəblərin, çox hallarda isə kilsənin də onun əlinin altında olmasıdır. Məhz elə bu da, həmən azlığın kütlənin emosiyalarını formalaşdırmasına və yönəltməsinə, beləliklə də, onu öz iradəsini yerinə yetirməyin alətinə çevirməsinə imkan verir.Ancaq bu cavab da, problemin həll edilməsi üçün yol göstərə bilmir. Ondan yeni bir sual yaranır: nə üçün insan onu öz şəxsi həyatını qurban verməyədək gətirib çıxaran belə bir vəhşi coşqunluğa qapılmasına aparan çağırışlara uyur? Burada yalnız bir cavab ola bilər: ona görə ki, nifrət və dağıdıcılıq yanğısı insanın öz daxilindədir. Dinc vaxtlarda bu istəklər gizli formalarda mövcud olur və ancaq fövqəladə vəziyyətlərdə üzə çıxırlar. Göründüyü kimi, onları bu istəklərini yerindən oynatmaq və bunu kütləvi psixoz səviyyəsinə çatdırmaq olduqca asan bir iş olur. Görünür, baxılan faktorlar kompleksinin gizli mahiyyəti məhz bununla bağlıdır və bu tapmacanın cavabını yalnız insan instiktləri oblastı üzrə ekspert olan bir insan tapa bilər. Beləliklə də, biz sonuncu suala gəlib çıxdıq. İnsan soyunun intellektual təkamülünə elə bir şəkildə nəzarət eləmək mümkündürmü ki, onu amansızlıq və dağıdıcılıq psixozuna qapılmaması üçün, dayanıqlı və dözümlü eləmək olsun? Burada mən yalnız savadsız adlanan kütləni nəzərdə tutmuram. Təcrübələrin göstərdiyi kimi, intellektual adamlar adlanan təbəqə, belə məhvedici kollektiv aşılanmanın təsirinə uğramağa daha çox meyilli olur, belə ki, intellektual adamlar həyatın "qaba" gerçəklikləri ilə birbaşa təmasda olmurlar, onunla yalnız təxəyüllərinin gücü ilə, bir də, mətbu-

atdan oxuduqları süni formalara görə tanış olurlar. Təcrübələrin göstərdiyi kimi, intellektual adamlar adlanan təbəqə, belə məhvedici kollektiv aşılanmanın təsirinə uğramağa daha çox meyilli olur, belə ki, intellektual adamlar həyatın "qaba" gerçəklikləri ilə bir-başa təmasda olmurlar, onunla yalnız təxəyüllərinin gücü ilə, hir də. mətbuatdan oxuduqları süni formalara görə tanış olurlar.

Almaniya və Fransa

Fransa və Almaniyanın qarşılıqlı etibar və əməkdaşlığı yalnız Fransanın hərbi müdaxilələrdən təhlükəsizliyini təmin etmək tələbi yerinə yetirilərsə mümkün olacaq. Lakin əgər Fransa öz tələblərini rəsmiləşdirsəydi, Almaniya şübhəsiz ki, bu addımı xoş qarşılamayacaqdı. Buna baxmayaraq təxminən, belə bir prosedurları həyata keçirmək mümkündür. Qoy Almaniya hökuməti könüllü surətdə fransızlara Millətlər Liqasına birgə müraciət etmək təklifi etsin, bütün üzv ölklər isə aşağıdakı öhdəlikləri yerinə yetirsinlər:

1) Bütün qərarlar üçün beynəlxalq arbitraj məhkəməsinə müraciət etsinlər.

2) Sülhü pozan və ya beynəlxalq qərarları icra etməkdən imtina edən istənilən dövlətə qarşı Millətlər Liqasının digər üzvləri iqtisadi və hərbi qüvvələrini birləşdirsinlər.

Arbitraj məhkəməsi

Qısa müddət ərzində sistemli şəkildə tərk-silah. Bu, yalnız hər biri olkə üçün təhlükəsizlik zəmanətləri ilə birlikdə hökumətdən asılı olmayaraq, daimi fəaliyyət göstərən arbitraj məhkəməsi əsasında mümkündür. Bütün ölkələrin vəzifəsi - arbitraj məhkəməsinin qərarlarını sadəcə qəbul etmək deyil, həm də onlara riayət etməkdir. Avropa ilə Afrika, Amerika və Asiya üçün ayrı arbitraj məhkəmələri (Avstraliya bunlardan birinə əlavə olunmalıdır). Bu üç regiondan birində həll oluna bilinməyən məsələlər üçün birləşmiş arbitraj məhkəməsi.

Ok. 1920-ci il

Beynəlxalq elmi təcrübə

Müharibə dövründə Akademiyanın iclaslarının birində— millətçi və siyasi fəallar arasında münasibətlərin son həddə çatdığı zaman Emil Fişer yazırdı: "Bu mənasızdır, cənablar: elm beynəlxalq iş olub və elə qalmaqda da davam edir". Həqiqətən böyük alimlər həmişə bunu

anlayıb və hiss ediblər, hərçənd, siyasi toqquşmalar dövründə onlar daha kiçik həmkarlarından ayrı qalırlar. Müharibə zamanı bir çox sıravi seçicilər öz müqəddəs qardaşlıqlarını satıblar. Akademiyaların beynəlxalq cəmiyyəti dağılmışdır. Konfransa müxtəlif tərəflərdə savaşmış ölkələrdən olan həmkarlar buraxılmırdılar, bu hala indi də rast gəlmək mümkündür. Siyasi iddialar tam ciddi qavranıldığından fikrin obyektiv obrazının zəfər çalmasına mane olurlar. Onlarsız biz heç vaxt öz ali məqsədlərimizə nail ola bilmərik.

Bizi bugün günün emosional stresslərdən müdafiə edən, ayıq düşünən insanlar bu zərərin qarşısını almaq üçün nə edə bilərlər? Zehni fəaliyyətlə məşğul olan işçilərin əksəriyyəti hələ də qarışıqlıq içindədirlər. Ona görə də indiki zamanda həqiqi beynəlxalq, iri miqyaslı konqreslər keçirmək çətin ki, mümkün olsun. Beynəlxalq elmi icmaların bərpası üçün psixoloji maneələr elə bir təhlükədir ki, fikirvə hisslərinin genişliyi ilə fərqlən ənazlıq tərəfindən aradan qaldırıla bilməz. Amma bu azlıq bütün dünyada öz həmfikirləri ilə sıx əlaqə saxlayıb, öz beynəlxaq mövqeyində qəti olarsa, beynəlxalq elmi icmaların bərpası kimi böyük işdə iştirka edə bilər.

Böyük bir müvəffəqiyyət əldə etmək üçün gözləmək lazım olacaq, amma şübhəsiz, bu baş verəcək. Fürsətdən istifadə edib qeyd etmək istəyirəm ki, bu çətin illər ərzində iş yoldaşlarımızın çoxu, xüsusən də ingilislər intellektual əməkdaşlığın qorunub saxlanılması üçün can atıblar.

Hər bir ayrı şəxsin öz düzgün mövqeyi həmişə rəsmi açıqlamalardan daha etibarlıdır. Sağlam düşüncəli insanlar bunu xatırlamalı və qəzəblənib yanlış yolla addımlamamalıdırlar: "Senatores boni viri, senatus autem bestia"*

*Senatorlar yaxşı insanlardır, senat –özü isə əclafdır (lat).

Bəli, ümumilikdə beynəlxalq elmi təşkilatın inkişafına ümid edirəm və buna əminəm. Bu duyğular idrak və həmkarların sağlam düşüncəsi ilə yanaşı, eyni zamanda iqtisadi inkişafın qarşısıalınmaz təzyiqinə əsaslanır. Belə ki, bu əsasən alimlərin fəaliyyətindən, həmçinin səhmdarlardan asılı olduğundan məhz onlar öz iradələrinə zidd olsa belə, beynəlxalq təşkilat yaratmağa kömək edəcəklər.

1922-ci il

İntellektual əməkdaşlıq İnstitutu

Bu il ərzində aparıcı Avropa siyasətçiləri ilk dəfə aksiomdan məntiqi nəticə çıxardılar. Belə ki, planetimizin bizə məxsus hissəsi yalnız ənənəvi siyasi qüvvələr arasında mübarizənin bitəcəyi təqdirdə çiçəklənməyə başlayacaq. Bu ali məqsədə yalnız razılaşmaların köməyi ilə nail olmaq mümkün deyil, ilk növbədə bunun üçün ictimai rəy hazırlamaq lazımdır.

Biz, tədricən kütlələrdə indikindən fərqli olan, dövlətin sərhədlərini aşan həmrəylik hissini oyatmalıyıq. Ona görə də Millətlər Liqası intellektual əməkdaşlığın beynəlxalq komitəsini yaradıb (Commission de cooperation intellectuelle). Komitə tamamilə beynəlxalq və siyasi təsirlərdən azad olmalıdır və onun vəzifəsi müharibə nəticəsində təcrid olunmuş bütün ölkələrin ziyalıları arasında yenidən əlaqə yartmaqdır. Bu çətin məsələdir. Qəbul etmək lazımdır ki, yaxından tanış olduğum ölkələrdə həm incəsənət adamları, həm də alimlər sahibkarlardan daha çox millətçi duyğuların təsiri altındadırlar. Bu günə qədər komitə ildə iki dəfə görüş təşkil edib. Onun müddəalarının həyata keçirilməsini təmin etmək üçün Fransa hökuməti bizim açdığımız

daimi İntellektual Əməkdaşlıq İnstitutunu yaratmaq və maliyyələşdirmək qərarına gəldi. Bu, fransa xalqı tərəfindən çox səxavətli addımdır və buna görə hamımız minnətdar olmalıyıq.

Xoşumuza gələnləri tərifləmək və sevinmək, xoşumuza gəlməyən və təəssüf hissi doğuran şeylər haqqında isə susmaq asandır. Lakin dürüstlük və səmimiyyət olmadan bizim işimiz irəli getməyəcək, ona görə də utanmadan tərifə həm də tənqid əlavə edəcəyəm.

Hər gün komitəmizin qarşısında duran əsas maneənin - onun siyasi tərəfsizliyində əmin olmamasını müşahidə etməyimdir. Bu güvəni möhkəmləndirmək üçün hər şeyi etmək və zərər verə biləcək hər şeyin qarşısını almaq lazımdır.

Buna görə də, Fransa hökuməti Komitənin Parisdə daimi fəaliyyət göstərən orqanını qurub və ictimai vəsait hesabına maliyyələşdirəndə direktoru fransız təyin edir. Bu hər hansı bir xarici müşahidəçiyə Komitədə fransız təsirinin dominant olması şübhəsini yarada bilər. Bu təəssürat Komitənin sədrinin indiyə kimi fransız olması faktı ilə təsdiqlənir. Hər ikisinin sevilən və hörmət göstərilən, qüsursuz nüfuza sahib olmalarına baxmayaraq, bu təəssürat qorunub saxlanılır.

Dixi et salvavi animam meant* İnanıram ki, yeni İnstitut Komitə ilə sıx əməkdaşlıq edərək ümumi məqsədlərə nail olmaqda uğur əldə edəcək və bütün dünyada zehni fəaliyyətlə məşğul olan işçilər tərəfindən tanınacaq və hörmət qazanacaqdır.

1926-cı il

*Dedim - və ürəyimi boşaltdım (lat)

Vida

Millətlər Liqasının alman katibinə məktub

Hörmətli cənab Dyufur-Ferons!

Sizin xoşməramlı məktubunuza cavab yazmamaq mümkün deyil, əks halda sizdə mənim mövqeyim haqqında yanlış təəssürat yarana bilər. Bundan sonra Cenevrəyə getməmək qərarım əsaslandırılıb.Təəssüf ki, təcrübə Komitənin bütünlüklə beynəlxalq əlaqələri inkişaf etdirməkdə irəliləyiş əldə etmək üçün çox israrlı olmadığını göstərdi. Düşünürəm ki, o daha çox
"ut aliquid fieri videatur"* prinsipini həyata keçirir. Zənnimcə, bu münasibətinə görə Komitə ümumilikdə Liqadan daha pisdir. Komitədən ayrılmaqda israrlıyam çünki bütün enerjimi dövlətdən daha üstün olan, beynəlxalq arbitraj və tənzimləmə təşkilatının qurulmasına yönəltmək istəyirəm və bu məqsəd ürəyimcədir. Komitənin səyi nəticəsində bütün ölkələrdə mədəni azlıqlar sıxışdırılır – belə ki, hər bir ölkədə bu ölkənin ziyalıları və komitə arasında yeganə ünsiyyət kanalı
olacaq Milli Komitə yaratmaq təklif edilir. Beləliklə, komitə mədəni zorakılıqla mübarizədə milli azlıqlara mənəvi dəstək vermək üçün öz funksiyasını qəsdən ləngidir.
Bundan əlavə, Komitənin müxtəlif ölkələrdə təhsil sahəsində şovinist və militarist tendensiyalara qarşı mübarizə məsələlərinə münasibəti çox soyuq idi. Komitənin bu mühüm məsələdə ciddi bir addım atacağına heç bir ümid yoxdur. Komitə heç vaxt özlərini tamamilə

*Nəsə edirlər kimi görunsün (lat).

beynəlxalq qaydada və militarizmə qarşı mübarizəyə həsr etmiş fərdlər və birliklərə mənəvi dəstək verməyə müvəffəq olmadı. Komitəyə dəfələrlə onun dəstəklədiyi tendensiyalara zidd mövqe tutan yeni üzvlər təyin olundu, komitə isə heç vaxt buna qarşı müqavimət göstərmədi.
Daha bir arqumentlə sizi narahat etməyəcəyəm, çünki bu bir neçə ifadədə niyə belə qərar qəbul etdiyimi yaxşı başa düşəcəksiniz. Mənim niyyətim ittiham etmək deyil, sadəcə mövqeyimi izah etmək istəyirəm. Əgər mənim hər hansı bir ümid yerim olsaydı, tamamilə fərqli davranardım, buna şübhə etməyin.

1923-cü il

Tərk-silah məsələsinə dair

Tərk-silah konfransında çıxış

Tərk-silah planının uğuruna ən böyük maneə insanların bütövlükdə bu vəzifənin əsas çətinlikləri ilə tanış olmamağıdır. Məqsədlərin çoxu ardıcıl addımlarla əldə edilir - məsələn, mütləq monarxiyanın demokratiyaya dəyişdirilməsi. Lakin bu vəziyyətdə bizim mərhələli şəkildə edə bilməyəcəyimiz bir hədəfimiz var.
Müharibə olma ehtimalı davam edərsə, ölkələr öz hərbi təlimlərinin ideal olmasını təmin etmək üçün əllərindən gələni edəcəklər. Yalnız onda onlar sonrakı müharibədən qalib çıxa bilərlər. Bununla yanaşı, gənclərin təhsilində hərbi ənənələrdən, milliyyətçilik ruhunun şöhrətləndirilməsi ilə birləşdirilmiş milli düşüncə tərzinin

formalaşdırılmasından yayınmaq mümkün olmayacaq. Çünki, bu ruhu vətəndaşlarda hərbi məqsədlər üçün tələb olunan hallara hazırlamaq lazımdır. Silahlanmaq - səsinizi və gücünüzü sülhə deyil, müharibəyə yönəltmək anlamına gəlir. Buna görə də heç kim hərbi gücdən addım-addım imtina etməyəcək ya tamamilə tərk-silah olmaq və ya ümumiyyətlə silahlanmaq lazım deyil.

Ölkələrin həyatında bu qədər böyük dəyişiklik çox ciddi mənəvi çətinliklər nəzərdə tutur - bu köklü bir ənənədən şüurlu şəkildə ayrılmaqdır. Münaqişə vəziyyətində ölkəsinin taleyinin tamamilə beynəlxalq arbitraj məhkəməsinin qərarından asılı olmasını təmin etməyə və müvafiq müqavilə bağlamağa hazır olmayan şəxslər, əslində, müharibədən qaçmaq istəmir. Ya hər şey, ya da heç nə. Dünyadakı sülhü təmin etmək üçün öncəki cəhdlər uğurlu olmayıb, belə ki, onlar qeyri-adekvat kompromislər tələb edirdilər.

Tərk-silah və təhlükəsizlik yanaşı aparılmalıdır. Təhlükəsizliyin yeganə təminatı beynəlxalq qurumların qərarlarını həyata keçirməkdir. Beləliklə, biz yolayrıcında dayanmışıq. Sülh yolu tapa bilmək və ya sivilizasiyaya layiq olmayan kobud bir qüvvəyə qoşulmağımız özümüzdən asılıdır. Bir tərəfdən bizi fərdlərin azadlığı və cəmiyyətin təhlükəsizliyi cəlb edir, digər tərəfdən isə köləlik və sivilizasiyanın məhv edilməsi ilə hədələyirlər. Biz layiq olduğumuzu əldə edəcəyik.

1932-ci il

II FƏSİL
I Hissə

***

Siyasi əqidəyə dair qeydlərdən başlayımmı?

Vəziyyət təxminən belədir. Dövlət dövlət üçün deyil, insan üçündür. Bu mənada elm dövlətə bənzəyir. Bütün bunlar - insanın şəxsiyyətinə böyük dəyər verən insanlar üçün müraciətə çevrilən qədim sözlərdir. Onları təkrarlamayacağam lakin, xüsusən təşkilatlanma və mexanikləşmə dövründə onları unutmağa daha çox meyilliyik. Mənə elə gəlir ki, dövlətin ən mühüm vəzifəsi insanı qorumaq və ona bütün yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək imkanı verməkdir.

Buradan belə qənaətə gəlmək olar ki, dövlət bizim qulluğumuzda olmalıdır, biz onun qulları olmalı deyilik. Hökumət bizə güc tətbiq edərək hərbi xidmətə getmək məcburiyyəti qoyduqda bu şərti pozur. Bu bizim qul əməyimizin nəticəsində digər ölkələrin vətəndaşlarının öldürülməsi və ya azad inkişafına mane yaradılması ilə nəticələndiyinə görə xüsusilə doğrudur.Biz dövlətə yalnız ayrı-ayrı fərdlərin azad inkişafına kömək edən fədakarlıqlar etməliyik. Bu hər bir Amerika vətəndaşı üçün aydın məsələdir - ancaq Avropalı üçün deyil. Nəticə olaraq müharibə ilə mübarizəyə amerikalıların daha çox dəstək verəcəyini gözləmək olar.

İndi isə tərk-silaha dair konfrans haqqında. Ona necə münasibət bəsləməliyik, gözyaşları ilə, qəhqəhə ilə, ümidlə? Şiddət dolu, vicdansız və əsəbi insanlarla dolu bir şəhər düşünün. Belə bir şəhərdə daimi yaşamaq təhlükəsi sağlam inkişaf üçün ciddi bir maneə olacaqdır. Şəhər başçısı bu dəhşətli vəziyyətin düzəldilməsini istəyir, akin onun bütün məsləhətçiləri və digər şəhər əhalisi

kəmərlərinin arxasında xəncər saxlamaq hüququnun davam etməsini istəyirlər. Uzun illər hazırlıqdan sonra şəhər başçısı razılığa gəlməyə qərar verir və hər bir vətəndaşın gəzdirə biləcəyi xəncərin uzunluğu və itiliyinin məhdudlaşdırılması məsələsini qaldırır. Hiyləgər şəhər əhalisi bıçaqlanmanı qadağan edən qanunu qəbul etmədikləri üçün məhkəmə və polislərin təqibinə məruz qalmırlar, buna görə də, hər şey, əlbəttə ki, əvvəlki kimi davam edir. Xəncərin icazə verilən uzunluğunun və itiliyinin müəyyən olunması ancaq zəifləri edam etmə və bağışlama hüququnun olduğu ən güclülərə kömək edəcəkdir.

Hamınız bu pritçanın mənasını anlayırsınız. Bəli, bizdə də Millətlər Liqası və arbitraj məhkəməsi var. Lakin, liqa görüş zalından başqa bir şey deyil, məhkəmənin isə qərarlarını tətbiq etmək üçün vasitələri yoxdur. Müharibə olarsa, bu təşkilatlar heç bir ölkənin təhlükəsizliyini təmin etməyəcəklər. Bunu nəzərə alsanız, təhlükəsizlik zəmanəti olmadan tərk-silahdan imtina edən fransızların mövqeyini belə kəskin şəkildə tənqid etməyəcəksiniz. Biz razılığa gələ və hər bir ayrı dövlətin müstəqilliyini məhdudlaşdıra bilməsək, arbitraj məhkəməsinin qərarlarına gizli və ya aşkar şəkildə etiraz edən istənilən ölkəyə qarşı gücümüzü birləşdirməliyik. Məsuliyyəti öz boynumuza götürməsək, dünyəvi anarxiya və terror vəziyyətindən çıxa bilməyəcəyik. Heç bir cəhd ölkənin müstəqilliyini hərbi müdaxilədən qorumağa imkan verməyəcəkdir. Görəsən, doğrudanmı faciələr lazımdır ki, ölkələr qəbul olunmuş beynəlxalq məhkəmənin hər bir qərarını icra etmək məsuliyyətinə əməl etməsinlər? Hələki hadisələrin gedişatı yaxın gələcəkdə vəziyyətin yaxşılaşacağına ümid etməyə imkan vermir. Lakin sivilizasiyanın və ədalətin qayğısına qalan hər kəs var gücü ilə soydaşlarını ölkədə bu cür öhdəlikləri

yerinə yetirmək üçün təşviq etməyə borculdur.
Belə təsəvvürlərə qarşı əsaslandırmadan da ehtimal etmək olar ki, onlar maşınların əhəmiyyətini yüksək qiymətləndirirlər və psixoloji - daha doğrusu mənəvi amilləri nəzərə almırlar.
Bir çoxları maddi silahsızlanmadan əvvəl mənəvi silahsızlanmanın olmasına israr edirlər. Daha sonra heç bir səbəb olmadan - iddia edirlər ki, beynəlxalq qayda-qanunda əsas maneə şişirdilmiş millətçilik ruhudur və bu da vətənpərvərlik ideyası ilə sıx bağlıdır. Öz-özlüyündə bu çox gözəldir, lakin, bir sıra hallarda yanlış başa düşülür. Son yarım əsr ərzində bu cərəyan hər yerdə mənfi və getdikcə faciəli bir güc qazanıb. Bu etirazı obyektiv olaraq qiymətləndirmək üçün xarici maşın mexanizmləri və daxili zehniyyət arasında əlaqənin olduğunu başa düşmək lazımdır. Söhbət ondan getmir ki, avtomatlaşdırma hisslərin ənənəvi obrazından asılıdır və yaranmasını, mövcudluğunu ona borcludur. Söhbət ondan gedir ki, bu günkü avtomatlaşdırma öz növbəsində hisslərin milli obrazına gücül təsir göstərmək qabiliyyətinə malikdir. Təəssüf ki, günümüzdə millətçiliyin güclü inkişafı və yayılması, məcburi hərbi xidmət ilə yaxından əlaqələndirilir və ya bunu milli ordu institutu da adlandıra bilərik. Vətandaşlarının hərbi xidmət göstərməsini tələb edən bir ölkə orduda döyüş qabiliyyətinin psixoloji əsasını təmin edən milliyyətçi bir ruha sahib olmaq məcburiyyətində qalır.Belə bir inanc dövlətə məktəblərdə gənclərin heyranlığına səbəb olacaq qüvvətli bir güc tələb edir. Məcburi hərbi xidmətin tətbiqi mənim üçün ağ irqin mənəvi cəhətdən dağılmasının əsas səbəbi kimi görünür.Bu da təkcə bizim mədəniyyətimizin mövcudluğuna deyil, eyni zamanda fiziki təhlükəsizliyinə də ciddi təhlükə yaradır. Bu sosial böhran cəmiyyətə böyük xeyir gətirmiş Böyük Fransız İnqilabından

başlamış və tezliklə digər ölkələr Fransanı nümunə götürmüşlər. Buna görə də beynəlxalq əməkdaşlıq ruhunu gücləndirmək istəyən və şovinizmlə mübarizə aparan hər kəs məcburi hərbi çağırışa qarşı çıxış etməlidir.

Sizə elə gəlmir ki, məcburi hərbi xidmətə qarşı dürüst və açıq şəkildə etiraz edənlər, hətta ötən yüzilliklərdə din yolunda şəhid olanlardan daha çox qəddar zulmə məruz qalırlar? Siz də Kelloq* paktında olduğu kimi, müharibəni qınaya və eyni zamanda, hər bir ölkənin vətəndaşını hərbiyə qurban verə bilərsinizmi ?

Tərk-silah Konfransına görə özümüzü texniki-təşkilati problemlərlə məhdudlaşdırmamalı, eyni zamanda, psixoloji problemləri təhsil yolu ilə həll etməyə borcluyuqsa, biz orduda xidmət etməkdən imtina etmək üçün beynəlxalq səviyyədə qəbul olunan və hər bir vətəndaşın istifadə edə biləcəyi hüquqi yol tapmalıyıq. Şübhəsiz ki, bu cür qanunvericilik aktı böyük mənəvi təsir göstərəcəkdir. Beləliklə, yekunlaşdırım: adi müqavilələrlə silahlanmanın məhdudlaşdırılması barədə təhlükəsizlik təmin oluna bilməz. Arbitraj qərarlarının məcburliyini gücləndirmək üçün üzv ölkələr mümkün hərbi və iqtisadi sanksiyaları olan sülh razılaşmalarını pozanlara qarşı icra orqanlarının yaradılmasına zəmanət verməlidirlər.

Məcburi hərbi xidmətə qarşı qeyri-sağlam millətçilik düşüncəsi kimi müqavimət göstərilməlidir.

Ən əsası onlara qarşı açıq və dürüst şəkildə mübarizə aparan hər kəsin beynəlxalq səviyyədə qorunmasını təmin etmək lazımdır.

*Kelloq paktı (Paris paktı) — beynəlxalq mübahisələrin həll edilməsi vasitəsi kimi müharibədən imtina barədə müqavilə. 1928-ci ildə imzalanıb. 1938-ci ilin sonuna kimi 63 ölkə bu pakta qoşulub

Nəhayət, Ludwig Bauerin "Sabah yenə Müharibə" kitabını diqqətinizə çatdırıram, burada nəzərdən keçirilən suallar qərəzsiz və məsələnin dərin psixoloji tərəfini anlayaraq müzakirə edilir.

1932-ci il

II FƏSİL
II hissə
"Bəşəriyyətin dahi ixtiraçısı"

İnsanların ixtiraçı fərasəti son yüz il ərzində bizə o qədər fayda verdi ki, əgər siyasi quruluş texniki tərəqqi ilə ayaqlaşsaydı, həyat xoşbəxt və qayğısız olardı. Lakin, bu günə qədər bizim nəslin böyük əmək sərf etdiyi bütün bu nailiyyətlər üç yaşlı uşağın əlində olan ülgücə bənzəyir. Möcüzəvi istehsal vasitələrinin yaranması azadlığın əvəzinə aclıq və qayğılara səbəb oldu. Xüsusilə texniki tərəqqinin yüksəlişi nəticəsində insan həyatının və ağır əməyin bəhərəsinin məhv edilməsi ilə nəticələnən sahələrdə bu daha da kədərlidir. Biz, yaşlı nəslin nümayəndələri, bunu Dünya Müharibəsi zamanı görüb dəhşətə gəlmişik. Halbuki, fikrimcə, müharibə daha da pis nəticələrə gətirib çıxarır. Mən şəxsiyyətin alçaldıcı köləliyə sövq edilməsini nəzərdə tuturam. Həqiqətənmi cəmiyyətin insanı hamının iyrənc qəbul etdiyi əməli törətməyə sövq etməsi qorxulu deyil? Yalnız bir qrup insanların müqavimət göstərməyə mənəvi gücü var, onları Dünya Müharibəsinin əsl qəhrəmanları hesab edirəm. İndi təkcə bir ümid yeri var. Əminəm ki, dünya ölkələrinin məsul rəhbərləri həqiqətən, müharibələrin aradan qaldırılmasını arzulayırlar. Tərəqqiyə doğru bu ən mühüm addımlara qarşı müqavimət irsi xəstəlik kimi təhsil sistemi vasitəsilə nəsildən-nəslə ötürülmüş, təəssüf doğuran milli ənənələrin kökündə durur. Bu ənənənin ötürülməsi üçün əsas vasitə hərbi təlim və ona riayət

edilməsi, eləcə də, hərbi və ağır sənaye tərəfindən nəzarət edilən mətbuatdır. Silahsızlaşma olmadan uzunmüddətli sülh əldə edilə bilməz.Əksinə, əgər müharibələrə hazırlıq əvvəlki miqyasda davam edərsə, bu qaçılmaz olaraq yeni fəlakətlərə gətirib çıxaracaqdır. Buna görə də, 1932-ci ildəki Tərk-Silah Konfransı indiki və sonrakı nəsillərin taleyini həll edəcək. Əvvəlki konfransların necə acı nəticələrinin olduğunu düşünsəniz, aydın olacaq ki, bütün zəkalı və məsuliyyətli şəxslərin vəzifəsi durmadan cəmiyyətə 1932-ci il Konfransının mühüm əhəmiyyətə malik olmasını xatırlatmaqdır. Dövlət xadimləri bu məqsədə yalnız ölkə əhalisinin əksəriyyətinin sülh arzuladığını gördükdə nail ola bilərlər. Belə ictimai rəyi formalaşdırmaq üçün hər birimiz sözümüzə, hərəkətimizə görə cavabdeh olmalıyıq. Nümayəndələr Konfransa hazır əmrlərlə gəlsəydilər, onun taleyi həll olunardı. Belə ki, söhbət artıq onların nüfuzundan gedirdi. Son zamanlar dövlət xadimləri tez-tez təkbətək görüşürdülər. Məhz belə görüşlər konfrans üçün zəmin yaradıb. Mənə elə gəlir ki, bu çox uğurlu addımdır. İki insan və ya kiçik kompaniya üçüncü tərəf olmadan istənilən məsələləri məntiqlə, dürüst, açıq şəkildə müzakirə edə bilər. Belə görüşlərin gedişatında konfransa hazırlıq öncədən olarsa, müvəffəqiyyətli sonluğa ümid edə bilərik. Bu halda biz istənilən sürprizlərdən sığortalanacağıq, səmimi, xoşməramlı mühit isə sakitlik və inam yaradacaq.

Belə qlobal məsələlər həll olunarkən müvəffəqiyyət hiyləgərlikdən deyil, dürüstlük və etimaddan asılıdır. Çox şükür ki, mənəviyyatı rasional səbəblərlə sıxışdırıb çıxarmaq olmaz. Bunları müşahidə edən ancaq tənqid etməli deyil, ümumi iş üçün çalışmalıdır. Dünyanı layiq olduğu qismət gözləyir.

Ok. 1932-ci il

Amerika və tərksilaha dair konfrans

Bu günlərdə amerikalıları daha çox öz ölkələrindəki iqtisadi vəziyyət maraqlandırır. Onların məsul liderlərinin bütün resursları vətənlərindəki geniş miqyaslı işsizliklə mübarizəyə istiqamətlənib. Dünyanın digər ölkələrinin, xüsusilə Ana-Avropanın taleyi onları indi həmişə olduğundan daha az maraqlandırır. Lakin, iqtisadi qüvvələrin sərbəst oyunu bu çətinliklərin öhdəsindən təkbaşına gələ bilməyəcək. Cəmiyyət əhali arasında əməyin və istehlak mallarının düzgün bölgüsünü təmin etmək məqsədi ilə tənzimləyici tədbirlər görməlidir. Əks halda ən dövlətli ölkələrin sakinləri belə ehtiyac içində olacaqlar. Məsələ orasındadır ki, texniki metodların təkmilləşməsi nəticəsində hər bir insanın ehtiyacının ödənilməsi üçün indi daha az əmək tələb olunur. Bu halda iqtisadi resursların sərbəst dövriyyəsi bütün mümkün olan işçi qüvvələrinin özlərinə iş yeri tapmasına gətirib çıxarmır. Texniki tərəqqinin nəticələrinin hamıya xidmət etməsi üçün onun hərtərəfli tənzimlənməsi və təşkilatlanması lazımdır. Əgər iqtisadiyyatı belə sistemləşdirilmiş tənzimləmə olmadan qaydasına salmaq olmursa, beynəlxalq siyasət məsələlərində bu kimi tənzimlənmənin olması vacibdir. Hətta bu günlərdə yalnız az sayda insan, beynəlxalq məsələlərin həllində çıxış yolunu müharibələrdə görür. Bizim məntiqimiz kifayət etmir ki, barbar dövründən qalmış bu nalayiq və vəhşi müharibə təfəkküründən qarşısını almaq üçün qətiyyətli addımlar ataq. Cari vəziyyətin aydın təsəvvürünü yaratmaq və pasifizm ideyasını müdafiə etmək üçün müəyyən məntiqi bacarıq və cəsarət tələb olunur.

Bəşəriyyəti müharibələrdən xilas etmək istəyən hər kəs öz ölkəsini suverinitetin müəyyən payından beynəlxalq təşkilatların xeyrinə imtina etməyə açıq şəkildə səsləməlidir. Mübahisələr yaranacağı təqdirdə o, öz ölkəsini beynəlxalq məhkəmələr qarşısında cavab verməyə təşviq etməlidir. O, dünyəvi tərksilahı hərtərəfli, bundan öncə Versal sülh müqaviləsində təsvir olunduğu kimi dəstəkləməlidir. Əgər hərbi təhsil və aqressiv vətənpərvər tərbiyə aradan qaldırılmasa, inkişaf gözləməyə dəyməz.
Son bir neçə ildə qabaqcıl müasir ölkələr görünməmiş rüsvayçılıqla üzləşiblər,onlar tərk-silaha dair bütün konfransların qərarlarını icra edə bilməyiblər. Bu uğursuzluq həm siyasətçilərin müxtəlif səbəbli bəhanələri, fitnələri həm də cəmiyyətin laqeydliyi ilə izah olunur. Vəziyyət dəyişməzsə, biz öz sələflərimizin nailiyyətlərini puç etmiş olacağıq.
Əminəm ki, məsələ yalnız Amerika xalqının bu işdə öz məsuliyyətini tam dərk etməməsi ilə əlaqədardır. Sıradan bir amerikalı şübhəsiz ki, belə fikirləşir: "Əgər zalım sakinləri Avropanı məhv etmək istəsə - qoy elə də olsun! Vilsonun* Avropanın daşlı torpağında əkdiyi xeyir toxumları öz bəhrəsini vermədi.
Biz isə güclüyük, özümüzü incitməyə qoymarıq, özgənin işinə qarışmağa da lüzum yoxdur"
Belə düşünmək həm alçaqlıqdır, həm də uzaqgörənlikdən kənardır. Avropanın çətinliklərində qismən Amerikanın da günahı var. Amerika mərhəmət etmədən öz iddialarını yürütməkdə təkid edirdi. Bu isə Avropanın iqtisadi və əxlaqi cəhətdən uçurumuna yol açdı. O həmçinin,Avropanın balkanlaşdırılmasına kömək etməklə siyasətdəəxlaq normalarının dağılması və intiqam ruhunun möhkəmlənməsinin səbəbkarıdır. Amerika dövlətinin sərhədləri bu ruha bir maneə olmayacaq

*Vilson, Tomas Vudro (1856-1924) – 1913-1921-ci illərdə ABŞ prezidenti.

az qala "olmadı" yazacaqdım. Ətrafa boylanın və irəliyə baxın. Həqiqəti qısaca umumiləşdirə bilərik: Tərk-silah Konfransı yalnız bizim üçün deyil, həm də sizin uçun sivil bəşəriyyətin yaratdığı bütün yaxşılıqları qorumağa son şansdır. Aramızda ən guclu və ən dərrakəli olduğunuz üçun butun bəşəriyyətin gozu və umidləri sizə yonəlib.

Ok. 1932-ci il

Aktiv paslfizm

Flaman (şimal-qərbi Avropada bölgə) xalqı tərəfindən təşkil edilən geniş miqyaslı dinc nümayişə şahid olduğum üçün şanslıyam. Gələcək naminə bütün xoş niyyətli insanların adından müraciət etməyi özümə borc bilirəm: "Gözlərimizin açıldığı və vicdanımızın oyandığı bu anda sizinlə sıx əlaqəni hiss edirik."

Özümüzü aldatmayaq: gərgin mübarizə olmadan cari vəziyyəti yaxşılaşdırmaq mümkün olmayacaq. Belə ki, hərəkətə keçmək istəyən mübarizlərin sayı laqeyd kütlənin sayından qat-qat azdır. Hərbi qüvvələrin aktiv olmasında maraqlı olanlar isə çox güclüdülər. İctimai rəyin onların məqsədlərinə xidmət etməsi üçün hər şeyə hazırdılar. Görünür, müasir rəhbərlər həqiqətən sabit sülhün təmin edilməsi üçün səy göstərirdilər. Lakin, amansız silahlanma göstərir ki, siyasətçilər müharibə hazırlayan düşmən qüvvələrinin müqavimətini dəf etməyə qadir deyillər. Fikrimcə, xilaskarlar yalnız

vətəndaşların özləri ola bilər. Əgər onlar hərbi xidmətin alçaldıcı köləliyindən qaçmaq istəyirlərsə, tam tərk-silah haqqında açıq və birmənalı şəkildə bəyan etməlidirlər. Orduların mövcud olduğu müddətdə istənilən ciddi münaqişələr muharibəyə səbəb olacaq. Xalqları silahlanmadan xilas etmək istəməyən pasifizm gücsüz olub və olmaqda da davam edəcək. Qoy insanların vicdanı və sağlam düşüncəsi oyansın, o zaman biz, xalqların həyatında yeni mərhələyə qədəm qoyacağıq, müharibəni isə əcdadlarımızın səhvi kimi xatırlayacağıq!

Sülh tərəfdarına məktub

Eşitmişəm ki, siz öz alicənablığınızla bəşəriyyət və onun taleyinə acıyırsınız, təvazökarlıqla böyük işlər görürsünüz. Dünyada həqiqətən, gözü və ürəyi olan çox az insan var. Lakin, məhz onların gücü ilə bəşəriyyəti çoxlarının ideal hesab etdiyi acınacaqlı vəziyyətdən qorumaq olar.

Kaş ki, xalqlar gec olmadan anlasınlar ki, Dünya Müharibəsinin qarşısını almaq üçün milli şüurun böyük bir hissəsini qurban vermək lazımdır. Beynəlxalq əməkdaşlığın ruhu və vicdanı bu məsələdə aciz qalıb. İndiki vəziyyətdə onlar o qədər zəifdirlər ki, sivilizasiyanın qəddar düşmənləri ilə danışıqların aparılmasına razılaşırlar. Belə razılaşmalar bəşəriyyətə qarşı cinayətdir, onları isə siyasi müdriklik kimi qələmə verirlər. Bəşəriyyətə inamı itirmək olmaz, çünki biz özümüzdə insanıq. Dünyada sizin kimi -qorxmaz, ruhlandırıcı, görkəmli mübarizlərin olması özü təsəllidir.

Yenə o mövzü haqqında

Əziz dost və ruh qardaşım!

Dinc dövrdə öz vətəndaşlarını hərbi xidmətə çağıran bir ölkənin məqsədi nədən ibarətdir? Ümumən hərbi xidmətdən qurtulmaq üçün mübarizə aparmaq lazımdır. Belə ki, 1918-ci ildəki qələbə fransız xalqına baha başa gəlib, məhz bu qələbə onun köləliyin ən rüsvayçı vəziyyətinə düşməsinə səbəb olub. Bu mübarizədən imtina etməyin. Sizin güclü müttəfiqiniz var - Alman və irticaçıları. Əgər Fransa məcburi hərbi xidməti (hərbi mükəlləfiyyəti) saxlasa, bu Almaniyada da tətbiq ediləcək. Çətin ki, onu uzun müddət təxirə salmaq mümkün olsun. Əvvəl-axır almanların bərabər hüquq uğrunda mübarizəsi müvəffəqiyyətlə nəticələnəcək, bu zaman hər fransız hərbi qulluqçusuna iki alman hərbi qulluqçusu düşəcək, bu isə əlbəttə ki, Fransanın maraqlarına uyğun deyil. Yalnız məcburi hərbi xidməti tamamilə ləğv etməyə müvəffəq olduqda, gənclərdə sülh ruhunu, həyat sevincini və bütün canlılara sevgini tərbiyə etmək mümkün olacaq. Əminəm ki, əgər 50000 nəfər eyni zamanda hərbi xidmətə çağırılan zaman, ideoloji səbəblərdən orduda xidmət etməkdən imtına edərlərsə, bunun qarşısını almaq mümkün olar. Təkbaşına burada çox az şeyə nail olmaq olar və içimizdəki yaxşı insanların üç nəhəng qüvvə olan qorxu, alçaqlıq və axmaqlığın dayandığı hərbi maşınların altında əzilməyini seyr etmək heç kim üçün xoş olmaz.

Və yenə də eyni mövzudan

Əziz dost!

Məktubunuzda qeyd olunan məsələ birinci dərəcəli əhəmiyyətli məsələdir.Hərbi sənaye vurguladığınız kimi bəşəriyyət üçün qurulan ən böyük təhlükələrdən biridir.Bu, hər yerə yayılmış, millətçiliyin arxasında dayanan gizli, qəzəbli qüvvədir. Bəlkə də, milliləşdirmə ilə nəyəsə nail olmaq olar. Lakin, buraya sənayenin məhz hansı sahələrinin daxil edilməsini dəqiq müəyyənləşdirmək çox çətindir. Hava nəqliyyatının istehsalını milliləşdirmək lazımdırmı? Bu metal işləmə və kimya sənayesinə nə dərəcədə aiddir? Silah-sursat istehsalı və hərbi materialların ixracına gəldikdə,Millətlər Liqası uzun illər ərzində bu kobud fəaliyyətə nəzarət etmək üçün çox çalışırdı və biz onun uğurlarının nə qədər kiçik olduğunu bilirik. Keçən il məşhur bir amerikalı diplomatdan "nə üçün Yaponiyanı siyasi gücünə görə iqtisadi boykotla cəzalandırmırlar" deyə soruşdum. "Kommersiya maraqları üstünlük təşkil edir" cavabını aldım. Belə bir cavabdan məmnun olan xalqa kömək etmək mümkündürmü?

Düşünürsüz ki, bu sahədə nəyəsə nail olmaq üçün mənim sözlərim kifayət edir? Çox böyük yanlışlığa yol verirsiniz! Mən ciddi etiraz etməyənə qədər məni yola verirlər. Lakin mən birbaşa hökumətə müraciət etsəm, onlar o qədər zəifdirlər ki, sivilizasiyanın qəddar düşmənləri ilə danışıqların aparılmasına belə yol verərlər. Bu cür razılaşmalar bəşəriyyətə qarşı cinayətdir, onlar isə bunu siyasi müdriklik kimi qəbul edirlər.

Bildiyimə görə, bu böhran təbiətcə keçmiş böhranlardan fərqlənir, çünki onun sürətlə irəliləməsinə səbəb olan tamamilə yeni bir vəziyyətə əsaslanır. Həyat üçün lazım olan bütün istehlak mallarını istehsal etmək üçün

dünyada mövcud olan əməyin yalnız bir hissəsi lazımdır. İqtisadi sistemin tam azadlığı ilə bu amil qaçılmaz olaraq işsizliyə gətirib çıxaracaqdır. Burada təhlil etməyəcəyim səbəblərdən əhalinin əksəriyyəti minimum əmək haqqı ilə işləməyə məcburdur. Əlbəttə ki, bu yaşayış üçün kifayət etmir. Əgər iki zavod digər bərabər şərtlər saxlanılmaqla eyni məhsulu istehsal edirsə, istehsal daha az işçi qüvvəsindən istifadə edənə ucuz başa gələcək. Belə ki, o, hər bir işçidən maksimum faydalanmaq üçün onu bacardığı qədər çox və məhsuldar işləməyə məcbur edir. Nəticədə, hazırkı vəziyyətdə istehsal vasitələri mövcud işçi qüvvəsinin yalnız bir hissəsini əhatə edə biləcək. Bu işçilərə hədsiz tələblər qoyulmasına baxmayaraq, digərləri istehsal prosesindən avtomatik olaraq kənarlaşdırılır. Bu isə satış və gəlirlərin aşağı düşməsinə səbəb olur. Müəssisələr bağlanır və işsizliyin daha da artmasına gətirib çıxarır. Cəmiyyətin sənaye sahəsinə və vasitəçi-banklara olan inamı itir, əmanətlər geri götürülür, daha sonra banklar iflasa uğrayır və nəhayət, sənaye mexanizmləri tamamilə dayandırılır. Bundan əlavə, böhranın digər səbəblərini də sadalayırlar; onları nəzərdən keçirək.

• İstehsalın həddindən artıq çox olması. Burada iki prosesi fərqləndirməliyik – həqiqi və saxta formada istehsalın çox olması. Əgər istehsal olunan mallar tələbi aşırsa, bu həqiqi formadır. Yəqin ki, ABŞ-da indi buğda və avtomobil istehsalı ilə bağlı vəziyyət belədir, lakin, bu da şübhə doğurur. Adətən geniş istehlak mallarının kifayət qədər olmamasına baxmayaraq, konkret bir malın istehsalı satışından çox olduğu zaman istehsal müəyyən olunmuş həddi keçir. Bu hal istehsalın həddi keçməsinin həqiqi forması kimi qiymətləndirilir. Saxta formada isə tələbat deyil, istehlakçıların alıcılıq qabiliyyəti aşağı düşür. Bu saxta hal böhranın digər adıdır. Ona görə ki, heç bir halda həqiqi formada istehsalın artmasını böhran

kimi nəzərdən keçirmək olmaz. Reparasiyalar. Xalqın borclu olan hissəsi ödəniş etməyə məcbur olub, dempinqdən(malların maya dəyərindən aşağı satılması) istifadə edir və beləliklə, xalqın kreditor hissəsinə ziyan verir. Bu danılmazdır. Lakin ABŞ da olan böhran göstərir ki, tariflərin yüksək olmasına baxmayaraq, bu dünyadakı böhranın əsas səbəbi ola bilməz Borcu olan ölkələrdə reparasiya səbəbindən qızılın kifayət qədər olmaması ən böyük arqument kimi gətirilə bilər, lakin, onu dünya böhranının səbəbi kimi göstərmək lazım deyil.

Hədsiz tariflərin qoyulması, məqsədsiz olaraq silahlanmanın artması, müharibənin gizli təhlükəsi kimi siyasi qeyri-stabillik - bütün bunlar əhəmiyyətli dərəcədə Avropanın yükünü ağırlaşdırır, Amerikaya isə heç bir maddi təsir göstərmir. Böhranın Amerikada necə keçməsinə əsasən demək olar ki, bunlar onun üçün əhəmiyyətli səbəblər deyil.

• İki dünyəvi böyük güc sahibinin-Rusiya və Çinin oyundan çıxması. Dünya ticarətinə olan bu zərbə Amerikaya toxunmadığından böhranın əsaslı səbəblərindən ola bilməz.

• Dünya muharibəsindən sonra aşağı sosial siniflərin iqtisadi yüksəlişi. Bunun həqiqətən belə olduğunu ehtimal etsək, mövcud vəziyyət malların artıq istehsalına deyil, əksinə, yalnız azlığına gətirib çıxara bilər.

Məsələnin mahiyyətinə aid olmadığından oxucunu yormamaq üçün öz mülahizələrimi qeyd etməyəcəyəm.

Bir şeydən əminəm ki, məhz bəşəriyyəti həyati fəaliyyəti üçün lazım olan əziyyətdən xilas edəcək texniki tərəqqi indiki bəlalarımızın əsas səbəbi oldu. Şübhəsiz ki,texniki yeniliklərin qadağan olunması üçün ciddi cəhdlə mübahisə edən insanlar da var. Əlbəttə,bu, düzgün deyil. Lakin çıxılmaz vəziyyətdən rasional həll yolunu necə tapaq? Əgər, biz hansısa üsulla kütlənin alıcılıq qabiliyyətini müəyyən çərçivədə saxlaya bilsək, sənayenin bugünkü

durğunluq vəziyyətinə gəlib çıxması mümkünsüz olacaq. Bu məqsədə nail olmaq üçün ən məntiqli və eyni zamanda, ən cəsarətli üsul iqtisadiyyatın tam planlaşdırılmasıdır. Belə ki, geniş istehlak mallarını istehsal edən və yayan cəmiyyətin özü olacaq. Əslində, Rusiyada da indi buna oxşar cəhdlər edilir. Bu böyük təcrübənin nəticələrindən çox şey asılıdır.Bu barədə hər hansı bir proqnoz vermək cəsarət tələb edir. Belə bir sistemlə məhsul istehsal etmək fərdi sahibkarlıq da olduğu kimi qənaətli olacaqmı? Sistem özünü terror olmadan dəstəkləyə biləcəkmi-axı, "Qərb mədəniyyətinin" nümayəndələrindən heç kəs bunu qəbul etməyəcək? Belə bir sərt mərkəzləşdirilmiş sistem perspektivli yeniliklərin tətbiqinə qarşı çıxa bilərmi ? Bununla belə, bu cür şübhələrin, obyektiv qərarlar qəbul etməyə əngəl olan mühakimələrə yol verməməsi üçün diqqətli olmalıyıq. Əminəmki, qarşımıza qoyulmuş məqsədə uyğun olaraq mövcud ənənə və adətləri dəstəkləyən metodları üstün tutmaq lazımdır. Əlbəttə ki, sənaye idarəçiliyinin qəfildən, cəmiyyətin əlinə keçməsinin istehsalın məhsuldarlığına fayda gətirəcəyini düşünmürəm; sənayenin özu tərəfindən məhv edilməyən kartel yaratma prosesini hələki, fərdi sahibkarlığın bir sahəsi kimi saxlamaq lazımdır. Lakin, iqtisadi müstəqillik iki məsələdə məhdudlaşdırılmalıdır. Sənayenin hər bir sahəsində qanuni olaraq həftəlik iş saatını azaltmaq və beləliklə, işsizliyi sistematik şəkildə aradan qaldırmaq lazımdır. Eyni zamanda, işçilərin alıcılıq qabiliyyətinin istehsalatla uyğunlaşması üçün miminimum əməkhaqqı qeydə alınmalıdır. Daha sonra istehsalçıların inhisara çevirdiyi sahələrdə yeni kapitalı çərçivədə saxlamaq, eləcə də, istehsalın və istehlakın süni azalmasının qarşısını almaq üçün qiymətlərə nəzarət etməyi dövlətə yönləndirmək lazımdır. Bu yolla istehsal və istehlak arasında düzgün balans yaratmağa nail olmaq olar. Eyni zamanda, istehsal vasitələrinə (torpaq, avadanlıqvə s.)

malik olanların öz əməyinə görə pul alanlar üzərində diktator idarəçiliyinə son qoymaq mümkündür.

Ok. 1930-cu il

Mədəniyyət və rifah

Əgər kimsə böyük siyasi böhranın sivilizasiyanın inkişafına vurduğu zərəri qiymətləndirmək qərarına gəlsə, unutmasın ki, mədəniyyət yüksək göstəricilərinə görə, ancaq müəyyən şərtlər altında yetişən istixana bitkisi kimidir və o, hər yerdə çiçək açmayacaq. Onun inkişafı üçün əhaliyə birbaşa onların dolanışığı ilə əlaqəli (bağlı) olmayan işlərlə məşğul olmağa imkan verən müəyyən səviyyədə sosial rifah da lazımdır. Bundan başqa mədəni dəyərlərə və nailiyyətlərə mənəvi ənənəyə əsaslanan hörmət gərəkdir.Bu hörmət həyat üçün zəruri məhsulları istehsal edən, başqalarının rifahı üçün onları vasitələrlə təmin edənlərə ehtiramdan irəli gəlməlidir. Buna görə də həyat üçün zəruri məhsullar istehsal edən siniflər cəmiyyətin digər siniflərinin də rifahı üçün onları tələb olunan vasitələrlə təmin etməlidirlər. Son yüzil ərzində Almaniya hər iki şərti yerinə yetirən ölkələr sırasında olub. Xalqın rifahı az olsada, ümumilikdə kifayət edirdi; mədəniyyətə hörmət ənənəsi çox güclü idi. Bunun əsasında Alman xalqı müasir dünyanın mədəni inkişafının tərkib hissəsinə çevrilən mədəni məhsullar yetişdirmişdir. Ənənə qorunub saxlanılsada, rifah halı keçmişdə qaldı. Almaniya sənayesi demək olarki, xam malın mənbələrindən tamamilə məhrum olub. Halbuki, əhalinin bu hissəsinin mövcudluğu yalnız istehsalla məşğulluğa əsaslanıb. Zehni fəaliyyətlə məşğul olan işçilərin saxlanılması üçün zəruri olan bir çox şey

qəflətən itdi. Beləliklə, onunla birlikdə ona bağlı olan ənənənin də, yoxa çıxması qaçılmazdır. İnsanlar mədəniyyətə əhəmiyyət verdikləri müddətdə, belə bir qıtlığın qarşısını almaq da onların maraqları var. Mövcud böhran vəziyyətində o, cəmiyyətdə ali hissləri oyadacaq. Bu cəmiyyətdə insan şəxsiyyəti siyasətdən və dövlət sərhədlərindən asılı olmayaraq dəyərlidir. O zaman hər bir xalq mövcudluğu və mədəni məhsullar yetişdirməsi üçün iş şəraiti ilə təmin olunacaq.

İstehsalat və alıcılıq qabiliyyəti

İnanmıram ki, istehsal və istehlakın necə olduğunu araşdırmaqla cari çətinlikləri aradan qaldırmaq olar. Bundan əlavə, düşünürəm ki, Almaniyanın əsas problemi istehsal avadanlıqlarının hipertrofiyası yox, əhalinin istehsal prosesindən kənarlaşdırılan böyük bir hissəsində alıcılıq qabiliyyətinin defisitidir. Zənnimcə, qızıl standartının ciddi məhdudiyyəti mövcuddur: qızıl təchizatının azalması avtomatik olaraq kreditin, eləcə də dövriyyədə nağdlaşdırmanın azalmasına gətirib çıxarır müqavilə qiymətləri və əmək haqqı isə bu azalmaya kifayət qədər sürətlə uyğunlaşa bilmir. Mənə elə gəlirki, bu çətinliklərdən çıxmaq üçün təbii yollar aşağıdakı kimidir:

1) İstehsalatın hər bir sahəsi üçün yazılmış iş saatlarının qanuni şəkildə azaldılması - işsizlikdən azad olmaq və minimal əməkhaqqı ilə kütlənin alıcılıq qabiliyyətini mövcud məhsulların həcmi ilə uyğunlaşdırmaq məqsədi daşıyır.
2) Qiymət səviyyəsinin sabit saxlanılması üçün nağd pul dövriyyəsinə və kreditlərin həcminə nəzarət; lakin, qiymətlərin saxlanılması üçün hər hansı digər tədbirlər qadağan edilməlidir.

İnhisar və kartellərin yaradılması nəticəsin də faktiki olaraq sərbəst rəqabətdən çıxarılmış məhsulların qanun çərçivəsində qiymətlərinin məhdudlaşdırılması.

7 noyabr 1931

İstehsalat və işçi qüvvəsi

Kederstrem, Karl Yalmara(İsveçli memar) cavab

Hörmətli cənab Kederstrem!

Məni çox maraqlandıran təkliflərinizi göndərdiyiniz üçün təşəkkür edirəm. Bu məsələni çox düşündüyumə görə fikirlərimi açıq şəkildə ifadə etməyə haqqım var. Mənə elə gəlir ki, əsas çətinlik - əmək bazarında praktiki olaraq məhdudlaşdırılmamış azadlıq və istehsal vasitələri sahəsində görünməmiş inkişafdan ibarətdir. Bu gün dünya əhalisinin ehtiyaclarını ödəmək üçün bütün mövcüd olan işçi qüvvəsinə duyulmur. Belə ki, bu işçilər arasında işsizlik və hədsiz rəqabət yaradır, hər ikisi əhalinin alıcılıq qabiliyyətini azaldır, həm də qəbul olunmaz şəkildə bütün iqtisadi sistemə zərbə vurur.
Bilirəm ki, liberal iqtisadçıların fikrincə, işçi qüvvəsində istənilən qənaət tələbatın artması ilə tənzimlənir. Lakin ilk növbədə, mən buna inanmıram və hətta əgər bu belə olsaydı, yuxarıda sadalanan amillər bəşəriyyətin böyük bir hissəsinin həyat səviyyəsini istər-istəməz qeyri-təbii şəkildə aşağı salardı. Bundan əlavə, istehsalat prosesində gənclərin iştirakı üçün tədbirlərin görülməsinin vacibliyi fikrinizlə razıyam. Daha sonra, yaşlı insanların bir sıra

işlərdə çalışmasına yol vermək olmaz, lakin onlar da müəyyən gəlir əldə etməlidirlər. Belə ki, həyatları boyunca cəmiyyətin məhsuldar hesab etdiyi sahədə müvəffəqiyyətlə işləyiblər.

Mən də, sizin kimi böyük şəhərlərin olmasını dəstəkləmirəm, lakin müəyyən ərazilərdə insanların demoqrafik qatlara (məsələn, qocalara) ayrılmasının əleyhinəyəm. Etiraf etməliyəm ki, bu fikir məni kədərləndirir. Bundan əlavə, pul dövriyyəsindəki dəyişikliklərdən kənar durmaq lazımdır. Bunun üçün qızıl standartını Keynsin* çoxdan təklif etdiyi üsulla, istehlak şərtlərinə uyğun olaraq seçilmiş məhsulların müəyyən sinifləri əsasında mövcud olan standartla əvəz etmək lazımdır. Belə bir sistem tətbiq olunarsa, müəyyən dərəcədə "inflyasiya" da qəbul edilməlidir. Bu vəziyyətdə hökumət həqiqətən, nominal gəlirlərin gözlənilməz artımı ilə bağlı səmərəli istifadə yolunu tapmalıdır. Düşünürəm ki, sizin planın zəif tərəfləri psixoloji tərəfi, daha doğrusu, ona laqeyd yanaşmanızla bağlıdır. Kapitalizmin nəinki sənaye, həm də elm sahəsində inkişafa səbəb olması təsadüfi deyil. Təəssüf ki, eqoizm və rəqabət, ictimai birlik və alturizm hissindən daha güclüdür. Deyirlər ki, Rusiyada qazanc əldə etmək çətindir. Ola bilsin ki, mən dövlətə və digər ictimai qurumlara bədbin münasibət bəsləyirəm, lakin onlardan yaxşı bir şey gözləmirəm. Bürokratiya - bütün yaxşı təşəbbüslər üçün ölümdür. Öz təcrübəmdə onun dəhşətli əlamətlərini, hətta nisbətən nümunəvi İsveçrədə də, gördüm və hiss etdim. Dövlətin sənayeyə yalnız tənzimləyici qüvvə kimi real fayda gətirə biləcəyi nöqteyi-nəzərini dəstəkləyirəm. Onun vəzifəsi işçilər arasında rəqabətin sərhəddən kənara çıxmamasını, bütün uşaqların düzgün inkişaf etmək imkanına malik olmasını və əmək haqqının istehsal olunan malların istehlakı üçün

*Keyns Con Meynard (1883-1946) – görkəmli ingilis riyaziyyatçısı və iqtisadçısı

kifayət qədər olmasını təmin etməkdir. Lakin onun fəaliyyəti müstəqil ekspertlər tərəfindən obyektiv şəkildə qiymətləndiriləcəyi təqdirdə, tənzimləyici funksiya vasitəsi ilə həlledici təsir göstərə bilər. Sizə daha ətraflı şəkildə yazmaqdan məmnun olaram, amma bunun üçün vaxt tapa bilmirəm.

22 sentyabr 1932

Azlıqlar

Görünür, əksər insanlar onların yanında yaşayan azlıqlara, xüsusilə də onların içində bir sıra fiziki xüsusiyyətləri ilə fərqlənən nümayəndələr varsa, onlara aşağı səviyyəli varlıqlar kimi yanaşırlar. Bu, kainatın qanunudur. Belə bir taleyin faciəsi ondan ibarətdir ki, azlıqlar nəinki, sosial və iqtisadi məsələlərdə avtomatik olaraq ədalətsizliyə məruz qalır, həm də çoxluğun təsiri altında özləri də, öz soydaşlarına aşağı səviyyəli varlıqlar kimi yanaşmağa başlayırlar. İkinci zərərli komponenti sıx əməkdaşlıq etməklə və azlıqların mənəvi azadlıq əldə etməsi üçün xüsusi təhsillə təmin etməklə aradan qaldırmaq olar. Bu istiqamətdə Amerikalı zəncilərin işi hərtərəfli dəstəklənməyə və hörmətə layiqdir.

Avropanın cari vəziyyəti barədə qeydlər

Dünyada, xüsusilə Avropada mövcud siyasi vəziyyətin fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, siyasi inkişaf nə maddi, nə də intellektual cəhətdən iqtisadi tələblərə

uyğunlaşa bilmədi. Onlar qısa müddət ərzində tamamilə yeni görkəm aldılar. Hər bir ölkənin maraqlarını sözün geniş mənasında cəmiyyətin maraqlarına tabe etmək lazımdır. Siyasi düşüncə və duyğuların yeni bir istiqaməti üçün mübarizə asan məsələ deyil, çünki çox əsrlik bir ənənə ona qarşıdır. Lakin Avropanın mövcudluğu onun uğurundan asılıdır. İnanıram ki, psixoloji maneələr aradan qaldırılan kimi real problemləri həll etmək elə də çətin olmayacaq. Lazım olan mühiti yaratmaq üçün əsas tələb,-həmfikir insanlar arasında şəxsi əməkdaşlıq qurmaqdır. Qoy bizim birgə səylərimiz ölkələr arasında qarşılıqlı etimad körpülərinin qurulmasına səbəb olsun!

Dövrün varisləri

Keçmiş nəsillər intellektual və mədəni inkişafı sadəcə əcdadlarının əməyinin bəhrəsi kimi miras alıb, həyata daha asan və xoş baxa bilərdilər. Lakin dövrümüz bunun ölümcül bir səhv olduğunu göstərir. İndi başa düşürük ki, bəşəriyyətin irsini həqiqətən bir lənət deyil, xeyir-dua etmək üçün çox güc sərf etmək lazımdır. Bəli, keçmişdə bir insanın cəmiyyətin layiqli üzvü olması üçün müəyyən dərəcədə özünü xudpəsəndlikdən azad etməsi kifayət idi. Amma bu gün o, həm milli, həm də siniflərə mənsubiyyət hisslərindən imtina etməlidir. Yalnız belə yüksəkliklərə çatdıqdan sonra o, bəşəriyyətin taleyinin yaxşılaşdırılmasına öz töhfəsini verə bilər. Zamanın bu aktual tələbini icra etmək böyük dovlətlərin vətəndaşlarından çox, kiçik ölkə sakinləri üçün daha asandır. Belə ki, böyük dövlətlər həm siyasətdə, həm iqtisadiyyatda hər şeyə güc tətbiq etmək yolu ilə nail olmağa meyillidirlər. Hollandiya və Belçika arasında olan razılaşma kiçik ölkələrin dünyanı alçaldıcı militarizmdən azad etməkdə əsas rol oynamaları üçün son bir neçə il ərzində Avropada ayrı-

ayrı ölkələrin öz müqəddəratını təyin etməkdə məhdudiyyətsiz hüquq əldə etmələri yolunda yeganə ümid yeridir.

Ok. 1925-ci il

II Hissə
Almaniya, 1933-cü il
Manifest

Mart 1933-cü il

Bir halda ki, mənim seçim etmək hüququm var, mən yalnız siyasi azadlıqların, tolerantlığın və bütün vətandaşların qanun qarşısında bərabər idarə olunduğu bir ölkədə yaşayacağam. Siyasi azadlıq özündə həm şifahi, həm də yazılı şəkildə siyasi fikirlərin sözlə ifadə olunma azadlığını, hər kəsin şəxsi fikrinə hörmətlə, tolerantlıqla yanaşmağı ehtiva edir. Hazırda Almaniyada bu şərtlərə riayət edilmir. Xalqlar arasındakı anlaşma naminə ən çox çalışanlar, o cümlədən, bir çox aparıcı incəsənət xadimləri təqib olunurlar.

Hər bir ictimai orqanizm, hər bir insan kimi, xüsusilə çətin zamanlarda, psixi pozuntulara məruz qalır. Bir qayda olaraq, insanlar bu cür pozuntuların öhdəsindən uğurla gəlirlər. Ümid edirəm ki, Almaniya tezliklə bərpa ediləcək və gələcəkdə Kant və Göte kimi böyük vatandaşlar yalnız yubileylərində yad olunmayacaqlar, onların təbliğ etdikləri prinsiplər ictimai həyatda və kütləvi şüurda hakim olacaqdır.

Akademiyanın Eynşteynin əleyhinə bəyannaməsi.

1 aprel 1933-cü il

Qəzetlərdən Prussiya Elmlər Akademiyasına qəzəbləndirici bir fakt məlum oldu. Albert Eynşteyn Fransa və Amerikada Almaniyaya qarşı ədavəti şiddətləndirməkdə iştirak edib. Bunun dərhal izahata ehtiyacı vardı. Eyni vaxtda, Eynşteyn Akademiyadan ayrılmağını elan etdi. Səbəb kimi isə o, hal-hazırkı hökumət yanında Prussiya dövlətinə artıq xidmət edə bilməyəcəyini göstərirdi. Görünür, Eynşteyn İsveçrə vətəndaşı olduğundan Prussiya vətəndaşlığından imtina etmək niyyətində idi. O, bu vətəndaşlığı 1913-cü ildə, yalnız Akademiyanın həqiqi üzvü olmasına görə ala bilmişdi. Prussiya Elmlər Akademiyası Eynşteynin xaricdəki təşviqat fəaliyyətindən xüsusilə narazıdır. Belə ki, Akademiyanın özü və onun bütün üzvləri həmişə Prussiya dövləti ilə sıx əlaqədə olmuş və milli düşüncəyə sadiq olduqlarını vurğulamağa çalışıblar. Həm də siyasi fəaliyyətə qoşulmaqdan çəkiniblər. Ona görə də, Eynşteynin ayrılması təəssüf doğurmamalıdır.

Məktublaşma ilk dəfədir ki, ixtisar və düzəlişlər olmadan dərc edilir. Alman qəzetlərində o, əsas başlıqlar silinməklə göstərilirdi.

Akademiyanın katibi professor, doktor Ernst Heymana

5 aprel, 1933.

Prussiya Elmlər Akademiyasına müraciət

Tamamilə etibarlı bir mənbədən öyrəndiyimə görə,

Elmlər Akademiyası rəsmi bəyannaməsində məlumat verib: "Albert Eynşteyn Fransa və Amerikada Almaniyaya qarşı ədavəti şiddətləndirməkdə iştirak edib".
Mən sizi əmin edirəm ki, mən heç vaxt Almaniyaya qarşı ədavətin şiddətləndirilməsində iştirak etməmişəm və əlavə etməliyəm ki, heç yerdə kiminsə nəyisə şiddətləndirdiyini görməmişəm. Ümumiyyətlə, hər kəs Alman hökumətinin məsul şəxslərinin Alman yəhudi lərinin iqtisadi yollarla məhv edilməsi proqramını özündə əks etdirən rəsmi bəyanatları və sərəncamları təkrarən danışmaq və şərh etməklə kifayətlənir. Mətbuatda etdiyim açıqlamalar Elmlər Akademiyasında üzvlükdən və Prussiya vətandaşlığından imtina etmək niyyətində olduğuma görə idi; belə bir addımı mən insanın qanun qarşısında bərabərlikdən, istədiyi hər şeyi danışmaq və bəyan etməkdən məhrum olduğu ölkədə yaşamaq istəməməsi ilə əsaslandırıram. Əlavə olaraq, Almaniyanın mövcud vəziyyətini kütlələr arasında ruhi xəstəliklə müqayisə etdim və bunun səbəbləri haqqında bir neçə açıqlama verdim.
Bundan başqa Beynəlxalq antisemitizmlə mübarizə Liqasına yazılı bir sənəd verib, onu tərəfdarların təşviqatı üçün istifadə olunmasına icazə verdim, lakin, bu, mətbuat üçün nəzərdə tutulmayıb. Digər məsələlərlə yanaşı, mən sivilizasiyanın ideallarına sadiq qalmış bütün dərrakəli insanları təhlükələrə baxmayaraq, bu gün Almaniyada dəhşətli simptomlarla müşayiət olunan kütləvi psixozu dayandırmaq üçün əllərindən gələni etməyə çağırdım. Akademiya haqqımda bu cür mühakimələri dərc etməzdən əvvəl əslində, nə dediklərimi özü üçün araşdırsa, pis olmazdı. Alman mətbuatı mənim sözlərimi qəsdən təhrif olunmuş halda təkrarladı, hərçənd, təzyiq altında olan bugünkü mətbuatdan başqa bir şey gözləmək olmazdı.

Mən dərc etdiyim hər sözün məsuliyyətini daşıyıram. Buna cavab olaraq isə Akademiyadan bu açıqlamalarımı digər üzvlərə, eləcə də, Alman ictimaiyyətinə çatdırmasını gözləyirəm. Belə ki, Akademiyanın özü də mənə böhtan atanların içində idi.

Elmlər Akademiyasının cavabı.

Akademiya bildirmək istəyir ki, onun 1 aprel 1933-cü ildə dərc olunmuş bəyanat nəinki Alman, ilk növbədə xarici, xüsusilə Fransa və Belçika qəzetlərindəki məqalələrinə əsaslanıb. Cənab Eynşteyn isə orada yazılanlara etiraz etməyib. Bundan başqa, Akademiya cənab Eynşteynin antisemitizm əleyhinə olan Liqaya göndərilmiş, Almaniyanın keçmiş dövrlərinin barbarlıq vəziyyətinə düşdüyü deyilən sənədlə tanış olub. Cənab Eynşteyn deyirdi ki, Almaniyaya qarşı heç bir ədavəti şiddətləndirməkdə iştirak etməyib. Lakin buna baxmayaraq, ona qarşı atılan böhtanları və ədalətsiz şübhələri təkzib etməyə də cəhd göstərməyib, akademiya isə bunu onun həqiqi üzvlərinin vəzifəsi olduğunu düşünür. Əvəzində cənab Eynşteyn yalnız açıqlamalar verib. Bu açıqlamaları dünya şöhrətli və nüfuzlu bir şəxs etdiyindən, təkcə Alman hökumətinin deyil, bütün Alman xalqının xaricdə olan düşmənləri pis niyyətləri üçün istifadə ediblər.
Prussiya Elmlər Akademiyası adından - Akademiyanın daimi katibləri

Q. Fiker və E. Heyman
11 aprel 1933

Telegram @cinciva

Prussiya Elmlər Akademiyası - professor Erenfest, Leyden,professor Albert Eynşteynə ötürülməsi üçün**

****Erenfest, Paul (1880-1933) - Avstriya və Niderland nəzəriyyəçisi-fizik.**

Hörmətli cənab Eynşteyn!

Prussiya Elmlər Akademiyasının birinci katibi vəzifəsinin icraçısı kimi 28 mart 1933-cü il tarixli, Akademiyaya üzvlükdən imtina etdiyinizə dair məktubunuzu təsdiqləyirəm. Sizin istefa ərizənizə Akademiyada 30 mart 1933-cü ildə keçirilmiş plenar iclasında baxılıb. Akademiya belə bir hal ilə qarşılaşdığı üçün təəssüflənir. Lakin çox heyf ki, yüksək elmi nüfuza malik, illərlə almanlarla əməkdaşlıq edən və cəmiyyətimizin üzvü olan, almanların xarakteri və düşüncə tərzinə yaxşı bələd olan bir insan, əsaslandırılmamış şayiələr və yanlış mühakimələr yaymaqla Alman xalqına böyük zərbə vurmuş xarici qruplarla birləşmək üçün məhz bu anı seçdi. Şübhəsiz, bu da hadisələrin həqiqi gedişatının necə olduğunu bilməməklə izah edilir. Biz əmin idik ki, Akademiyamızda uzun müddət çalışan bir insan siyasi əqidəsindən asılı olmayaraq, xalqımızın ünvanına deyilən yalanlara görə onu müdafiə edənlərin yanında olmağı öz vəzifəsi hesab edəcək. Bizə həm pis niyyətlə, həm də bilməyərəkdən böhtan atılan belə günlərdə sizin dilinizdən Alman xalqının müdafiəsinə deyiləcək xoş sözlər, xüsusən də xaricdə əks səda oyadacaqdı. Əvəzində sizin açıqlamalarınız nəinki mövcud hökumətin, həm də bütün Alman xalqının düşmənlərinin xeyrinə oldu. Bizim üçün bu, acı bir məyusluqdur. Hətta istefa ərizənizi almasaq belə, şübhəsiz, sizinlə ayrılmaq qərarına gələcəkdik.

Hörmətlə, fon Fiker
Berlin, 7 aprel 1933-cü il

Lekok-sür-Mer, Belçika 12 aprel, 1933-cü il.
Berlin, Prussiya Elmlər Akademiyasına

Cari ayın yeddinci günü yazılan məktubunuzu aldım və orada əks etdirdiyiniz münasibətə dərindən təəssüflənirəm.
Məsələnin gerçək tərəfinə gəlincə, yalnız bir şey söyləyə bilərəm. Davranışım haqqında dediklərıniz, əslində, artıq nəşr etdiyiniz və məni Alman xalqına qarşı düşmənçilik etməkdə günahlandırdığınız bəyannamələrin başqa sözlərlə ifadəsidir. Son məktubumda bu ittihamların böhtan olduğunu artıq demişəm.
Bundan əlavə, siz qeyd etdiniz ki, "Alman xalqının" müdafiəsinə söyləyəcəyim "xoş sözlər" xaricdə müsbət əks səda oyadacaqdı. Buna cavab olaraq deməliyəm ki, təklif etdiyiniz bəyanat həyatım boyu müdafiə etdiyim azadlıq və ədalət haqqında bütün fikirlərdən imtina etməyə bərabər olacaqdır. Belə bir bəyanat, düşündüyünüz kimi, Alman xalqının müdafiəsinə xoş sözlər deyil, əksinə, sivil dünyada Alman xalqına şərəfli yer qazandırmaq istəyənlərin fikir və prinsiplərini pozmaq olardı. Mövcud vəziyyətdə belə bir bəyanat vermiş olsaydım, dolayı yolla olsa da, əxlaqi pozğunluq və bütün mövcud mədəni dəyərlərin dağılmasına yardımçı olacaqdım. Məhz bu səbəbdən Akademiyanı tərk etmək qərarına gəldim və sizin məktubunuz necə düzgün addım atdığımı göstərir.

Münhen, 8 aprel, 1933-cü il.

Bavariya Elmlər Akademiyası
professor Albert Eynşteynə

Cənab Eynşteyn!

Prussiya Elmlər Akademiyasına yazdığınız məktubda, Almaniyadakı mövcud durumunuzu istefa üçün səbəb adlandırmısınız. Bir neçə il bundan öncə sizi Müxbir Üzv seçən Bavariya Elmlər Akademiyasıda Almaniyan Elmlər Akademiyasının tərkibindədir və Prussiya və digər Elmlər Akademiyaları ilə sıx əməkdaşlıq edir; bu səbəbdən Prussiya Elmlər Akademiyasından ayrılmanız sözsüz ki, Akademiyamızla əlaqənizə də təsir edəcəkdir. Buna görə, sizinlə Prussiya Akademiyası arasında baş verən hadisələri nəzərə alaraq Akademiyamızla gələcək münasibətləri necə təsəvvür etdiyinizi soruşmağa məcburuq.

Bavariya Elmlər Akademiyasının Prezidentinə

Lekok-sür-Mer, Belçika 21 aprel, 1933-cü il.
Münhen, Bavariya Elmlər Akademiyasına

Prussiya Elmlər Akademiyasından ayrılmamın səbəbini mövcud şəraitdə nə Almaniyanın vətəndaşı olmaq, nə də Prussiya Təhsil Nazirliyində qeyri-müstəqil fəaliyyət göstərmək istəməməyimlə əlaqələndirdim. Özlüyündə bu səbəblər Bavariya Elmlər Akademiyası ilə münasibətlərin pozulmasına gətirib çıxara bilməzdi. Əgər hələ də, soyadımı onun üzvlər siyahısından silmək istəyirəmsə, bu, başqa səbəbdəndir. Hər bir Elmlər Akademiyasının əsas vəzifəsi ölkəni elmi həyata təşviq etmək və onu qorumaqdır. Lakin bildiyim qədər, Almaniyada elmi ictimaiyyət istedadlı Alman alimlərinin, tələbələrinin, all

təhsilli mütəxəssislərin böyük bir hissəsinin Almaniyada iş tapmaq və qazanc əldə etmək üçün bütün fürsətlərdən məhrum olmasını kənara çəkilərək səssizcə seyr etdi. Hətta, xaricdən təzyiq altında olsa belə, bu şəkildə davranan heç bir cəmiyyətə aid olmaq istəmirəm.

Almaniyadakı antisemitizmə qarşı fransız manifestinə qoşulmaq təklifinə cavab

Eyni anda mənə yaxın bir neçə ideyaya toxunan bu ən əhəmiyyətli təklifi hərtərəfli şəkildə nəzərdən keçirdim. Nəticədə qərara gəldim ki, iki əsas səbəbdən bu çox əhəmiyyətli təşəbbüsdə şəxsən iştirak edə bilmərəm.
Birincisi, hələ də, Alman vətəndaşıyam, ikincisi, mən yəhudiyəm. Birinci mövqeyə gəlincə, əlavə etməliyəm ki, Almaniyadakı qurumlarda çalışmışam və burada mənə həmişə tam etimad göstərilib. Orada baş verənlərə təəssüf edirəm və hökumətin razılığı ilə edilən böyük səhvləri qınayıram, lakin başqa bir ölkənin hökuməti tərəfindən təşkil olunan işdə şəxsən iştirak etməyim mümkün deyil. Məni tam anlamaq üçün Almaniyanın görkəmli ictimai xadimləri tərəfindən Fransa hökumətinin hərəkətlərinə qarşı etirazı dəstəkləyən bir Fransa vətəndaşını təsəvvür edin. Hətta, siz bu etirazın tamamilə faktlarla əsaslandırılmış olduğunu bilsəniz belə, öz həmyerlinizin davranışını xəyanət hesab edəcəksiniz. Əgər Zolya* Dreyfusun işi zamanı Fransanı tərk etməyi zəruri bilsəydi, yəqin ki, o yenə də, Almaniyanın rəsmi şəxsləri tərəfindən olan etiraza qoşulmazdı. Hərçənd,

*Zolya Emil (1840-1902) – fransız yazıçısı, naşir və ictimai xadim. 1898-ci ildə Dreyfusun işi ilə bağlı "Mən günahlandırıram" adlı məqalə dərc edib.Burada o, Fransız hökumətini antisemitizmdə günahlandırırdı. Bundan sonra isə,İngiltərəyə köçmək məcburiyyətində qaldı. Dreyfusun işi – Alman imperiyasının xeyrinə işləyən casus, Elzasdan olan yəhudi, Fransız Baş Qərargahının zabiti, kapitan Alfred Dreyfus haqqındadır. Proses XIX əsrin sonlarında Fransa və Avropanın tarixində vacib rol oynayıb.

onları dəstəkləməsi məlum idi. O, öz həmyerlilərinin hərəkətinə görə utanardı. İkincisi, əgər, zorakılıq və ədalətsizliyə qarşı etirazlar, müstəsna humanizm və ədalətsevərlik oyandıra bilən şəxslər tərəfindən reallaşdırılsa, onda bu ölçüyəgəlməz bir təsir gücünə malik olur. Yəhudiləri özünə qardaş hesab edən mənim kimi insan haqqında bunu demək olmaz. Onun üçün isə yəhudiləri təhqir etmək onun özunü təhqir etmək hesab olunur. Belə biri, maraqlı olduğu işdə hakim funksiyasını yerinə yetirə bilməz və qərəzsiz kənar müşahidəçilərin hökmünü gözləməlidir. Bunlar mənim səbəblərimdir. Lakin əlavə etmək istərdim ki, həmişə ədalət hissini fransız ənənəsinin ən nəcib xüsusiyyətlərindən biri saymışam.

III HİSSƏ
I Fəsil

Fələstinin dirçəlişinə dair çıxışlar

On il bundan əvvəl sionizmin işləri ilə əlaqədar sizə müraciət etməkdən qürur duyduğum zaman, demək olar ki, bütün ümidlər gələcəyimizlə bağlı idi. Bu gün biz, bu on ili sevinclə xatırlaya bilərik - bu dövrdə yəhudi xalqının birləşdiyi qüvvələr Fələstində şöhrət qazanmış və ümidləri hədsiz dərəcədə üstələyən nəticələr göstəriblər. Bundan əlavə, son illərin baş verən hadisələrindən məruz qaldığımız sərt sınaqdan uğurla çıxdıq. Nəcib bir məqsədlə ilhamlanmış ağır iş yavaş-yavaş irəliləsə də, həmişə müvəffəqiyyətə gətirib çıxarır. İngiltərə hökumətinin bizim vəziyyətimiz ilə əlaqəli son

bəyanatları daha ədalətli hökmlərin çıxarılmasını əks etdirir və biz bunu məmnuniyyət hissi ilə qəbul edirik. Lakin böhranın bizə öyrətdiyi şeyləri unutmamalıyıq: yəhudi və ərəblər arasında məqbul bir əlaqənin qurulması ingilislərin deyil, bizim işimizdir. Biz, yəhudilər və ərəblər-hər iki xalqın ehtiyaclarını qarşılamaq üçün nəzərdə tutulmuş qarşılıqlı faydalı tərəfdaşlığın ümumi sahələri ilə bağlı razılığa gəlməliyik. Hər iki xalq üçün bu məsələnin layiqli, ədalətli həlli, quruculuğun davam etdirilməsindən daha az vacib deyil. Diqqət edin, İsveçrədəki siyasi sistem hər hansı bir ölkədən daha yaxşı inkişaf edib, çünki, fərqli milli qruplardan sabit bir cəmiyyət yaratmaq üçün ilk növbədə əsas siyasi vəzifələri həll ediblər. Hələ bir çox işlərimiz var, amma ən azından Herzlin* bir məqsədinə nail olmuşuq: Fələstində quruculuq işləri yəhudi xalqında hər bir orqanizmin sağlam mövcudluğu üçün vacib olan həmrəylik və gələcəyə inam yaradıb. Ümumi məqsəd naminə etdiklərimiz yalnız Fələstindəki qardaşlarımız üçün deyil, eyni zamanda, bütün yəhudi xalqının şərəf və rifahı naminə həyata keçirilir.

"Biz bu gün ona görə toplaşmışıq ki"

Bu gün biz əsrlər boyu mövcud olan icmamızı, onun taleyi və çətinliklərini xatırlamaq üçün toplaşmışıq. Bu icma həmişə çətin zamanlarda gücünü və həyata davamlılığını göstərən mənəvi bir ənənə ilə birləşib. O, hər zaman dünyaya insan ləyaqətini, vicdanını, ədalətini təcəssüm etdirən insanlar bəxş edib. Daxili təşkilatlanmanın olmamasına baxmayaraq, bu cəmiyyətə qayğı göstərdiyimiz müddətdə o, bəşəriyyətə xeyir vermək

*Herzl, Teodor (1860-1904) — yəhudi ictimai və siyasi xadim, Ümumdünya Sionist Təşkilatının banisi, yəhudi dövlətinin qurulması ideyasını irəli sürənlərdən biri

üçün mövcud olacaq. Təxminən on ya da iyirmi il bundan əvvəl, başda Herzl olmaqla bir çox uzaqgörənlər çətin dövrlərdə həmrəylik duyğusunu qorumaq üçün mənəvi bir mərkəzə ehtiyac olduğu nəticəsinə gəliblər. Beləcə, Sionizm ideyası yaranmış və uğurlu, ümidverici başlanğıcla Fələstində məskunlaşma işləri başlanmışdır. Psixoloji xarakterli təhlükələrə məruz qalmasına baxmayaraq digər xalqlar arasında azlıq təşkil edən yəhudi xalqının yalnız xarici deyil, həm də
daxili dirçəlişi üçün əsas olan uğurlar mənim böyük sevinc və xoşbəxtliyimə səbəb olub. Son bir neçə ildə Fələstində böhranla üzləşən quruculuq işləri bizim üçün ağır bir yük oldu və hələ də, davam etməkdədir.Buna baxmayaraq, son məlumatlara görə bütün dünya, xüsusilə də İngiltərə hökuməti sionizmə qarşı mübarizəmizin arxasındakı böyük fikirləri qəbul etməyə hazırdır. Gəlin, dünyagörüşünün qüdrəti və genişliyi ilə uğurlara imza atan öndərimiz Veytsmanı* minnətdarlıqla xatırlayaq.

Keçdiyimiz çətinliklər bizə az da olsa, fayda gətirdi. Onlar bütün dünya ölkələri yəhudilərini ümumi bir taleylə birləşdirən bağların nə qədər güclü olduğunu göstərdi. Bununla yanaşı, böhran Fələstin məsələsinə münasibətimizə aydınlıq gətirdi, millətçiliyi çirkablardan təmizlədi. Biz, birmənalı şəkildə bəyan etdik ki, siyasi cəmiyyət yaratmayacağıq - bizim məqsədimiz qədim yəhudi ənənəsinə uyğun olaraq, sözün ən geniş mənasında yalnız mədəniyyətdir. Nəticə olaraq, ərəb

*Veytsman, Xaim (1874-1952) – kimyaçı-alim, siyasətçi, İsrail Hökumətinin ilk prezidenti, Dünya Sionist Təşkilatına 2 dəfə prezident seçilib.

*Söhbət Fələstindəki Britaniya mandatından gedir. 1922-1948-ci illər ərzində keçmiş Osmanlı İmperiyası ərazisində MilliətlərLiqasının mandatı üzrə Böyük Britaniyanın idarəetmə rejimi qurulub.

qardaşlarımızla necə yaşamalıyıq sualına cavab məhz bizdən asılıdır. Minilliklərlə çəkdiyimiz əziyyətdən sonra öyrəndiklərimizi göstərmək imkanımız var. Doğru yolu seçsək, uğur qazanacağıq və dünyanın qalan hissəsinə yaxşı nümunə olacağıq. Fələstin naminə etdiyimiz hər şey, bütün yəhudilərin şərəf və rifahı naminədir. Yəhudi xalqının ümumi məqsədlərinə sadiq ölkənin gənclərinə bir neçə kəlmə söyləməkdən məmnunam. Fələstində qarşılaşdığımız çətinliklərdən çəkinməyin. Belə çətinliklər öz icmamızda yaşamaq üçün qətiyyətli olduğumuza dair bir sınaqdır. İngiltərə rəhbərliyinin* müəyyən ifadələri və hərəkətləri əlbəttə ki, ədalətlə tənqid olunmalıdır. Lakin, bununla səbəb ola biləcək təhlükəli gərginliyin qarşısını ala bilərik. Bu məqsədə nail olmaq üçün yetərincə gücümüz var, lakin, bütün bunlar ərəb əhalisinin maraqlarını nəzərə alınmaqla gerçəkləşdirilməlidir. Bundan sonra bizim arbitr qismində mütəşəkkil dövlətin köməyinə ehtiyacımız olmayacaq. Bu vəziyyət həm yəhudilər, həm də ərəblər üçün qəbul olunmazdır. Beləliklə, yəhudi icmasının əhəmiyyət və sabitlik əldə etdiyi ənənələrinin tələblərinə riayət edəcəyik. Belə ki, bu cəmiyyət siyasi deyil və heç vaxt belə olmayacaq; ənənə onun həmişə güc ala biləcəyi yeganə mənbədir və mövcudluğunun yeganə bəraətidir.

Son iki min il ərzində yəhudi xalqının ümumi irsi yalnız onun keçmişindən ibarət idi. Sərhədsiz dünyada məskunlaşmış soydaşlarımızın qorunan bir ənənəsi istisna olmaqla, ümumi bir əlaqəsi yox idi. Şübhəsiz ki, bəzi yəhudilər yorulmadan işləyirdilər, lakin ümumilikdə yəhudi xalqının böyük kollektiv nailiyyətlər üçün kifayət qədər gücü yox idi. İndi hər şey fərqlidir. Tarix bizim qarşımızda böyük və şərəfli bir vəzifə qoyub: Fələstinin

qurulması üçün fəal əməkdaşlığa ehtiyacımız var. Xalqımızın görkəmli nümayəndələri bu məqsədə nail olmaq üçün artıq bütün səylərdən istifadə ediblər. Bütün yəhudi xalqının öz əməyi hesab edəcəyi mədəniyyət mərkəzləri yaratmaq imkanımız var. Fələstində oz milli mədəniyyətimiz uçun bir ev qurmaq umidimiz var və bu, bütün Orta Şərqin yeni iqtisadi və mənəvi həyatını oyatmağa kömək edəcəkdir. Sionist liderlərinin təyin etdiyi məqsəd siyasi yox, sosial və mədənidir. Fələstindəki icma Muqəddəs Kitabda olduğu kimi olmalı və eyni zamanda, butun dunya yəhudiləri uçun muasir intellektual və mənəvi həyat mərkəzinə çevrilməlidir. Ona gorə də, Sionist təşkilatının ən əhəmiyyətli hədəflərindən biri Quds Universitetini yaratmaqdır. Universitetin maddi bazasının yaradılması üçün son bir neçə ayı Amerikada qaldım. Bu müəssisəyə muvəffəqiyyət ozu gəldi. Amerikadakı yəhudi həkimlərin tukənməz enerjisi və fədakarlığı nəticəsində tibb fakultəsini yaratmaq uçun kifayət qədər pul toplaya və dərhal işə başlamaq üçün lazım olan hər şeyi hazırlaya bildik. Belə bir uğurdan sonra digər fakultələr uçun də maddi bazanın tezliklə yaranacağına şübhəm yoxdur. Tibb fakultəsi əsasən tədqiqat İnstitutu olaraq inkişaf edəcək və səylərini olkənin sağlamlığına yönəldəcəkdir, bu, onun inkişafının ən vacib istiqamətidir. Tələbələrin geniş miqyaslı təhsili sonradan ön plana çıxacaq. Bir çox yuksək səviyyəli alim artıq universitetdə vəzifələr tutmağa razı olduqlarını təsdiq etdikləri uçun tibb fakultəsinin qurulacağına şübhə yoxdur. Əlavə etməliyəm ki, universitetin xususi fondu olkənin ümumi inkişaf fondundan asılı olmayaraq fəaliyyət gostərir. Amerikada qaldığım müddətdə, fondun ehtiyacları üçün Professor Veyzmanın əməyi və sionizmin digər silahdaşları, əsasən, orta sinfin fədakarlığı hesabına əhəmiyyətli məbləğlər də toplanıb. Sonda almaniyalı yəhudiləri iqtisadi çətinliklərə

rəğmən, Fələstində yəhudi evi yaratmaq üçün mümkün olan hər şeyi qurban verməyə çağırıram. Bu, xeyirxahlıq məsələsi deyil, bütün yəhudilərə aid bir təşəbbüsdür, onun uğurları hamımıza ən böyük məmnuniyyəti verməyi vəd edir.

1921-ci il

Biz yəhudilər üçün, Fələstin

Biz yəhudilər üçün, Fələstin yalnız bir xeyriyyəçilik təşəbbüsü və ya koloniyası deyil, bütün yəhudi xalqı üçün müstəsna əhəmiyyətli bir problemdir. Fələstin, ilk növbədə təkcə Şərqi Avropanın yəhudiləri üçün sığınacaq yeri deyil, dünyanın bütün yəhudilərinin birliyi üçün yeni oyanmış ruhun diqqət mərkəzidir. Bu ruhu oyatmaq və gücləndirmək üçün indi yaxşı bir vaxtdırmı? Şübhəsiz ki, mən bu suala rasional səbəbləri əsas gətirib şərtsiz "bəli" cavabını verəcəyəm. Son yüz il ərzində Almaniyada yəhudilərin tarixini nəzərdən keçirək. Bir əsr əvvəl əcdadlarımız kiçik istisnalar olmaqla gettoda yaşayırdılar. Onlar kasıb və siyasi hüquqlardan məhrum idilər, qeyri-yəhudilərdən dini, məişət ənənələri, qanunverici məhdudiyyətlərlə ayrılmışdılar. Onların intellektual inkişafı öz şəxsi inkişaflarına bağlı idi və renessans dövründən başlayan Avropa intellektinin güclü irəliləyişi onlara təsir etməmişdi. Halbuki, bu alçaldılmış insanların böyük əksəriyyəti səmimi qəlbdən doğma torpağımızın iqtisadi və mədəni yenidən qurulmasında fəal iştirak etmək istəyirdi. İstedadlı insanlar bizim üçün yol açıblar və xalqımızın bir çox gözəl nümayəndəsi bu səbəbə görə özlərini qurban verməyə hazırdırlar. Qoy hər kəs bu işin nə qədər vacib olduğunu başa düşsün və öz bacarığı ilə onun uğur qazanması üçün töhfəsini versin!

Yəhudi İcması
Xanımlar və cənablar!

Mənim üçün sakit bir həyat tərzi keçirmək təbii meylini aradan qaldırmaq asan deyil. Buna baxmayaraq, SƏPC və SQC*, yəhudi xeyriyyə təşkilatlarının müraciətlərinə laqeyd qala bilmərəm, çünki ona cavab verərək əslində, qəddarcasına sıxışdırılan yəhudi xalqımızın çağırışına cavab verirəm.

Dünya üzrə yayılmış yəhudi icmamızın vəziyyəti siyasi dünyanın mənəvi barometridir. Belə ki, siyasətdə arzusu yalnız xalqlarının qədim mədəni ənənəsini qorumaq olan köməksiz azlıqlara münasibətdən daha dəqiq əxlaq və ədalət göstəricisi tapmaq mümkündürmü?

Hal-hazırda barometr fırtınanı göstərir, biz bunu qarşılaşdığımız kədərli təcrübəmizdə gördük, çünki onların bizə necə münasibət bəslədiyini bilirik. Bu, məni vəzifəmizin icmamızı qorumaq və birləşdirmək olduğuna qəti şəkildə təhrik etdi.

Yəhudi xalqının ənənəsində ədalətə və sağlam düşüncəyə sevgi var, bu sevgi indi də, gələcəkdə də, bütün xalqların xeyirinə xidmət etməlidir. Tarixi gedişatda bu ənənə həm Spinoza da, həm də Karl Marks da özünü göstərib.

Ruhunu qorumaq istəyən hər kəs onun yaşadığı bədənə qayğı göstərməlidir. SQC cəmiyyəti xalqımızın bədəninin qayğısına qalır. Bu cəmiyyət Şərqi Avropada yorulmadan işləyir, xüsusilə iqtisadi tənəzzülə uğrayan soydaşlarımıza kömək edir. Buna görə də, ruhun bədəndən ayrılmasına icazə vermir; SƏPC cəmiyyəti orta əsrlərdən bəri yəhudilərin yolunda dayanan ictimai və iqtisadi maneələri aradan qaldırmağa çalışır.

*Xeyriyyə təşkilatları "Yəhudilər arasında sənətkarlıq və əkinçilik işlərinin paylanması cəmiyyəti" və "Yəhudi əhalinin sağlamlığının qorunması cəmiyyəti".

O zamanlar birbaşa fayda gətirən hər hansı bir fəaliyyət seçmək hüququndan məhrum olduğumuzdan, özümüzü yalnız ticarətlə məhdudlaşdırmağa məcbur idik. Şərq ölkələrində yəhudilərə kömək etmək üçün yeganə yol, ona fəaliyyətin yeni sahələrinə çıxış imkanı verməkdir. Bu, çətin iş olsa da, SƏPC cəmiyyəti bunun öhdəsindən olduqca uğurla gəlir.

Yəhudi əsilli ingilis soydaşlarımız, gözəl insanların başladığı bu böyük işdə bizə kömək etmək üçün indi sizə müraciət edirik. Son bir neçə ilin deyil, son bir neçə günün, sizə təsir etdiyi bizə kədər gətirdi. Taleyinizdən gileyiənməyin, an yaxşısı bu hadisələri Yəhudi icmasının işinə sadiq qalmağın səbəbi kimi düşünün. İnanıram ki, bununla biz, dolayısı ilə hər zaman hər şeydən üstün tutmalı olduğumuz bəşəri məqsədlərə nail olmaq üçün imkan yaradırıq.

Unutmayın ki, istənilən cəmiyyət üçün çətinliklər və maneələr - güc və sağlamlıq mənbəyidir. Bizim yolumuz güllər ilə bəzədilsəydi, min illiklərlə xalq olaraq qalmazdıq - buna çox əminəm.

Lakin, bizim daha rahat bir təsəllimiz var. Bizim dostlarımız çox olmasa da, onların arasında alicənab ruhlu, yüksək ədalət hissinə sahib insanlar var, onlar öz həyatlarını insan cəmiyyətinin yaxşılaşdırılmasına və şəxsiyyətin alçaldıcı sıxışdırmalardan azad olunmasına həsr ediblər. Yəhudi dünyasından olmayan bu insanların bu gün bizim aramızda olmalarına görə xoşbəxtik. Onların iştirakı bu yaddaqalan axşamı daha da təntənəli edir. Qarşımda dünya görüşü xüsusilə məni heyran edən Bernard Şou və Herbert Vells'ı görməkdən son dərəcə məmnunam. Siz, cənab Şou, bütün dünyanın heyrətinə səbəb olub, uğurla rəğbətini qazanmısınız. Baxmayaraq ki, digərlərinin faciəyə gedib çıxa biləcəyi bir yol ilə irəlilləyirsiniz.

Siz yalnız soydaşlarınıza əxlaqi prinsipləri aşılamamısınız, həm də, bir çoxlarının müqəddəs hesab etdiklərinə istehza ilə yanaşmısınız. Əsl sənətkar kimi istehza etmisiniz. Sehrli qutunuzdan insanları xatırladan lakin, qandan deyil, ağıldan və cazibədən yaranan saysız-hesabsız fiqurlar çıxarmısınız. Onlar bizdən daha çox insanlara bənzəyirlər və az qala unutmaq olar ki, onlar təbiət deyil, Bernard Şou tərəfindən yaradılıblar. Siz bu cazibədar fiqurları miniatür aləmdə rəqs etməyə məcbur edirsiniz, halbuki, bu aləmin qapılarında mühafizəçilər keşik çəkir və ora qəm-qüssənin daxil olmasına imkan vermirlər. Bu miniatür dünyaya baxan hər kəs, miniatür kuklalarda gerçək dünyanın əksini görür. Siz, bizə güzgünü göstərməklə müasirlərimizin heç birinin verə bilməyəcəyi azadlığı bəxş etdiniz. Bütün bunlar üçün həm sizə, həm də şəfaətçi göndərdiyi üçün taleyimizə səmimi qəlbdən minnətdarıq.

Şəxsən, sizə sirli adaşıma ünvanladığınız unudulmaz sözlərə görə xüsusilə minnətdaram. Sizin hamınıza söyləmək istədiyim budur ki, bizim xalqın mövcudluğu və taleyi xarici amillərdən deyil, başımızın üstündə əsən dəhşətli fırtınaya baxmayaraq, bizə minilliklərlə yaşamağa kömək edən mənəvi ənənələrə sadiq qalmağımızdan asılıdır. Həyat adına qurbanlıq lütfkar bir qurbanlıqdır.

London 29 oktaybr,1930.

"İşçi Fələstin Liqası"

"İşçi Fələstin Liqası" əllərinin zəhməti ilə çölləri çiçəklənən yerlərə çevirən Sionist təşkilatlarına aiddir. Bu işçilər yəhudi xalqının güclü, özünə inamlı və fədakar insanlarından ibarət seçilmiş könüllülərdir. Onlar zəhmətlərinin bəhrəsini daha çox ödəyənlərə satan cahil zənginlər deyillər, onlar bütün yəhudi xalqına bilavasitə və ya dolayısı ilə fayda verən təhsilli, azad, intellektual insanlardır. Əgər əlimizdən gələni edib onların yükünü yüngülləşdirsək, ən qiymətli nemət olan insan həyatını xilas edəcəyik. Çünki, yaşayış üçün yararlı olmayan torpaqlarda məskunlaşmaq böyük şəxsi qurbanlar tələb edir. Bunu yalnız hər şeyi öz gözü ilə görən bir insan mühakimə edə bilər. Bu insanların həyatını və məişətini yaxşılaşdırmağa kömək edən hər kəs onların çox əhəmiyyətli bir işdə daha yaxşı çalışmalarına kömək edir. Bundan əlavə, yalnız işçi təbəqə ərəblər ilə sağlam əlaqələr yaratmaq gücünə malikdir, bu isə Sionist hərəkatının ən əhəmiyyətli siyasi məsələsidir. Hökumətlər hakimiyyətə gəlir və gedir, amma nəticə olaraq ölkənin həyatında hər şeyi insanlar arasında olan münasibətlər həll edir. Buna görə də, "İşçi Fələstin Liqası"-nı dəstəkləmək eyni zamanda, Fələstində layiqli və humanist siyasətin inkişafına dəstək deməkdir və bütün siyasi aləmin, eləcə də, az da olsa Fələstinin siyasi dairəsinin əziyyət çəkdiyi dar düşüncəli millətçilik cərəyanına qarşı müqavimət göstərməkdir.

Yəhudilərin dirçəlişi

"Keren Xa-Esod"* təşkilatı adından Macarıstan yəhudilərinə müraciət edərək sizin qəzetin xahişini məmnuniyyətlə yerinə yetirirəm. Yəhudilərin nüfuzunun

*"Keren Xa-Esod" - ("Birləşmiş İsrail Birliyi") – xeyriyyə təşkilatıdır, məqsədi – İsrail hökumətinə və diaspora yəhudilərinə kömək üçün vəsaitlərin toplanmasıdır

və milli şüurunun əsas düşmənləri - bizi əhatə edən qeyri-yəhudilərdən bir növ daxili asılılığımızdır. İnsanın içində olan bütün yaxşı xüsusiyyətlər yalnız özünü tamamilə cəmiyyətə həsr
etdiyi zaman çiçəklənir. Yəhudi üçün mənəvi təhlükələr də elə buradan başlayır, belə ki, onun öz xalqı ilə əlaqələri zəifləyir, onu qəbul edən millət isə ona yad münasibət bəsləyir. Belə hallarda tez-tez eqoizm yaranır. Yəhudi xalqının məruz qaldığı xarici təzyiq bu günlərdə xüsusilə çətinləşib. Lakin, bu təzyiq bizim yaxşılığımız üçündür. Yəhudilər üçün əvvəlki nəsillərin xəyal etmədiyi Yəhudi milli həyatının dirçəlişi başlanıb. Yəhudilər arasında həmrəylik hissinin yenidən oyanması ilə zəkalı liderlər Fələstinin müstəmləkəçiliyi planını hazırlayıblar. İlk baxışdan keçilməz görünən çətinliklərə baxmayaraq, bu plan uğurla fəaliyyət göstərir. Gələcəkdə uğurların davamlı olacağına heç bir şübhəm yoxdur. Bütün dünyada yəhudilər üçün bu nailiyyətlərin dəyəri çox böyükdür. Fələstin bütün yəhudilər üçün mədəni bir mərkəzə çevriləcək, xüsusilə, zülmə məruz qalanlar üçün sığınacaq, ən yaxşılarımız üçün fəaliyyət məkanı, xalqımızı birləşdirən ideal yer və bütün yəhudilərin daxili sağlamlıq əldə etməsi üçün bir vasitə olacaq.

Antisemitizm və təhsil alan gənclər

Gettoda yaşayarkən yəhudi xalqına mənsub olmağımız maddi çətinliklərə səbəb olurdu. Bəzən isə fiziki

təhlükələrlə üzləşirdik, lakin sosial və ya psixoloji çətinliklərlə qarşılaşmırdıq. İndi assimilyasiyanın gəlişi ilə xüsusilə intellektual peşə sahibi olan olan yəhudilər üçün vəziyyət dəyişib. Məktəbdə və universitetdə təhsil alan gənc bir yəhudi müəyyən milli hisslərə malik ətrafının təsirinə məruz qalır və bu ətraf-aləm onda hörmət və heyranlıq yaradır, ona intellektual dəstək verir, ona mənsubluq hissi bəxş edir. Cəmiyyət isə ona yad bir irqin nümayəndəsi kimi açıq-aydın nifrət və düşmənçiliklə yanaşır. Məhz cəmiyyətin bu psixoloji üstünlük hissi gəncləri öz xalqından və ənənələrindən üz çevirməyə və tam başqa dairəyə aid olduğu qərarlarını verməyə məcbur edir. Lakin, o, əbəs yerə bu münasibətlərin qarşılıqlı olduğuna özünü və başqalarını inandırmağa çalışır. Beləcə, qexaymrat* üzvlərinə oxşar və nə yəhudi cəmiyyətinə, nə də qeyri-yəhudilərə aid olan "yazıq canlılar" əmələ gəlir. Əksər hallarda onlar, xarakter zəifliyindən deyil, qeyd etdiyim kimi, ətraf mühitin təsiri nəticəsində belə olurlar. Təbii ki, onlar Avropa mədəniyyətinin şöhrətini yəhudi xalqının bir çox görkəmli övladlarına borclu olduğunu başa düşürlər,
lakin nadir istisnalar olmaqla onların da çoxu bu cür davranaraq bu cəmiyyətdən ayrılmadımı? Bu halda, digər ruhi pozuntularda olduğu kimi şəfa üçün yeganə yol - onların öz vəziyyətlərini və bunun səbəblərini aydın dərk etməsidir. Başa düşməliyik ki, həqiqətən, yad bir irqə məxsusuq və buradan məntiqi nəticələr çıxarmalıyıq. Ətrafdakıları bizim intellektual və mənəvi bərabərliyə iddia etməməyimizə inandırmaq mənasızdır. Yaxşı olar ki, sosial müstəqillik əldə edək və əsas etibarilə öz gücümüzlə sosial ehtiyaclarımızı təmin edək. Öz tələbə cəmiyyətlərimizi yaratmalıyıq, qeyri-yəhudilərdən ayrıl- malı və nəzakətli bir mövqe almalıyıq. Gəlin, bacardığımız

kimi yaşayaq, sərxoşların və tüfeylilərin adətlərini qəbul etməyək, bu adətlər bizim təbiətimizə yaddır. Əksinə, sivil bir avropalı, yaxşı vətəndaş və öz xalqını sevən, əcdadlarına hörmətlə yanaşan əsl yəhudi olmaq mümkündür. Əgər bunu nəzərə alsaq, antisemitizm probleminin həll olunduğunu hesab edə bilərik.

Reyxsprezident, professor doktor Gelpaxa* məktub

Hörmətli cənab Gelpax!

Sionizm və Sürix konqresinə dair yazınızı oxudum və Sionist ideyanın sadiq tərəfdarı olduğumdan, qısaca olsa da, sizə cavab verməyi özümə borc bilirəm. Yəhudilər yalnız dini deyil, qan və ənənə ilə bağlı bir cəmiyyətdir və bu da bütün dünyanın onlara qarşı münasibətində özünü göstərir. Mən on beş il əvvəl Almaniyaya gəldiyimdə ilk dəfə yəhudi olduğumu başa düşdüm və bu kəşfi yəhudilərdən çox qeyri-yəhudilərə borcluyam. Yəhudilərin faciəsi - onu bir yerdə saxlamağa kömək edən dövlətin dəstəyindən məhrum, ancaq müəyyən bir tarixi xalq olaraq olmağındadır. Nəticədə, ayrı-ayrı şəxslərin onları birləşdirəcək möhkəm bünövrəsi yoxdur bu isə öz növbəsində mənəvi qeyri-sabitliyə gətirib çıxarır. Anladım ki, bu xalq üçün yeganə çıxış yolu hər bir yəhudinin mənsub olduğu cəmiyyətdə xoşbəxt ola bilmə hissi və özünü ona aid hiss etməsidir. Belə bir cəmiyyət ona dünyanın digər qalan hissəsindən qaçılmaz nifrət

*Qexaymrat («gizli birliklər») Qərbi Avropanın bəzi bölgələrində XX əsrin əvvəllərinə kimi yəhudi icması və hökümət arasında vasitəçi rolunu oynayırdılar; ikili oyun oynadıqları üçün heç bir tərəfin etibarını qazana bilməyiblər.

*Villi Gelpax (1877-1955) — alman həkim, psixoloq və siyasi xadim.

və təhqirə dözə biləcəyi hissini aşılayır. Mən layiqli yəhudilərin xəyanətkar karikaturalarını görmüşəm və bu, mənim ürəyimi sızladıb. Qeyri-yəhudi birliklərinin, məktəblərinin, qəzetlərinin və saysız-hesabsız digər vasitələrin mənim ən yaxşı yəhudi qardaşlarımda belə, özünə inam hissini necə aşağıladığını görmüşəm və başa düşmüşəm ki, bu belə davam edə bilməz, bu qəbuledilməzdir. Sonradan dərk etdim ki, bizim xalqın səhhətini bərpa etmək üçün dünyadakı bütün yəhudilərin ürəyincə olan ümumi səbəb olmalıdır. Herzlin ən böyük nailiyyəti, yəhudilər arasında ənənəvi düşüncə çərçivəsini nəzərə alaraq səsini yuxarılara çatdırıb, səylərimizi birləşdirmək üçün uyğun bir hədəf, milli bir gücün və ya daha dəqiq desək, Fələstində milli mərkəzin yaradılması oldu.Bütün bunları millətçilik adlandırırsınız, - bu, ümumiyyətlə, bir ittihamdır. Ancaq həmişə bu ümumi məqsədi belə çirkin sözlə adlandırmaq olar. Hər bir halda bu millətçilik yalnız ləyaqət və sağlam düşüncə axtarır. Əgər biz dar düşüncəli, dözümsüz, qəddar insanlarla münasibətdə olmasaydıq, mən ümumbəşəri insan ideallığına qarşı istənilən millətçiliyi rədd edən ilk şəxs olardım.

Biz, yəhudilər, "xalq olmaq istəyiriksə Alman dövlətinin layiqli bir vətəndaşı ola bilmərik" kimi etirazlar, milliyətçi cəmiyyətin səbrsizliyindən yaranan dövlətin necə olması haqqında yanlış düşüncələrdən irəli gəlir. Özümüzü xalqı və millət adlandırdığımızdan asılı olmayaraq hamımız bu dözümsüzlükdən əziyyət çəkəcəyik. Bütün bunları sərt şəkildə izah etməyim məzmunu qısa etmək istəyimdən yaranır, lakin,

yazılarınızdan görürəm ki, siz forma deyil, məzmuna üstünlük verənlərdənsiniz.

8 oktyabr 1924

Bir ərəbə məktub

Sizin məktubunuz mənə böyük məmnunluq gətirdi. Bu göstərir ki, sizin də xalqlarımızı rüsvay etmədən qarşıdakı çətinlikləri həll etmək arzunuz var. Zənnimcə, bu çətinliklər real yox, psixolojidir və hər iki tərəf bu işə səmimi və dürüst yanaşarsa, onları aradan qaldırmaq olar.

Yəhudilər və ərəblər Britaniya məclisinin təşkilindən əvvəl bir-birlərinə qarşı çıxdıqlarından yaranmış vəziyyət xüsusilə ağırlaşır. Belə bir vəziyyət hər iki xalqın ləyaqətinə yaraşmaz və hər iki tərəfin razılaşacağı bir kompromis tapsaq, dəyişə bilər.

İndi, mövcud çətinlikləri aradan qaldırmağın mümkünlüyünü sizə izah edəcəyəm; əlavə olaraq qeyd etməliyəm ki, bu mənim şəxsi fikrimdir və heç kimlə müzakirə olunmayıb. Bu məktubu ingilis dilində yaza bilməyəcəyimdən, alman dilində yazıram və bunun üçün tam məsuliyyət daşıyıram. Əminəm ki, onu tərcümə etməyə razı olacaq bir yəhudi dostunuz tapılacaq.

Həm yəhudi, həm də ərəb tərəfin hər hansı siyasi partiyadan asılı olmayan dörd nümayəndəsi tərəfindən irəli sürülən gizli bir məclis yaratmaq lazımdır.

Hər bir qrupun tərkibi aşağıdakı kimi olmalıdır: tibb cəmiyyəti tərəfindən seçilmiş bir həkim; vəkillər tərəfindən seçilmiş bir vəkil; həmkarlar ittifaqı tərəfindən seçilmiş işçilərin nümayəndəsi; ruhanilər tərəfindən seçilmiş bir kahin.

Bu səkkiz nəfər həftədə bir dəfə görüşməlidir. Onların vəzifəsi öz peşələrinin və ya insanların dar maraqlarını

müdafiə etmək deyil, bütün ölkə əhalisinin rifahına nail olmaq üçün səy göstərməkdir. Müzakirələr gizli olmalıdır, onlar haqqında hər hansı bir məlumatı, hətta şəxsi söhbətlər olsa belə açıqlamaq qadağandır. Hər hansı bir məsələdə qərar qəbul edildikdə, hər iki tərəfdən Şuranın dörd üzvündən ən az üçü razılaşmalı və dərc edildikdə ümumi olaraq Şuranın adından dərc olunmalıdır. Əgər Şuranın üzvlərindən biri bu qərarla razı deyilsə, o, Şuradan çıxmaq hüququna malikdir. Lakin, bu onu məxfiliyi qoruyub saxlamaq öhdəliyindən azad etmir. Öz nümayəndələrini təqdim edən yuxarıda göstərilən icmalardan hər hansı biri Şuranın qərarı ilə razı deyilsə, onun nümayəndəsini dəyişmək hüququ var. Hətta, əgər bu Gizli Şura heç bir qüvvəyə malik olmasa da, tədricən o, bəzi dəyişikliklərə səbəb olacaq və ölkənin ümumi maraqlarını müdafiə edən birgə nümayəndəliklərə xidmət göstərəcək.

Hər bir xoşməramlı insanın borcu – böyük səylə saf humanizm haqqında təlimin geniş miqyas almasına çalışmaqdır. Əgər o, bu istiqamətdə var gücü ilə səmimi şəkildə çalışsa və müasirləri onu əzib keçməsə, hesab etmək olar ki, o və onun cəmiyyəti uğur qazanıb.

15 mart 1930-cu il

Əlavə
Rassel-Eynşteynin Manifesti*

Bəşəriyyətin faciəli vəziyyətdə olduğu bu günlərdə hesab edirik ki, kütləvi qırğın silahlarının hazırlanmasının inkişafı ilə əlaqəli təhlükəni qiymətləndirmək və bu sənədə əlavə olunmuş qətnamədən qərar çıxarmaq üçün elm adamlarının konfransa toplaşmaları lazımdır. Biz

*Bu sənəd Albert Eynşteynin dünyagörüşünü parlaq əks etdirdiyindən onu oxucuya çatdırmağı lazım bildik.

müəyyən bir insanın, qitənin və ya dinin nümayəndəsi kimi deyil, bundan sonra mövcudluğu şübhə altında olan, bəşəriyyətin bioloji nümayəndələri olan varlıq kimi çıxış edirik. Münaqişələr dünyanı parçalayır, lakin bütün ikinci dərəcəli münaqişələr kommunizmlə anti-kommunizm arasında olan nəhəng döyüşün qarşısında aciz qalır.

Demək olar ki, siyasi mövqeyi olan hər şəxsin müxtəlif məsələlərdə sabit qərarı güclü simpatiya və antipatiya tərəfindədir. Lakin, biz istəyirik ki, mümkün qədər bu simpatiyalar və antipatiyalardan imtina edilsin və özünüz haqqında yalnız zəngin tarixə malik, məhv olmasını heç kimin istəmədiyi bioloji bir növün nümayəndələri kimi düşünəsiniz. Hər hansı kəlmə ilə bu və ya digər düşərgəyə meyilli olduğumuzu bildirməməliyik. Təhlükə hamı üçün eyni dərəcədədir, əgər hamı bu təhlükəni başa düşsəydi, güman ki, birgə səylər nəticəsində bu təhlükəni aradan qaldırmaq olar.

Yeni tərzdə düşünməyi öyrənməliyik. Biz seçdiyimiz tərəfin müharibədə qələbə çalması üçün hansı addımlar atmamızın lazım olduğunu özümüzdən soruşmamalıyıq, - artıq belə addımlar yoxdur; bütün iştirakçılar üçün faciəvi nəticələrə gətirib çıxaran hərbi toqquşmaların qarşısını almaq üçün hansı addımlar atmalı olduğumuzu soruşmalıyıq. Ümumi ictimaiyyət və hətta, bir çox nüfuzlu insan hələ nüvə bombalarını istifadə edərək müharibəyə səbəb olacaqlarını anlaya bilmirlər. İctimaiyyət hələ də məsələyə şəhərlərin məhv edilməsi prizmasından yanaşır. Hesab olunur ki, yeni bomba köhnədən daha güclüdür və əgər Hirosimanı yer üzündən silməyə bir atom bombası kifayət edibsə, bir hidrogen bombası ən böyük şəhərləri - Londonu, Nyu Yorku, Moskvanı məhv edə bilər. Şübhəsiz ki, hidrogen bombaları ilə olan müharibədə böyük şəhərlər məhv olacaq. Ancaq bu,

qarşılaşacağımız fəlakətlərin kiçik bir hissəsidir. Əgər Londonun, Nyu-Yorkun, Moskvanın əhalisi məhv olarsa, dünya bu zərbədən bir neçə yüzillikdən sonra özünə gələcək. Lakin, indi xüsusilə atollanın Bikinidəki sınaqlarından sonra, biz bilirik ki, nüvə bombaları bütün canlıları gözlənilməndən daha geniş ərazilərdə məhv edə bilər. Tam əsaslı şəkildə söyləyə bilərik ki, bu gün Hirosimanı məhv edəndən 2500 dəfə daha güclü bomba yaratmaq mümkündür. Belə bir bombanı yerdə və ya suyun altında partlatsanız, radioaktiv hissəciklər atmosferin üst qatına düşəcək.Tədricən onlar yerin səthinə ölümcül toz və ya duman şəklində enəcəklər. Yapon balıqçıları radiasiya ilə yoluxduran məhz bu cür toz olub. Heç kəs bu ölümcül radıoaktiv hissəciklərin hara kimi yayılmasını bilmir, lakin ən nüfuzlu ekspertlər yekdillikla təsdiq edirlər ki, hidrogen bombası tətbiq edilən müharibələr insan nəslinin mövcudluğunun sonuna gətirib çıxara bilər. Ehtimal etmək olar ki, çoxsaylı hidrogen bombaları tətbiq olunarsa, hamı məhv olacaqdır. Belə ki, anl ölüm yalnız bir neçə nəfərə qismət olacaq, əksəriyyəti isə bütün mümkün xəstəliklərdən tədricən və əziyyətli ölüm gozləyir. Hərbi strategiya üzrə tanınmış alim və mütəxəssislər təhlükə barədə dəfələrlə xəbərdarlıq ediblər. Onların heç biri ən pisin real-laşacağını iddia etmir. Onlar yalnız belə nəticələrin ola bilmək ehtimalının olduğunu və heç kimin bunların baş verməyəcəyinə zəmanət verə bilməyəcəyini iddia edirlər. İndiyə kimi biz bu mövzuda ekspertlərin fikirləri ilə onların siyasi baxışları və meyilləri arasında heç bir əlaqə tapmamışıq. Araşdırmalarımız göstərib ki, bu fikirlər mütəxəssisin biliklərinin dərinliyindən asılıdır. Müəyyən etmişik ki, insan nə qədər çox bilirsə, onun proqnozları da bir o qədər qorxulu olur. Beləliklə, qarşınızda qoyduğumuz sual – sərt, dəhşətli, qaçılmaz bir sualdır: İnsan nəslinin mövcudluğuna son qoyacağıqmı və ya

bəşəriyyət müharibələrdən imtina edəcəkmi? Heç kim belə bir seçim ilə qarşılaşmaq istəmir,həqiqətən, müharibəni qadağan etmək çox çətindir. Əgər müharibələr qadağan olunarsa, ayrı-ayrı ölkələrin müstəqilliyinə xoşagəlməz məhdudiyyətlər qoymalıyıq. Demək olar ki, heç kim təhlükənin Yer kürəsinin hansısa bir qövmünü deyil, onu, uşaqlarını və nəvələrini təhdid etdiyini təsəvvur etmir. Heç kim özünün və ailəsinin əzablı ölüm təhlükəsi ilə qarşılaşacağını qəbul edə bilmir. Buna görə də, hər kəs mübarizə aparmağa davam edə biləcəyinə ümid edir və ancaq müasir silahların istifadəsinin qarşısını almaq lazım olduğunu düşünürlər. Bu xəyali bir ümiddir. Sülh dövründə hidrogen bombalarının istifadəsini qadağan edən hər hansı bir razılıq əldə etmək olar, ancaq müharibə dövründə bunun qarşısını almaq mümkün olmayacaq və hər iki tərəf hidrogen bombası yaratmağa başlayacaq. Belə ki, bombanı yalnız bir tərəf istehsal etsə, istehsal edən tərəfin qalib olacağı qaçılmazdır. Silahların ümumən azaldılması çərçivəsində nüvə silahlarının qadağan edilməsi haqqında saziş problemin tam həllinə imkan verməsə də, müəyyən əhəmiyyətli məqsədlərə xidmət edəcəkdir.Ümümilikdə birincisi, Şərqlə Qərb arasındakı əldə olunacaq hər hansı bir razılaşma yaxşıdır, çünki gərginliyi azaldacaq. İkincisi, hər iki tərəf dürüstlüklə termonuklear silahların qadağan olunmasına əmin olmaqda "Pearl Harbor" üslubunda qəfil hücumdan qorxmur, lakin bu qorxu hər iki tərəfi narahatlıq və gözlənti halında saxlayır. Ona görə də, ən azından ilk addım kimi, belə bir razılaşmanı qəbul etməliyik. Əksəriyyətimiz qərəzsiz deyilik, ancaq insan olduğumuza görə, unutmamalıyıq ki, Şərqlə Qərb arasındakı ziddiyyətlərin ən azı birini - kommunistləri və ya anti-kommunistləri, Asiya, Avropa və ya Amerikanı, ağ və ya qara dərililəri məmnun etmək olarsa, bunu müharibə

yolu ilə etməməliyik. Biz istəyirik ki, bunu həm Şərqdə, həm də Qərbdə başa düşsünlər.
Doğru seçim etsək, qarşımızda daimi bir irəliləyiş, xoşbəxtlik, bilik və hikmət dolu yol var. Aramızda olan münaqişələri unuda bilmədiyimizdən ölümü seçməyə dəyərmi? Biz insanıq və qardaşlarımız insanlara müraciət edirik: insanlığınızı xatırlayın və hər şeyi unudun. Əgər buna müvəffəq olsanız, yer üzündə cənnətin yolunu tapacaqsınız; müvəffəq olmasanız, çox güman ki, hamınızı ölüm gözləyir.

London, 1955

Qətnamə

Biz bu görüşdə olanlara, onun vasitəsilə - planetin bütün alimlərinə və ümumi ictimaiyyətə aşağıdakı qətnaməni imzalamağı təklif edirik. "Hər hansı bir gələcək dünya müharibəsində nüvə silahlarının istifadəsi qaçılmaz olaraq istifadə ediləcəyi və belə silahların insan nəslinin kəsilməsini təhdid etməsinə baxmayaraq, biz, bütün dünya hökumətlərinin məqsədlərinə müharibə yolu ilə çata bilməyəcəyini anlamasını və ictimaiyyət qarşısında bunu etiraf etmələrini istəyirik və buna görə də, hər hansı mübahisəli məsələləri həll etmək üçün sülh yolu tapmaqlarını təkid edirik".

Professor Maks Born,
Berlin, Frankfurt və Gettingendə nəzəri fizika, Edinburgda təbiət fəlsəfəsprofessoru, fizika üzrə Nobel mükafatı laureatı

Professor Percy W. Bridgman,
Harvard Universitetində professor, fizika üzrə
mükafatı laureatı Nobel

Eynşteyn Professor Leopold Infeld,
Varşava Universitetində nəzəri fizika professoru

Professor Frederik Jolio-Kyuri,
Fizika professoru, Kimya üzrə Nobel mükafatı laureatı

Professor Hermann Möller,
Indiana ştanının Universitetində Zoologiya professoru,
Fiziologiya və Tibb üzrə
Nobel mükafatı laureatı

Professor Laynus Polling,
Kaliforniya Texnologiya İnstitutunun Kimya professoru,
Kimya üzrə Nobel
mükafatı laureatı

Professor Sessil Pauell,
Bristol Universitetində fizika professoru, Fizika üzrə
Nobel mükafatı laureatı

Professor Josef Rotblat,
London Universitetinin Fizika professoru

Lord Bertran Rassell Professor Hideki Yukawa,
Kyoto Universitetində nəzəri fizika professoru, Fizika
üzrə Nobel mükafatı laureatı

Format 84x108 1/32
Ofset çap üsulu. F.ç.v. 7,75
Sayı: 700 ədəd.

"OL npkt-nin mətbəəsində çap olunub.
AZ 1009 Bakı, Mirzə İbrahimov 43.
Tel: (012) 497-36-23
E-mail: olnpkt@gmail.com

Albert Eynşteyn (1879 -1955) - alman nəzəriyyəçi və fizik, fizika üzrə Nobel mükafatı laureatçısıdır. Planetimizin bir çox sakini üçün Albert Eynşteynin nəzəriyyələri tapmaca kimidir, onun elmin inkişafına olan töhfələrini qiymətləndirməyə çox az sayda intellektual insan qabildir. Lakin Albert Eynşteyn şəxsiyyətinin başqa tərəfləri də var. Biz bunu adi problemlərin onu necə narahat etməsində, ictimai hadisələrə münasibətində, onlar haqqında dediklərinə nəzər yetirdikdə görə bilərik. "Mənim Gördüyüm Dünya" kitabı Albert Eynşteynin əxlaqi prinsiplərə, dinə, təhsilə, dünyəvi problemlərə və müharibələrə münasibətini göstərmək məqsədilə seçilmiş qeydlərindən ibarətdir. Kitabın əsl məqsədi taleyə qarşı müqavimətdir. Kitaba 1935-ci ilə qədər müxtəlif illərdə yazılan və müxtəlif mövzulardan əsərlər daxil edilmişdir. Albert Eynşteyn insanlığa,bütün dünyada sülhə, qarşılıqlı yardıma və elmin böyük missiya daşıdığına inanır. Kitab hər birimizin öz düşüncə və fikirlərini yenidən nəzərdən keçirməyə vadar edir.

ISBN- 978-9952-37-075-1
9 789952 370751

NDİVİD

6 AZN